

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET — № 124 (7379) / Cümə, 12 iyul 2019-cu il




## Prezident İlham Əliyev:

# Cənub Qaz Dəhlizi layihəsi uğurla həyata keçirilir

...Biz, həmçinin enerji təhlükəsizliyi, nəqliyyat sektoru ilə bağlı məsələləri müzakirə etdik. Azərbaycan və Avropa İttifaqı bu sahələrdə çox konstruktiv əməkdaşlıq edir. Cənub Qaz Dəhlizi layihəsi uğurla həyata keçirilir. Nəqliyyat sektoruna gəlincə, Azərbaycanda logistika və nəqliyyat sahəsinə yatırılan investisiyalar bizə mühüm nəqliyyat habına çevrilmək imkanı verib. Şərq-Qərb və Şimal-Cənub dəhlizləri ölkəmizin ərazisindən keçir. Sözsüz ki, coğrafi mövqeyimiz üstünlük yaradır, lakin nəqliyyat sektoruna investisiyalar yatırılmasaydı, coğrafi mövqeyimiz o qədər də böyük məna kəsb etməzdi.

## Davamlı modernləşməyə və sosial rifaha xidmət edən islahatların müəllifi



Baxı: səh. 3

## Bakıda "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu keçirilir




Baxı: səh. 12

## SOCAR-ın prezidenti Çinin İpək Yolu Fondunun Müşahidə Şurasının sədrini qəbul edib



Baxı: səh. 7

Baxı: səh. 10



## Müstəqilliyə doğru böyük dönüş və milli oyanışın başlanması

Baxı: səh. 14




*Tağı Əhmədov:*

## Ulu öndər Heydər Əliyev tarixin yaratdığı şəxsiyyət idi və Özü də tarix yaradırdı

Baxı: səh. 13



## "Yay məktəbi"nin iştirakçıları Milli Məclisin deputatları ilə görüşüblər

9 Bakı Ali Neft Məktəbinin tələbələri "CanSat Azərbaycan 2019" müsabiqəsində 2-ci yerin qalibi olublar

9 SOCAR İstiqrazlarının sahibləri 13.75 milyon dollar qazanacaqlar

24 "Neftçi İdman Klubu"nun təmsilçiləri ilin birinci yarısında 676 medala sahib olublar

## “İSLAM SİVİLİZASİYASI QAFQAZDA” II BEYNƏLXALQ SİMPOZİUMUNUN İŞTİRAKÇILARINA

*Hörmətli Simpozium iştirakçıları!*

*Sizi ölkəmizin paytaxtı Bakı şəhərində salamlamaqdan məmnun olduğumu bildirir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.*

*Etnik-mədəni müxtəlifliyi və təbii-coğrafi zənginlikləri ilə dünyanın unikal guşələrindən olan Qafqazın son 1400 illik tarixi İslam dini ilə bağlıdır. Azərbaycanda, o cümlədən Qafqazın müxtəlif bölgələrində bu dinə məxsus çoxsaylı maddi və qeyri-maddi mədəniyyət nümunələri İslam sivilizasiyasının regiondakı dərin köklərindən xəbər verir. Bu gün Qafqazda yaşayan xalqların bir çoxunun mədəniyyətinin əsasını İslam dəyərləri təşkil edir.*

*İslam VII əsrin ortalarından etibarən Azərbaycanda yayılmağa başlamış və ölkəmiz İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən birinə çevrilmişdir. Xalqımız yüz illər boyu belə bir mədəni-mənəvi müstəvidə bəşəri fikir tarixinə böyük şəxsiyyətlər bəxş etmiş, dünya şöhrətli azərbaycanlı alim və mütəfəkkirlər, söz və sənət dühaları İslam mədəniyyətinin inkişafında müstəsna xidmətlər göstərmişlər.*

*Tarixən olduğu kimi, bu gün də Azərbaycanda islami dəyərlərin qorunmasına xüsusi əhəmiyyət verilir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 9-11 dekabr 1998-ci ildə “İslam sivilizasiyası Qafqazda” Beynəlxalq Simpoziumunun Bakıda keçirilməsi xalqımızın öz tarixi keçmişinə və milli-mənəvi dəyərlərinə bağlılığın bariz nümunəsi idi.*

*2017-ci ilin Azərbaycan Respublikasında “İslam Həmrəyliyi İli” elan edilməsi və IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi müasir narahat dünyamıza əmin-amanlıq və həmrəylik çağırışları kimi qiymətləndirilməlidir. Bir sıra ölkələrdə islamofobiyanın vüsət aldığı hazırkı dövrdə biz insanları birliyə, bərabərliyə, sülhə və tolerantlığa dəvət edən ümumbəşəri İslam dəyərlərinin təbliği istiqamətində ardıcıl səylərimizi, eyni zamanda, mədəniyyətlərarası dialoq və əməkdaşlıq təşəbbüslərimizi bundan sonra da davam etdirəcəyik.*

*“İslam sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumunun maraqlı və konstruktiv müzakirələr şəraitində keçəcəyinə, Azərbaycanın, ümumilikdə Qafqazın İslam sivilizasiyasının inkişafındakı tarixi yerinin və rolunun araşdırılmasına yeni töhfələr verəcəyinə əminliyimi bildirir, toplantınızın işinə uğurlar arzulayıram.*

**İLHAM ƏLİYEV**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 10 iyul 2019-cu il.

## Heydər Əliyev Fondunun dəstəyi ilə Xalq artisti Yalçın Rzazadə tam müayinə və müalicə kursu keçəcək

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən Xalq artisti Yalçın Rzazadənin səhhəti ilə bağlı məsələləri Fond öz nəzarətinə götürüb.

Trend-in məlumatına görə, səhhətində son zamanlar yaranmış narahatlıqlarla əlaqədar müğənni Heydər Əliyev Fondunun dəstəyi ilə tam müayinə və müalicə kursu keçəcək.

## Qoşunların təmas xəttində nisbi sakitlik müşahidə olunub



Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

*Prezident İlham Əliyev:*

# Bu mənim borcumdur, xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir



1990-cı illərin əvvəllərində Ermənistanın torpaqlarımızı işğalı nəticəsində evlərindən didərgin düşən məcburi köçkün və şəhid ailələrinə göstərilən qayğı son aylarda həyata keçirilən sosial paketin əsas istiqamətlərindəndir. Ulu öndər Heydər Əliyevin daim diqqət göstərdiyi qaçqınlara və məcburi köçkünlərə qayğı son illərdə daha da artırılmışdır.

Məcburi köçkünlər üçün yüzdən çox şəhərcik və qəsəbə salınmış, təkcə keçən il 5900 məcburi köçkünə mənzillər, fərdi evlər verilmişdir. Bu günə qədər 6650 şəhid ailəsinə dövlət tərəfindən mənzillərin, evlərin, 6 mindən çox şəhid ailəsinə minik avtomobillərinin verilməsi sosial islahatların tərkib hissəsidir.

Sosial islahatları insan amilinə diqqət kimi nəzərdə saxlayan, aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli ilə yaxından maraqlanan Prezident İlham Əliyevin bu tezisi həqiqətdir: Dünyada elə bir ölkə yoxdur ki, əhaliyə, ağır vəziyyətdə yaşayan vətəndaşlara, yaxınlarını itirmiş şəhid ailələrinə Azərbaycanda olduğu qədər diqqət, qayğı göstərilsin.

Regionlara səfərləri zamanı sakinlərlə görüşən, insanların istəkləri ilə maraqlanan dövlət başçımızın “ Azərbaycanın dövlət siyasətinin əsasında insan amilidir” tezisi söz, vəd deyil, əməli fəaliyyətdir. “Mən şəhid ailələrinə mənzillərin, avtomobillərin açarlarını şəxsən təqdim etmişəm və bunu özüm üçün borc bilirəm. Bu mənim borcumdur, xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir. Mənim üçün bu, böyük şərəfdir ki, sizə bu istiqamətdə xidmətimi göstərim” söyləyən cənab İlham Əliyevin 2018-ci ilin 11 aprel prezident seçkilərindən sonra imzaladığı ilk Fərmanın şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı olması da təsadüfi deyildir. Bu Fərman əsasında 10 minə yaxın şəhid ailəsinə dövlət tərəfindən 11 min manat məbləğində birdəfəlik ödəmələr verildi.

Bu Fərman əsasında 11 min manatı alacaq vətəndaşların sayı 2725 nəfər artırıldı. Böyük vəsait tələb edən bu proqramın icrası üçün dövlət büdcəsindən ümumilikdə 135 milyon manat vəsait ayrıldı.

Təkcə keçən il 626 şəhid ailəsi yeni mənzillərlə, fərdi evlərlə təmin olundu. Bu il əlavə 800 şəhid ailəsinə yeni mənzillər, evlər veriləcəkdir. Növbəti bir neçə il ərzində bütün şəhid ailələrinin, qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitləri tam yaxşılaşdırılacaq.

“Bu bizim siyasətimizdir, bu, bizim yolumuzdur, biz bu yolu gedirik” söyləyən cənab İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın bu günlərdə Pirallahı rayonundakı yataqxanalarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər üçün inşa olunan yeni yaşayış kompleksinin açılışında iştirakı sosial paketdə nəzərdə tutulan islahatların davamlı olmasını göstərir.

Pirallahı rayonundakı yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış 306 məcburi köçkün ailəsi üçün çoxmərtəbəli binalardan ibarət yeni yaşayış kompleksi dövlət başçımızın 2011-ci ildə imzaladığı Sərəncam əsasında inşa olunub.

Kompleksdə layihə üzrə doqquzmərtəbəli 3 bina tikilib ki, bunlardan ikisi 72, biri isə 162 mənzillidir. Sosial obyektlərin də daxil olduğu yaşayış kompleksində digər zəruri infrastruktur yaradılıb, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb. Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sisteminin, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilib. Bu, ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 104-cü müasir yaşayış kompleksidir.

Ümumi sahəsi 24 min kvadratmetr olan kompleksdə inşa olunan təmirli mənzillərdən 37-si birotaqlı, 107-si ikiotaqlı, 126-sı üçotaqlı, 36-sı isə dördotaqlıdır.

Xatırladaq ki, son illərdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələr əsasında Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksi inşa edilib. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edilib. Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasında müvəqqəti yaşayan məcburi köçkün ailələri köçürülüb. Sumqayıtdakı 1005 məcburi köçkün ailəsi üçün inşa olunmuş yaşayış binaları da məcburi köçkünlərin istifadəsinə verilib. 2007-ci ildə sonuncu çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,5 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. 2018-ci ildə 58 min 223 ailə və ya 300 minə yaxın qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. Təkcə ötən il 5923 məcburi köçkün ailəsi yeni mənzillərə köçürülüb. 2019-cu ilin birinci rübündə isə 2.227 məcburi köçkün ailəsi yeni mənzillərlə təmin olunub. Müasir tələblər səviyyəsində salınan Cocuq Mərcanlı, Şıxarx kimi yaşayış məskənləri sakinlərini qəbul edib.

Pirallahıda olarkən son illərdə paytaxtımızda, respublikanın müxtəlif bölgələrində məskunlaşan məcburi köçkünlərin məişət problemlərinin uğurla həll olunduğunu diqqətə çatdıran dövlət başçımız məcburi köçkünlərin problemlərinin həlli üçün lazımi tədbirlərin görüləcəyini diqqətə çatdırdı.

Pirallahıda əsasən Laçın rayonundan olan 306 köçkün ailəsi üçün gözəl şəraitin yaradılması rayonda uğurla davam etdirilən inkişafın da göstəricisidir. Rayonda 286 ailəni əhatə edən 1104 nəfər məcburi köçkün məskunlaşıb. 286 ailədən 110-u Laçın rayonundandır. İstifadəyə verilən Laçın rayonu, 220 yerlik Bozlu tam orta məktəbində də tədrisin yüksək səviyyədə təşkili, müasir texnologiyalardan səmərəli istifadə üçün lazımi şərait yaradılıb.

Son illərdə rayonda aparılan quruculuq işləri Pirallahıya yeni görkəm vermişdir. Gündən-günə gözəlləşən rayonda yeni sənaye müəssisələri inşa olunmuş, şpris zavodu açılmışdır. Dərman zavodunun tikintisi davam etdirilir, yeni istirahət güşələri salınır, yollar abadlaşdırılır. Rayonun sakinləri üçün sosial evlər tikilir.

Kompleksin açılışında iştirak edən, məcburi köçkünlər üçün nəzərdə tutulan layihələrin bundan sonra da davam etdiriləcəyini bildirən dövlət başçımız vurğuladı ki, hələ də ağır vəziyyətdə yaşayan köçkünlərimiz var və onların problemləri də gündəlikdədir: “İndi genişmiqyaslı işlər aparılır ki, tezliklə bütün köçkünlər yaxşı şəraitlə təmin olunsunlar. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı apardığı işğalçı siyasətin nəticəsində torpaqlarımız işğal altına düşüb. Bizim əsas vəzifəmiz ərazi bütövlüyümüzü bərpa etməkdir. Bu istiqamətdə işlər aparılır, həm siyasi-diplomatik sahədə, həm ordu quruculuğu sahəsində.”

Görüşdə qeyd olunduğu kimi, məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması qəbul olunan Dövlət Proqramı əsasında həyata keçirilir, evlər tikilir, qəsəbələr salınır. Gələn il daha çox evlər inşa olunacaq. Yəni “Bir dənə də olsun çadır şəhərciyi qalmamalıdır” söyləyən cənab İlham Əliyev bu vədini də yerinə yetirir.

Məcburi köçkünlərin məişət şəraitinin yaxşılaşdırılması, iş yerləri ilə təmin olunması, özünüməşğulluq layihəsinə cəlb edilməsi daim diqqətdə saxlanılan sosial məsələdir. Köçkünlərin də sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üçün sağlam biznes mühiti formalaşdırılıb. Pirallahıda məskunlaşan, iş adamları üçün ayrılan imtiyazlardan istifadə edən sahibkarlar yeni iş yerlərinin açılmasına, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına dəstək göstərirlər.

“Bizim gəlirlərimiz artır. Bu ilin altı ayında gəlirlərimiz təxminən 400 milyon manatdan çox artmışdır. Biz, ilk növbədə, bu vəsaiti sosial layihələrə istiqamətləndiririk. Bildiyiniz kimi, bu il çox ciddi sosial paket təsdiqləndi, müavinətlər, o cümlədən məcburi köçkünlər üçün nəzərdə tutulan müavinətlər 50 faiz artırıldı. Problemli kreditlərlə bağlı olan məsələ öz həllini tapdı. Maaşlar, pensiyalar artırıldı. Bu, əlbəttə ki, islahatların birbaşa nəticəsidir. Çünki bu islahatlar bizə əlavə gəlirlər gətirir və biz bu gəlirləri, ilk növbədə, sosial sahəyə yönəldirik. Sosial sahə bundan sonra da bizim üçün prioritet sahə olacaq. Çünki Azərbaycan vətəndaşları ildən-ilə daha da yaxşı yaşamalıdır və biz buna nail olacağıq” söyləyən cənab İlham Əliyevin apardığı siyasəti dəstəklədiklərini, dövlət başçımızın ətrafında sıx birləşdiklərini qeyd edən məcburi köçkünlər onlara göstərilən diqqəti əməli işləri ilə doğruldacaqlarını söylədilər.

**Xuraman İsmayılqızı,**
***“İki sahil”***

# Davamlı modernləşməyə və sosial rifaha xidmət edən islahatların müəllifi



**Dünyada elə bir xalq tapmaq çətindir ki, hansısa taleyüklü və mürəkkəb mərhələdə onun taleyində müstəsna rol oynamış, sabit və davamlı dövlətçilik ənənələri formalaşdırmış milli lideri olmasın. Belə seçilmiş liderlərin mənalı və zəngin həyat səhifələrini vərəqləyərkən onların mənsub olduğu xalqların da dövlətçilik ənənələri, tarixi, inkişaf səviyyəsi barədə aydın təsəvvür yaranır. Belə dahi şəxsiyyətlər yüksək mənəvi dünyaları ilə, ali bəşəri və milli ideallara, ümummilli mənafelərə sidq-ürəkdən bağlılıqları ilə milyonların qəlbində özləri üçün möhtəşəm abidə ucaldırlar.**

XX əsr tariximizin parlaq siması, böyük şəxsiyyəti olan ümummilli lider Heydər Əliyevin siyasi obrazı da Azərbaycan xalqının dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış unikal idarəçilik məktəbinin, müasir ictimai-siyasi, fəlsəfi fikrin ən üstün keyfiyyətlərinin canlı mənzərəsidir. Tarixşünaslıq elmi Heydər Əliyev şəxsiyyətini öyrəndikcə, əslində, müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bugününü, ölkəmizdə həyata keçirilən dövlət quruculuğu prosesini öyrənir.

Tarixi gerçəkliklərin müqayisəsi böyük şəxsiyyətlərin fəaliyyətinin qiymətləndirilməsində ən obyektiv istinad yeridir. Bu mənada, ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan istisnasız olaraq daim problemlərin həllinə doğru irəliləyən, iqtisadi, sosial, humanitar və mədəni sahələrdə intibaha can atan, hər addımda insan və şəxsiyyət amilini uca tutan ölkə kimi görünür. Ötən yüzillikdə cərəyan edən hadisələrin təhlili göstərir ki, respublikanın müstəqilliyə gedən yolu 1969-cu ildən başlayaraq ulu öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirilən məqsədyönlü siyasətlə tamamlanmışdır. Zaman və ictimai-iqtisadi formasiya baxımından kifayət qədər fərqli olan hər iki tarixi dövrün əsas bənzər cəhətləri isə Ulu Öndərin Azərbaycana müqayisəyəgəlməz dərəcədə böyük nailiyyətlər qazandıran fədakar xidməti, eləcə də ölkənin inkişafında yeni impuls və tərəqqi meyillərinin geniş vüsət alması olmuşdur. Beləliklə, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi və tarixi şərait baxımından tamam fərqli olan dövrlər eyni missiyanın sadəcə biri-birini tamamlayan iki mərhələsi kimi qiymətləndirilə bilər.

### Gələcək müstəqilliyə etibarlı zəmin

İdarəçilik fəlsəfəsi fərqli və özünəməxsus cəhətlərlə zəngin olan Ümummilli Liderin sovet Azərbaycanına rəhbərliyi mərhələsi ölkəni sürətli inkişaf yoluna çıxarmaqla yanaşı, milli müstəqilliyə etibarlı zəmin formalaşdıran amillərlə də zəngin olmuşdur. Milli özünəqayıdış və özünüdərkin məhz bu dövrdə başlanğıcını qoyan, azərbaycançılığın keçən əsrdə yazılan ən parlaq səhifələrinin müəllifi olan ulu öndər Heydər Əliyevin Azərbaycana gətirdiyi ideyalar ölkə həyatını büsbütün müasirləşdirmişdir.

Tarixin axarını dəyişən ideya və prinsiplərin daşıyıcısı olan Heydər Əliyevin nadir idarəçilik keyfiyyətləri, xarizmatik liderlik məziyyətləri, böyük vətənpərvərliyi ötən əsrin 70-ci illərindən etibarən milli ruhun hədsiz yüksəlişinin təmin edilməsində misilsiz rol oynamışdır. Onun keçmiş sovet idarəçilik sisteminin forma və məzmununu, bütün incəliyini dəqiqliklə bilməsi bu prosesdə maneə yaradıcı amilləri uğurla neytrallaşdırmasına, eyni zamanda öz ideyalarını reallaşdırmaq istiqamətində mərkəzdən lazımi dəstək almasına imkan vermişdir. Bu kontekstdə ümummilli lider Heydər Əliyevin idarəçiliyinin digər önəmli xüsusiyyətləri Azərbaycanın bütün əsas sahələr üzrə inkişafının yeni mərhələsinə qədəm qoyması, sözün əsl mənasında, öz intibah dövrünü yaşaması olmuşdur. İqtisadi asılılığın aradan qaldırılmasının siyasi müstəqilliyin təməlində duran əsas amillərdən biri olduğunu aydın görən Ulu Öndər respublikanın istehsal potensialının mühüm hissəsinin ittifaq şəbəkəsindən ayrılaraq əsaslı şəkildə müstəqilləşdirilməsi, Azərbaycanın iqtisadi muxtariyyətinin təmin edilməsi, sənaye potensialının gücləndirilməsi, təhsil sferasında yeni inkişaf mərhələsinin əsasının qoyulması, xalqın uzaq gələcəyini nəzərdə tutan milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılması kimi möhtəşəm nailiyyətlərə imza atmışdır.

Ulu Öndər həmin dövrdə azərbaycanlıların keçmiş SSRİ-nin nüfuzlu ali təhsil ocaqlarında təhsili üçün səylə çalışır, respublikamıza ayrılmış müsabiqədənkənar yerlərin sayının artırılması Moskvadan israrla tələb edir, əksər hallarda buna nail olurdu. 1970-ci ildə respublikadan kənara oxumağa göndərilən belə tələbələrin sayı əgər 60 nəfər idisə, 1975-ci ildə onların sayı 600 nəfərə, 1978-ci ildə 800-900 nəfərə çatmışdı. Beləliklə, SSRİ-nin müxtəlif ali təhsil müəssisələrinə göndərilənlərin sayı o zaman təxminən Azərbaycan Dövlət Universitetinə bir il ərzində qəbul olunanların sayına bərabər idi. ümummilli lider Heydər Əliyev çox sonralar - 1997-ci ildə keçmiş SSRİ-nin müxtəlif universitetlərində ali təhsil almış məzunlarla görüşündə bununla bağlı demişdir: “Azərbaycanda kadr hazırlığı məsələsi ilə şəxsən, bilavasitə ciddi məşğul olarkən və o cümlədən sizləri respublikamızdan kənarda ali məktəblərə göndərərkən mütləq və mütləq Azərbaycanın gələcəyini, müstəqilliyini düşünürdüm. O vaxt mən inanırdım: vaxt gələcək ki, bu kadrlar müstəqil Azərbaycana lazım olacaqdır. Vaxt gələcəkdir ki, nəhayət, Azərbaycan müstəqil olacaqdır və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəklər”.

Həmin illərdə məhz Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olunmuş, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsası formalaşdırılmışdır. Ulu öndər Heydər Əliyev bu məsələdə daim qətiyyətli mövqe tutmuş, keçmiş ittifaqın rəhbərliyi qarşısında israrlı tələblərlə çıxış etmiş, prinsipiallıq göstərmişdir. Bu nöqteyi-nəzərdən dahi öndərin Bakı Məişət Kondisionerləri Zavodunun inşası ilə bağlı göstərdiyi əzmkarlığı xüsusi qeyd etmək lazımdır.

Neft sənayesinin iqtisadi inkişafdakı rolunu müdrikliklə nəzərə alan ulu öndər Heydər Əliyev 70-ci illərdə bu sahənin dinamik inkişafına nail olmuş, neftkimya sənayesinin tamamilə modernləşdirilməsini təmin etmişdir. Həmin dövrdə neft sənayesinin inkişafında tamamilə yeni mərhələ başlanmış, bu zəngin milli sərvətin Azərbaycanın rifahına xidmət edən vasitəyə çevrilməsi prosesinin əsası qoyulmuşdur. Heydər Əliyevin müəllifliyi ilə tərtib olunan “Azərbaycanda neftayırma sənayesinin yenidən qurulması” planı əsasında bu tipli müəssisələrin, iri komplekslərin tikilməsi və yeni fəaliyyət prinsiplərinə keçməsi prosesi sürətlə başa çatdırılmışdır.

### Milli inkişaf modelinin müəllifi

Ulu öndər Heydər Əliyevin lider kimi böyüklüyü onun daim uzaq hədəflərə hesablanmış və milli məqsədləri önə çəkən siyasət yürütməsi olmuşdur. Məhz ötən əsrin 70-80-ci illərində formalaşdırılmış iqtisadi potensial 90-cı illərin sonlarına doğru dünyada cərəyan edən mürəkkəb proseslərin nəticəsi kimi istiqlaliyyət qazanmış Azərbaycanın sonrakı mərhələdə müstəqil yaşamasını təmin etmişdir.

Müdrik xalqımızın XX əsrdə dünya siyasi arenasına bəxş etdiyi nadir şəxsiyyət kimi Ümummilli Liderlik zirvəsinə ucalmış Heydər Əliyev bu gün həm də müstəqil respublikamızın milli inkişaf modelinin banisi kimi ehtiramla xatırlanır. Ümummilli Lider mərkəzi planlaşdırma və bölgü prinsiplərinin hakim olduğu bir ictimai-iqtisadi formasiyadan azad bazar iqtisadiyyatına optimal keçid modelini irəli sürərək, onun həyata keçirilməsinə çalışmışdır. İqtisadi sahədə həyata keçirilən islahatların əsasında bazar iqtisadiyyatının formalaşdırılması yolu ilə ümumi daxili məhsul istehsalını artırmaq, qeyri-neft sektorunun sürətli inkişafını təmin etmək məqsədi dayanmışdır.

Dövlət mülkiyyətinin xalqın mənafeyinə uyğun formada özəlləşdirilməsi sərbəst bazar rəqabəti prinsiplərinin, xüsusi mülkiyyətçiliyin bərqərar olmasına, habelə milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyasına, insanların şüurunda, həyat tərzində əsaslı dəyişikliklərin baş verməsinə səbəb olmuşdur. Ölkədə həyata keçirilmiş özəlləşdirmə prosesi hər bir vətəndaşın iqtisadi islahatlarda şəxsi marağını təmin etmək, əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq, sağlam rəqabətə əsaslanan istehsal üçün şərait yaratmaq niyyətinə xidmət etmişdir. İqtisadiyyatın bütün sahələrini əhatə edən özəlləşdirmə prosesi müstəqil respublikamızda bazar iqtisadiyyatı meyarlarının sürətlə formalaşmasına, ölkənin xarici iqtisadi əlaqələrinin yüksəlməsinə, dünya təsərrüfat sisteminə inteqrasiyasına etibarlı zəmin yaratmışdır.

Ümummilli Liderin rəhbərliyi altında həyata keçirilmiş struktur islahatları Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafına, o cümlədən yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə, rəqabət qabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan vermişdir. Ümummilli Lider respublika iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsində özəl sektoru sosial-iqtisadi inkişafın başlıca təminatçısı kimi dəyərləndirmiş, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışmışdır.

İnvestisiyaların təşviqi üçün respublikada daha münbit şərait yaratmaq, daxili və xarici sərmayəni stimullaşdıran səmərəli metodlardan istifadə etmək, xarici kapital qoyuluşunun başlıca istiqamətini regionların, qeyri-neft sektorunun inkişafına yönəltmək, habelə maddiləşən işgüzar fəallığı gücləndirmək üçün kompleks tədbirlər həyata keçirilmişdir.

Ümumilikdə, 1993-2003-cü illərdə ölkədə həyata keçirilən siyasət deməyə əsas verir ki, ulu öndər Heydər Əliyev milli ideyanın təcəssümü olan məqsədlərin gerçəkləşməsi, ələlxüsus da müstəqillik amilinin praktik şəkildə bərqərar olması baxımından ilk növbədə iqtisadiyyatda çoxşaxəli islahatların aparılmasını, davamlı inkişaf üçün bazisin formalaşmasını vacib saymışdır. Ulu Öndərin müstəqil Azərbaycana rəhbərliyi illərində milli iqtisadiyyatda köklü islahatlar aparılmış, sosialyönümlü bazar iqtisadiyyatına keçidin ümdə prinsipləri müəyyənləşdirilmiş, torpaq islahatı kimi çətin və ağrılı proses, habelə özəlləşdirmənin birinci mərhələsi uğurla başa çatdırılmış, milli sahibkarlığın inkişafı üçün zəruri qanunvericilik aktları qəbul edilmiş, respublikanın dünya təsərrüfat sisteminə inteqrasiyası sürətlənmişdir.

### İslahatlarda müasirləşmə və novatorluq

Fəaliyyəti ilə zaman və məkanın fövqündə dayanan tarixin yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biri kimi Ulu Öndər Azərbaycanın inkişafında qazandığı uğur və nailiyyətlərin davamlı olmasını təmin etmək üçün böyük fədakarlıqlar göstərmişdir. Bunun ən bariz göstəricilərindən biri də Ulu Öndərin özündən sonra ölkəmizə layiqincə rəhbərlik edərək qazanılan uğurların davamlılığını təmin edəcək, xalqın alternativsiz liderinə çevriləcək davamçı - siyasi varis yetişdirməsindədir.

XX əsrin sonlarına doğru müstəqil dövlətçiliyin bərpasına nail olmuş, onu möhkəmləndirərək yeni inkişaf magistralına çıxarmış müdrik xalqımız taleyini məhz qəlbən inandığı, etimad göstərdiyi siyasi liderə etibar etmişdir. “Əsl siyasət - konkret, real iş görməkdən ibarətdir” deyərək fəaliyyətə başlayan cənab İlham Əliyev hələ 2003-cü ildə verdiyi vədə sadiq qalaraq ötən 15 illik fəaliyyəti ilə hər bir Azərbaycan vətəndaşının layiqli Prezidenti olduğunu sübuta yetirmişdir.

⇨ Davamı 4-cü səhifədə

# Davamlı modernləşməyə və sosial rifaha xidmət edən islahatların müəllifi

Əvvəli 3-cü səhifədə

2018-ci ilin 11 aprel seçkilərində xalqın böyük dəstəyi ilə Azərbaycana rəhbərlik kimi məsuliyyətli missiyanı növbəti mərhələdə də üzərinə götürmüş cənab İlham Əliyev ona göstərilən etimadı fəaliyyəti ilə hər zaman doğruldur, Azərbaycanı daha qüdrətli dövlətə çevirmək üçün əzmlə, qətiyyətlə çalışır. Təkcə onu demək kifayətdir ki, respublikamız son prezident seçkilərindən sonra daha da güclənmiş, zənginləşmiş, hərtərəfli inkişaf yolunda yeni uğurlara imza atmış, insan amili həyata keçirilən siyasətin ana axarında yer almışdır.

Ulu öndər Heydər Əliyevin idarəçilik ənənələrini yeni dövrün tələblərinə uyğun daha da zənginləşdirən cənab İlham Əliyev xalqın problemlərinə, arzu və istəklərinə həssaslıqla yanaşır və bunu bütün məmurların qarşısında zəruri tələb kimi qoyur. Fəaliyyətində xalqına güvənən, arxalanan dövlət başçısı xalqa xidmətdən böyük şərəf duyur. "Mənim işim ondan ibarətdir ki, xalqa xidmət etməliyəm. Onu da edirəm və bundan sonra da edəcəyəm. Bütün işlərimdə mən xalqa arxalanıram. Əgər təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bütün bu işləri görmək mümkün olmazdı" deyən ölkə başçısı idarəçilikdə, fəaliyyətdə, düşüncədə yenilik və sivil dəyərlərin tətbiqini zəruri sayır.

Dövlət başçısının gerçəkləşdirdiyi uğurlu diplomatiya son 15 ildə Azərbaycanın bölgədə və dünyada layiqli yerini tapmasını, regional liderliyini təmin etmişdir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismara verilməsi, TAP, TANAP layihələrinin reallaşdırılması, üç süni peykin orbitə buraxılması Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqelərini daha da gücləndirmişdir. Dövlət başçısı cənab İlham Əliyevin diplomatik səyləri nəticəsində Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi də uğurla gerçəkləşmiş, respublikamızın Şərqlə Qərb arasında tranzit-kommunikasiya imkanları genişlənmişdir. Xatırlatmaq yerinə düşər ki, 2018-ci il mayın 29-da "Cənub qaz dəhlizi"nin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi olmuş, bu layihələrin icrası Azərbaycanın regionda və Avropada geoiqtisadi əhəmiyyətini artırmışdır. Eyni zamanda 2018-ci il sentyabrın 18-də 204 kilometr uzunluğunda Ələt-Astara-İran İslam Respublikası magistral avtomobil yolunun istifadəyə verilməsi mühüm hadisələrdən olmuşdur.

Səmərəli idarəetmə sistemi xalqın mənafeyinə cavab verən strateji əhəmiyyətli qərarların qəbulu ilə yanaşı, konkret zamanda həyata keçirilmiş tədbirlər sistemi ilə bağlı müntəzəm olaraq ictimaiyyətin məlumatlandırılmasını da zəruri tələb kimi önə çıxarır. Səmərəli və şəffaf idarəçiliyi hökumət qarşısında mühüm vəzifələrdən biri kimi



müəyyənləşdirmiş Azərbaycan Prezidenti cənab İlham Əliyevin idarəçilik konsepsiyasında da bu mütərəqqi prinsip daim önə çəkilir. Dövlət başçısı ötən 15 ildə ayrı-ayrı məmurlara etimad meyarını məhz onların fəaliyyətinə nəzərən müəyyənləşdirərək, ictimaiyyətin görülmüş işlər, qarşıda duran məqsədlər və həyata keçiriləcək layihələr barədə məlumatlandırılmasını zəruri saymışdır. Bu cür hesabatlar konkret dövrdə əldə edilmiş nailiyyətlərin qiymətləndirilməsi, qazanılmış uğurların ictimaiyyətə düzgün, obyektiv çatdırılması, mövcud problemlər ətrafında obyektiv müzakirələrin aparılması, bu problemlərin həlli yollarının tapılması üçün səmərəli vasitəyə çevrilmişdir.

İdarəçiliyin asanlaşdırılması və bu zaman vətəndaş məmnunluğunun təmin edilməsi də strateji xətt olaraq diqqət mərkəzindədir. Prezident 2018-ci ilin avqust ayında əhalinin məşğulluğu, əmək və sosial müdafiəsi ilə bağlı çevik və innovativ xidmətlərin göstərilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyini (DOST) yaratmışdır. Ümumilikdə, "ASAN xidmət", "ASAN kommunal" və "DOST" kimi modern xidmət mərkəzlərinin yaradılması Azərbaycanda müasir idarəetmə sisteminin mahiyyətini, fəlsəfəsini açır.

### Regionların inkişafında tarazlıq təmin edilir

2003-cü ildən etibarən Azərbaycanın iqtisadi sahədə həyata keçirdiyi siyasətin uğurlarını şərtləndirən əsas amillərdən biri də məhz inkişafın mərkəz və regionlar üzrə tarazlı xarakter daşıması, rentabelli istehsal sahələrinin ölkənin bütün regionlarını əhatə etməsi, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, infrastrukturun yeniləşdirilməsi tədbirləri ilə sıx şəkildə bağlıdır. Məhz bu iqtisadi strategiya regionlarda sahibkarlığın inkişafını sürətləndirməklə, oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə edilməsinə imkan yaratmışdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 11 fevral 2004-cü il tarixli "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", 14 aprel 2009-cu il tarixli "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və 2014-cü il 27 fevral tarixli "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" regionların iqtisadi inkişafında tamamilə yeni səhifə açmış, insanların kəndlərdən şəhərlərə axınının qarşısını almış, xüsusilə də qeyri-neft sektorunun, sahibkarlığın inkişafına xüsusi təkan vermişdir.

2004-2018-ci illər ərzində reallaşdırılan regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının təhlili göstərir ki, ötən müddətdə ölkənin makroiqtisadi göstəricilərində regionların xüsusi çəkisi əhəmiyyətli dərəcədə yüksəlmişdir. Yerlərdə sahibkarlığın inkişafının sürətləndirilməsi, yerli istehsal və emal müəssisələrinin fəaliyyətinin bərpası və genişləndirilməsi, iqtisadi və sosial-mədəni infrastruktur obyektlərinin yenidən qurulması, yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması nəticəsində əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində böyük uğurlar əldə olunmuşdur.

Azərbaycan Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunmuş konfransda bölgələrin inkişafı üçün dördüncü dövlət proqramının da hazırlandığını diqqətə çatdırmışdır. Ötən illərdə görülən tədbirlərə rəğmən əlavə dəyərin formalaşdırılmasında özünü göstərən fərq sayca dördüncü dövlət proqramının qəbulunu da zəruri etmişdir. Azərbaycan Prezidentinin 2019-cu il 29 yanvar tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" qarşıdakı illərdə bölgələrin inkişafına yeni təkan olacaqdır.

Statistik göstəricilər son 15 ildə Azərbaycan iqtisadiyyatının inkişafını və dayanıqlılığını bir daha təsdiq edir: Ötən dövrdə ölkənin strateji valyuta ehtiyatları 27 dəfə artaraq 46,7 mlrd. ABŞ dollarına çatmışdır. 2004-2018-ci illərdə ümumi daxili məhsul (ÜDM) real ifadədə 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,7 dəfə artmışdır. Davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi məqsədilə dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu xərcləri dinamik olaraq artmış, investisiya xərcləri dövlət büdcəsində əhəmiyyətli çəkiyə malik olmuşdur.

Görülən tədbirlərin nəticəsi olaraq bölgələrdəki rayon və şəhərlərlə paytaxt Bakı şəhərinin inkişafı arasındakı fərq getdikcə azalır. Dövlət proqramları nəticəsində regionların tərəqqisinə 50 milyard manatdan çox vəsaitin yatırılması inkişafdakı tarazlığı təmin etmişdir. Yalnız onu demək kifayətdir ki, 2019-cu ildə Azərbaycanın 34 şəhər və rayonu mərkəzdən dotasiya almadan özünü maliyyələşdirir. Son 15 ildə açılmış 1,9 milyona yaxın iş yerinin 50 faizdən çoxunun məhz regionların payına düşməsi də Azərbaycan Prezidenti cənab İlham Əliyevin regional siyasətinin uğurlarının əyani təcəssümüdür.

Son 15 ildə ölkə Prezidentinin sahibkarlığın inkişafı istiqamətində həyata keçirdiyi tədbirlər ardıcıllığı, səmərəliliyi və sistemliliyi ilə diqqəti cəlb etmişdir. Hələ 2004-cü il 1 fevral tarixində Bakı Biznes Mərkəzində yerli sahibkarlarla görüşən dövlət başçısı onları narahat edən məsələləri diqqətlə dinləmiş, sahibkarları dəstəklədiyini, iş adamlarına gələcəkdə də lazımi köməyi göstərəcəyini bəyan etmişdir. Dövlət rəhbəri inhisarçılıq, sahibkarlara süni maneələrin yaradılması, hüquq mühafizə orqanlarının iş adamlarının fəaliyyətinə müdaxiləsi hallarını pisləmiş, bu münasibət konkret qərarlarla müşayiət olunmuşdur. Antiinhisar fəaliyyətinin gücləndirilməsi, inflyasiyanın qarşısının alınması üçün əsaslı tədbirlərin görülməsi, qeydiyyat sisteminin sadələşdirilməsi, yerlərdə regional iqtisad məhkəmələrinin yaradılması və s. kimi tədbirlər bunun əyani təcəssümüdür.

Cənab İlham Əliyev Azərbaycanı müasir və qüdrətli dövlətə çevirmək məqsədini sadəcə deklorativ bəyanatlarla ifadə etmir, onun konkret icra mexanizmlərinin müəyyənləşdirilməsi istiqamətində konkret addımlar atır. Dövlət başçısının son illərdə imzaladığı "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası və "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" kimi konseptual əhəmiyyətli sənədlər deməyə əsas verir ki, cənab Prezident uzunmüddətli inkişaf strategiyasının dərin elmi proqnozlar əsasında işlənib hazırlanmasına çalışır.

Azərbaycan Respublikası Prezidentinin İqtisadi İslahatlar üzrə Köməkçisi Xidmətinin, eləcə də Maliyyə Bazarlarına Nəzarət Palatasının, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin, Maliyyə Sabitliyi və Turizm, habelə Apelyasiya şuralarının, Sosial Tədqiqatlar Mərkəzinin yaradılması iqtisadi islahatların səmərəliliyini yüksəltmişdir. Dövlət başçısının siyasi iradəsilə həyata keçirilən sistemli islahatlar - imzalanan fərman və sərəncamlar respublikamızın postneft dövrünə uyğunlaşdırılması, sahibkarların hərtərəfli dəstəklənməsi yolu ilə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi məqsədini önə çəkir. Bu baxımdan 3 fevral 2016-cı il tarixli "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apelyasiya Şuralarının yaradılması haqqında", 20 aprel 2016-cı il tarixli "İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri"nin təsdiq edilməsi haqqında, 19 may 2016-cı il tarixli "Dövlət əmlakının özəlləşdirilməsi prosesinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" və "Bəzi tikinti obyektlərinin istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" fərmanları, habelə 2016-cı il 21 may tarixli fərmanla təsdiq edilmiş "Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları", 21 aprel 2016-cı il tarixli "Azərbaycan Respublikasında "Sahibkarlar Günü"nün təsis edilməsi haqqında" və digər sənədlər ölkədə sahibkarlığın inkişafına ciddi təkan vermiş, ölkəmizin qlobal böhran meyillərinə çevik müqavimətini təmin etmişdir.

Davamı 5-ci səhifədə

# Davamlı modernləşməyə və sosial rifaha xidmət edən islahatların müəllifi

⇨ Əvvəli 4-cü səhifədə

### İnsan amili daim prioritetdir

Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş iclası respublikamızın dinamik inkişaf yolunda olduğunu bir daha təsdiqləmişdir. İclasda səslənən statistik rəqəmlər dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən islahatların səmərəliliyini və insan amilinin yüksəlişinə xidmət etdiyini bir daha təsdiqləyir. Hesabat dövründə dövlət büdcəsinə vergi və gömrük orqanlarının xəttilə 200 milyon manatdan artıq əlavə vəsait toplanmış, ümumi daxili məhsul 3 faiz, sənaye istehsalı 4,4 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz artmışdır. Hesabat dövründə kənd təsərrüfatının 3,6 faiz, əhalinin gəlirlərinin 5,5 faiz artması, inflyasiyanın aşağı həddə - 2,1 faiz civarında olması, ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayənin qoyulması inkişafdakı pozitiv dinamikanın əyani göstəriciləri kimi qeyd olunmalıdır.

Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı aparılan siyasət, görülmüş işlər nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymət alır. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan Respublikası 2016-cı ildəki 63-cü yerdən 2019-cu ildə 25-ci yerə yüksəlməyə nail olmuşdur. Davos İqtisadi Forumunun hesabatına əsasən Azərbaycan iqtisadiyyatı 2018-ci ildə rəqabət qabiliyyətinə görə 138 ölkə arasında 35-ci yerdədir və ardıcıl olaraq 8 ildir ki, MDB ölkələri arasında birincidir. Forumun "İnklüziv İnkişaf İndeksi 2018" hesabatında Azərbaycan ən yaxşı inkişaf etməkdə olan ölkələr sırasında üçüncü, MDB məkanında isə birinci yerdə qərarlaşmışdır. BMT İnkişaf Proqramının insan inkişafı indeksinə görə Azərbaycan "orta insan inkişafı" qrupu ölkələrini tərk edərək, "yüksək insan inkişafı" ölkələri kateqoriyasına daxil olmuşdur.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin son 15 ildə yürütdüyü sosialyönümlü siyasətin məqsədi təkcə sosial bərabərsizliyi aradan götürmək olmayıb, həm də onu tarazlaşdırmaq, vətəndaşların maddi vəziyyətindəki fərqliliyi aradan qaldırmaq, kəskin təbəqələşməyə yol verməmək, cəmiyyətin bütün üzvlərinin layiqli həyat səviyyəsini təmin etməkdən ibarətdir. Dövlət başçısı tərəfindən son 10 ildə imzalanmış sərəncamlar sosial təminat və yoxsulluğun səviyyəsinin aşağı salınması baxımından mühüm əhəmiyyətə malikdir. Buna misal olaraq "Əhalinin təbii qazdan istifadəsi üzrə yaranmış borcların silinməsi tədbirləri barədə" 29 dekabr 2009-cu il tarixli fərmanı xatırlatmaq mümkündür. Fərmana əsasən, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və istehlak edilmiş təbii qazın dəyərinin ödənilməsində yaranmış vəziyyətin tənzimlənməsi məqsədilə vətəndaşların 1 oktyabr 2009-cu il tarixinə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyinə yaranmış 327 milyon manat məbləğində borcları silinmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 aprel tarixli fərmanı ilə əhalinin "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə olan 294,2 milyon manat borcunun dövlət büdcəsi hesabına silinməsi də dövlətin sosialyönümlü siyasətinin növbəti təcəssümü olmuşdur. 2012-ci ilin iyun ayının 1-dən vətəndaşların SSRİ dövründən əmanət bankında qalmış əmanətlərinin indeksasiya olunaraq qaytarılması da respublikamızın sosialyönümlü iqtisadi siyasətinin mahiyyətindən irəli gəlmişdir.

Bu və digər faktlar göstərir ki, ölkədə bazar iqtisadiyyatı prinsiplərinin cəmiyyətdə möhkəm dayaqlar tapması, iqtisadiyyatın liberallaşdırılması sosial himayəyə ehtiyacı olan vətəndaşların maraqları ilə qətiyyən ziddiyyətə girmir. Əksinə, əldə edilən dividendlər insanların sosial problemlərinin həllinə, vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilir. 2018-ci ilin 11 aprel seçkilərindən sonra sosialyönümlü islahatlarda keyfiyyətcə yeni mərhələnin başlanması, xüsusən də bu ilin əvvəlindən başlayaraq əhalinin aztəminatlı və imtiyazlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən kompleks tədbirlərin həyata keçirilməsi Azərbaycanın "sosial dövlət" konsepsiyasına sadiqliyinin bariz göstəricisidir.



**NOVRUZ MƏMMƏDOV,**
*Azərbaycan Respublikasının Baş Naziri*

Yürüdülən uğurlu iqtisadi siyasət - çevik və şəffaf vergi-gömrük islahatları nəticəsində son aylarda ölkəmizin maliyyə imkanlarının daha da artması ilə paralel dövlət başçısı uğurlu sosial islahatlar paketinin reallaşdırılmasını təmin etmişdir. Təkcə onu demək lazımdır ki, bu prosesin əyani təzahürü olaraq icbari tibbi sığorta sisteminin tətbiqi təmin edilmiş, bu sistemin 2020-ci ildən bütün ölkədə tətbiqi nəzərdə tutulmuşdur. Daha sonra, İşsizlikdən Sığorta Fondunun yaradılması, məşğulluq strategiyasının qəbulu, ünvanlı sosial yardımın əhatə dairəsinin genişləndirilməsi, özünüməşğulluq proqramlarının təmin edilməsi sosial islahatların mühüm tərkib hissəsidir.

Qısaca demək kifayətdir ki, son aylarda Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi zamanı şəhid olmuş insanların ailələrinə 11 min manat məbləğində birdəfəlik ödəniş edilmiş, minimum əməkhaqqı, sosial müavinət, pensiya və tələbə təqaüdləri artırılmış, zəlzələdən ciddi zərər çəkmiş vətəndaşlar üçün evlərin inşasına başlanılmış, devalvasiya nəticəsində banklara borcu yaranmış vətəndaşların borcları müəyyən şərtlər çərçivəsində kompensasiya edilmiş, yanğından zərər çəkmiş sahibkarlara kompensasiya ödənilmiş, mavi yanacağa görə nəzərdə tutulmuş limit artırılmışdır. Bu və digər sosialyönümlü addımlar, şübhəsiz, vətəndaşlar tərəfindən də rəğbətlə qarşılanır.

İslahatların hazırkı mərhələsində mütərəqqi meyarlara söykənən çevik idarəetmə modelinin formalaşdırılması Azərbaycan üçün də kifayət qədər aktualdır. Son illərdə həyata keçirilən kadr islahatlarının əsas məqsədini əhalinin sosial rifahının yaxşılaşdırılması, neftdən asılı olmayan dayanıqlı inkişaf strategiyasının formalaşdırılması ilə yanaşı, ümumilikdə, dövlət idarəçilik fəlsəfəsinin dəyişdirilməsi təşkil edir. Cənab İlham Əliyev, ilk növbədə, vətəndaşların mənafeyini düşünərək dövlət idarəetməsi ilə bağlı bu və digər qərarlar qəbul edir, struktur islahatları həyata keçirir. Dövlət başçısının 2019-cu il 14 yanvar tarixli "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı idarəetmə sistemində çevikliyin və səmərəliliyin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Qlobal planda cərəyan edən mürəkkəb siyasi, iqtisadi və humanitar proseslər müasir islahatçı baxışın tətbiqini aktuallaşdırdığından dövlət başçısı hökumətin bu çağırışlara hazır olmasını da son dərəcə vacib sayır. 2017-ci il 21 fevral tarixdə Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması, bu mənada postneft dövründə Azərbaycanda həyata keçirilən çoxşaxəli islahatların davamlılığını və dövlət idarəçiliyinin səmərəliliyini yüksəltmək məqsədinə xidmət etmişdir.

Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi uğurlu fəaliyyəti bu prosesin sürətlənməsini təmin etmiş, idarəçiliyə yeni nəfəs gətirmişdir. Cəmiyyətdə mütləq çoxluğun qənaəti bundan ibarətdir ki, Heydər Əliyev Fondunun prezidenti kimi vətənpərvər fəaliyyəti, humanizmə, mərhəmətə, nəcibliyə söykənən layihələri ilə böyük nüfuz qazanmış və yüksək idarəçilik keyfiyyətlərini təsdiqləmiş Mehriban xanım Əliyeva üzərinə götürdüyü məsuliyyətli missiya ilə ölkə başçısının və xalqın etimadını inamla doğruldur.

2018-ci ilin 11 aprel seçkilərinin nəticəsi olaraq Azərbaycan cəmiyyəti uzun illərin sərt sınaqlarından üzüağ çıxaraq yüksək etimad qazanmış Heydər Əliyev siyasətinin davamlılığının təmini, hər bir fərdin mənafeyinə hesablanmış siyasi, hüquqi, sosial-iqtisadi islahatların ardıcıl şəkildə davam etdirilməsi naminə ciddi siyasi iradə ortaya qoymuşdur.

Cəmiyyətdə mütləq çoxluğun alternativsiz milli lider olaraq qəbul etdiyi cənab İlham Əliyev Azərbaycanın perspektiv inkişafı üçün qarşıda duran strateji hədəfləri inamla gerçəkləşdirmək, ölkəmizi yaxın illərdə ən müasir və inkişaf etmiş dövlətə çevirmək istiqamətində əzmlə, yorulmadan, qətiyyətlə çalışır.

# Baş Prokurorluq və Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin birgə məlumatı

Ayrı-ayrı dövrlərdə silah işlətməklə quldurluq, yaşayış sahəsinə girməklə oğurluq, xuliqanlıq, fahişəliyə cəlbetmə əməllərinə görə Cinayət Məcəlləsinin 143-cü maddəsinin 2-ci hissəsi, 145-ci maddəsinin 2-ci hissəsi, 207.1-ci və 243.1-ci maddələri ilə üç dəfə məhkum olunmuş 1967-ci il təvəllüdlü Qurbanov Aydın Fərhad oğlunun 2018-ci il iyulun 3-də mütəşəkkil dəstə tərkibində birləşərək Gəncə şəhərində baş vermiş terror aktı, hakimiyyətin zorla ələ keçirilməsinə yönələn hərəkətlər və sair dövləti cinayətləri törətməsinə əsaslı şübhələr müəyyən edildiyindən o, 2018-ci il iyulun 30-da Cinayət Məcəlləsinin 228.3-cü (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilməklə Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin istintaq təcridxanasına yerləşdirilib.

Baş Prokurorluq və Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, istintaq zamanı A.Qurbanovun bacısı oğlu Hamlet Abdullayevin ifadəsi əsasında





A.Qurbanovun yaşadığı evdə məhkəmənin qərarı ilə axtarış aparılıb. Axtarış zamanı evin çardağından sonuncunun ayrı-ayrı cinayətlərdə istifadə etdiyi 1 ədəd "Kalaşnikov" konstruksiyalı avtomat silahı, 1 ədəd "Makarov" markalı, 1 ədəd "Marqolin" markalı tapançalar, 508 ədəd avtomat və tapança patronları, 9 ədəd sandıqça və sair döyüş sursatı hal şahidlərinin iştirakı ilə videoçəkiliş aparılmaqla aşkar edilərək maddi sübut kimi götürülüb.

A.Qurbanov xəstəliyi ilə əlaqədar 2019-cu il martın 15-də Penitensiar Xidmətin Müalicə müəssisəsinə köçürülüb və orada intensiv müalicəsi aparılmasına baxmayaraq, iyulun 9-da vəfat edib.

A.Qurbanovun həyat yoldaşı və müdafiəçisinin müraciətləri ilə əlaqədar A.Qurbanov barəsində 2019-cu il mayın 31-də məhkəmə-tibb ekspertizası təyin olunub və onun saxlanıldığı şəraitdə həkimlərin nəzarəti altında müalicəsinin davam etdirilməsinin mümkünlüyü barədə rəy verilib.

Bəzi kütləvi informasiya vasitələrində A.Qurbanova guya işgəncə verilməsi nəticəsində vəfat etməsi barədə yayılmış məlumatlar həqiqəti əks etdirmir. İstintaq təcridxanasında və müalicə müəssisəsində olduğu dövrdə ona işgəncələr verilməsi ilə əlaqədar özü və ya qohumları tərəfindən hər hansı müraciət daxil olmayıb, eləcə də müalicə aldığı dövrlərdə müayinə zamanı və vəfat etdikdən sonra meyitə baxış keçirilərkən bədəni üzərində hər hansı xəsarət və ya xəsarət izləri aşkarlanmayıb.

# Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətə başlamasından 21 il keçir

*"Konstitusiya Məhkəməsinin simasında milli dövlətçiliyimizi, Konstitusiyaya əsaslanan hüquq qaydasını, ən əsası isə insan və vətəndaş hüquq və azadlıqlarını həqiqətən müdafiə edən mötəbər təsisata malikik".*

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev

**Bu günlərdə ali konstitusiya ədalət mühakiməsi orqanı olan Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətə başlamasının növbəti ildönümü tamam olur.**

Bu növbəti ildönümü Azərbaycanın müasir tarixində xalqımız üçün taleyüklü hadisə olan - ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbəri seçilməsinin 50 illik əlamətdar yubileyinə təsadüf edir. 1969-cu il iyulun 14-də qəbul edilmiş qərar Azərbaycan dövlətçiliyinin inkişafının yeni və dönməz vektoru olmaqla, müstəqillik həsrətinə qalmış millət üçün yeni tarix hesablamasına çevrilmişdir. Bu iki tarix arasında əlaqə çox rəmzi xarakter daşıyır, çünki ölkəmizdə konstitusionalizm ideyalarının təsis edilməsi, o cümlədən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin simasında konstitusiya nəzarəti orqanının yaradılması xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır.

Müasir Azərbaycan dövlətinin memarı, ulu öndər Heydər Əliyevin ölkənin siyasi rəhbərliyinə qayıdışından sonra bütün sahələrdə sabitliyin təmin olunması ölkədə çoxşaxəli islahatların aparılmasına şərait yaratdı. Vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğunu əsas inkişaf istiqaməti olaraq seçən Azərbaycanda qısa müddətdə irimiqyaslı qanunvericilik islahatları reallaşdırılaraq əhəmiyyətli nailiyyətlər əldə edildi. Başlanılmış köklü hüquqi islahatlar çərçivəsində ən mühüm hadisələrdən biri, şübhəsiz ki, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi oldu. Bununla da ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış bu tarixi sənəd dövlətçiliyimizin inkişafında dönüş yaradaraq keyfiyyətcə tamamilə yeni səhifə açdı.

Konstitusiyada müasir sivil vətəndaş cəmiyyətinin inkişaf istiqamətlərini müəyyənləşdirən, hüquqi dövlət quruculuğuna imkan verən mütərəqqi ideya və dəyərlər geniş şəkildə öz əksini tapmışdır.

Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini təşkil etdi. Konstitusiyada xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil olunması kimi təməl prinsiplər təsbit olunmuş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi isə dövlət siyasətinin əsas istiqaməti, bütün dövlət orqanlarının fəaliyyətinin əsas məqsədi kimi müəyyən edilmişdir.

1995-ci ildə Əsas Qanunun qəbulu ölkədə genişmiqyaslı qanunvericilik islahatlarının həyata keçirilməsinə təkan verərək digər bir çox sahələrdə olduğu kimi,



məhkəmə-hüquq islahatlarının da əsasını qoydu.

Hüquqi dövlətin təməlini qanunların aliliyinin təmin olunması, o cümlədən insan hüquqlarının və azadlıqlarının müdafiəsi təşkil edir. Bu baxımdan bu və ya digər ölkənin demokratik inkişafı üçün Konstitusiyanın qəbul edilməsi ilə yanaşı, onun aliliyinin təmin olunması, dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin konstitusiya prinsipləri çərçivəsindən kənara çıxmaması üçün konstitusiya nəzarəti institutunun yaradılması da olduqca vacib idi.

Fəaliyyətə başladığı gündən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ölkə Konstitusiyasının aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etmək kimi ali məqsədə xidmət etmiş və üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışmışdır. Bu illər ərzində Konstitusiya Məhkəməsi Azərbaycanda hüquqi, dünyəvi dövlət quruculuğu prosesində fəal iştirak edərək ölkəmizdə konstitusionalizm ideyalarının həyata keçirilməsinə, hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişafına, hər kəsin Konstitusiyaya və qanunlara hörmət və ehtiramının, ədalət, azadlıq və humanizm kimi prinsiplərin möhkəmləndirilməsinə töhfələr vermişdir.

Qeyd edilməlidir ki, müasir dövrdə konstitusiya ədalət mühakiməsi hüququn aliliyinin təmin olunmasının mühüm və səmərəli mexanizmlərindən biri, eyni zamanda, demokratik dəyərlərin hakim olduğu hüquqi dövlətin ayrılmaz atributlarından biri kimi qəbul olunur.

Bu gün məhkəmə sistemi vətəndaş cəmiyyətinin və beləliklə də hüquqi dövlətin inkişafında özünəməxsus və əvəzedilməz rol oynayır. Şübhəsiz ki, Konstitusiya ilə məhkəmələrin üzərinə düşən vəzifələrin qanunvericiliklə müəyyən edilmiş qaydada effektiv şəkildə həyata keçirilməsi son nəticədə cəmiyyətin dövlətimizin adından qəbul edilən məhkəmə aktlarına etimadının gücləndirilməsi üçün xüsusi zəmin yaradır.

Ümumilikdə müasir dövrdə məhkəmə hakimiyyətini cəmiyyətdə cərəyan edən proseslərdən təcrid edilmiş şəkildə təsəvvür etmək qeyri-mümkündür. Şübhəsiz ki, bu proseslər mütərəqqi xarakterli olduqda onların digər sahələrə, o cümlədən məhkəmə sisteminə şamil edilməsi yalnız müsbət nəticələr verə bilər.

Biz hamımız onun şahidiyik ki, ölkəmizdə bütün sahələrdə ən qabaqcıl yanaşmalar tətbiq olunur və bu gün Azərbaycan dünya birliyinin inkişaf etmiş tamhüquqlu üzvü kimi qəbul edilir. Dövlət başçısı cənab İlham Əliyev tərəfindən ölkəmizdə ayrı-ayrı sahələrdə müasir ideyaların tətbiqinə hər zaman dəstək verilir, bir çox sahələrdə olduğu kimi, məhkəmə sisteminin də müasirləşdirilməsi prosesi cəmiyyətin inkişafına adekvat olaraq uğurla həyata keçirilir.

Məhkəmə-hüquq sisteminin müasir və mütərəqqi prinsiplər əsasında təkmilləşdirilməsindən bəhs edərkən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərman ədalət mühakiməsinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması üçün olduqca mühüm addım olduğu vurğulanmalıdır. Bu Fərman dövlətimizin başçısının məhkəmə hakimiyyətinə verdiyi müstəsna əhəmiyyətin növbəti təzahürü olaraq həyata keçirilən məhkəmə-hüquq islahatlarının mühüm tərkib hissəsi olmaqla, bu sahədə islahatların dərinləşdirilməsini, yeni inkişaf mərhələsində müasir çağırışlara uyğun davam etdirilməsini şərtləndirir.

Fərman məhkəmə sistemində islahatların aparılması və müasir texnologiyaların tətbiqinin vacibliyini bəyan etməklə, məhkəmələr üçün ədalətlilik, qərəzsizlik, süründürməçiliyə yol verilməməsi, aşkarlıq, şəffaflıq kimi mühüm prinsiplərin daim aktual olduğunu bir daha vurğulayıb.

Vətəndaşların hüquq və azadlıqlarının məhkəmə müdafiəsinin daha etibarlı təmin olunmasına, məhkəmə hakimiyyətinin nüfuzunun artırılmasına, ədalət mühakiməsinə ictimai etimadın yüksəldilməsinə xidmət edən Fərmanda məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, işlərə baxılmasının keyfiyyətinin artırılması, əhaliyə daha çevik, asan və alternativ xidmətlərin göstərilməsi qarşıya vəzifə kimi qoyulmuşdur.

Əminliklə demək olar ki, dövlətimizin başçısının imzaladığı bu Fərman ədalət mühakiməsi prosesində keyfiyyətcə yeni və cəmiyyət üçün çox vacib yanaşmaların tətbiqinə mühüm təkan verəcəkdir.

Konstitusiya Məhkəməsinin fəaliyyətindən bəhs edərkən qeyd edilməlidir ki, Məhkəmənin əsas səlahiyyətləri Konstitusiyanın 130-cu maddəsində əksini tapmışdır.

Qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarının, bələdiyyə və məhkəmə aktlarının Konstitusiyaya və hüquqi qüvvəsinə görə daha üstün olan aktlara uyğunluğunun yoxlanılması Konstitusiya Məhkəməsinin əsas səlahiyyətlərindən biridir. Bu səlahiyyəti vasitəsilə Konstitusiya Məhkəməsi Konstitusiyanın və qanunların aliliyini təmin etmiş olur. Burada mühüm məqam ondan ibarətdir ki, yoxlanılan norma məhz Əsas Qanunun hərfinə və ruhuna, onun təməl prinsiplərinə uyğunluq baxımından qiymətləndirilir və Konstitusiya ilə uyğunsuzluq təşkil etdiyi halda qüvvədən salınmış normalar qanunvericilik sistemindən kənarlaşdırılmış olur.

Konstitusiya Məhkəməsinin mühüm səlahiyyətlərindən biri Konstitusiya və qanunların şərh edilməsidir. Burada əsas məqsəd bu və ya digər normanın məzmununu aydınlaşdırmaqla, onun vahid tətbiqi qaydasını müəyyən etməkdir. İnsan hüquq və azadlıqlarının həyata keçirilməsi ilə bağlı qanunvericilik müddəalarının bəzən birmənalı dərk edilməməsi mübahisəli hüquq məsələlərinin məhkəmələr tərəfindən həlli zamanı müxtəlif kolliziyaların ortaya çıxmasına səbəb olur. Bu isə son nəticədə vətəndaşların hüquqlarının və azadlıqlarının, qanuni mənafelərinin müdafiəsinin dövlət təminatını zəiflədən hüquqtətbiqetmə təcrübəsinin yaranmasına gətirib çıxarır.

Qeyd edilməlidir ki, Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən qəbul edilmiş qərarlar sırasında məhkəmələrin müraciətləri əsasında Konstitusiya və qanunların şərhinə dair çıxarılmış qərarlar xüsusi çəkiyə malikdir. Ümumiyyətlə, Konstitusiya Məhkəməsi hər zaman digər məhkəmələrlə qarşılıqlı əməkdaşlıq çərçivəsində fəaliyyət göstərir. Son dövrlərdə Konstitusiya Məhkəməsinə məhkəmələr tərəfindən edilən müraciətlər məhkəmələrin daha ədalətli və əsaslandırılmış qərarlar qəbul etməsi zərurətindən irəli gəlir. Belə ki, məhkəmələrin müraciətləri əsasında qəbul edilmiş qərarlar qanunvericilikdə mövcud olan qeyri-müəyyənliklərin aradan qaldırılmasına şərait yaratmaqla, hüquqi müəyyənlik prinsipinin təmin edilməsi baxımından ümumi məhkəmə təcrübəsinin formalaşmasına mühüm töhfə verir.

Konstitusiya Məhkəməsi Plenumunun qərarlarının, xüsusilə də bu qərarlarda ifadə olunan hüquqi mövqelərin məhkəmələr tərəfindən birmənalı tətbiqi məhkəmə təcrübəsinin stabilliyinə, eyni zamanda, Konstitusiya Məhkəməsi Plenumunun qərarlarının məcburiliyi barədə qanunvericiliyin tələblərinin yerinə yetirilməsinə xidmət edir və nəticə etibarilə hüquqtətbiqetmə təcrübəsinin təkmilləşdirilməsi baxımından vacib əhəmiyyətə malikdir.

Konstitusiya Məhkəməsinin səlahiyyətlərindən bəhs edərkən fərdi şikayətləri xüsusilə qeyd etmək lazımdır. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə 2002-ci ildə keçirilmiş konstitusiya islahatlarından və 2004-cü ildə "Konstitusiya Məhkəməsi haqqında" yeni Qanunun qüvvəyə minməsindən sonra Konstitusiya Məhkəməsində fərdi şikayətlər institutu fəaliyyətə başladı. Bu gün təcrübə onu göstərir ki, fərdi şikayət institutu Konstitusiyanın aliliyinin təmin edilməsinin səmərəli vasitələrindən biri kimi insan hüquq və azadlıqlarının müdafiəsi baxımından kifayət qədər faydalı və effektiv imkanlar yaradır.

Konstitusiya Məhkəməsinə hər hansı bir formada, o cümlədən Məhkəmənin rəsmi internet səhifəsi vasitəsilə elektron şəkildə göndərilən şikayət, ərizə və məktublara diqqətlə baxılır, araşdırılaraq müvafiq qaydada cavablandırılır.

Xüsusilə qeyd olunmalıdır ki, bu günlərdə Konstitusiya Məhkəməsinin Plenumu özünün 400-cü qərarını qəbul edib.

Keçən fəaliyyət ili ərzində Plenum tərəfindən sorğu, müraciət və konstitusiya şikayətləri əsasında bir sıra mühüm qərarlar qəbul edilmişdir. Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında qəbul edilmiş "Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinin Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi baxımından şərh edilməsinə dair" 2019-cu il 18 mart tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu əvvəlki qərarlarında ifadə edilmiş hüquqi mövqelərə istinad edərək qeyd etmişdir ki, hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir. Məhkəmə işin gedişində təqdim olunmuş ancaq o sübutları qəbul edir və nəzərə alır ki, onlar işdə tərəflərin tələblərini müəyyən edən faktlarla və hallarla əlaqədardır. Qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

⇨ Davamı 9-cu səhifədə

# SOCAR-ın prezidenti Çinin İpək Yolu Fondunun Müşahidə Şurasının sədrini qəbul edib







**SOCAR-ın prezidenti Rövnəq Abdullayev Çinin İpək Yolu Fondunun Müşahidə Şurasının sədri Yan Zedjunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Qonaqları salamlayan SOCAR-ın prezidenti Çinin İpək Yolu Fondunun böyük investisiya imkanlarından danışmış və bu sərmayənin bütün dünyanın inkişafına töhfə verə biləcəyini vurğulamışdır.**

İpək Yolu Fondunun Müşahidə Şurasının sədri Yan Zedjun səmimi qəbul üçün təşəkkürünü bildirmiş, hazırda Fondun maliyyə imkanlarının genişləndirilməsindən, həmçinin müxtəlif sahələrə sərmayə qoymaqda maraqlı olduqlarından bəhs etmişdir. Fondun müxtəlif infrastruktur layihələrinin maliyyələşdirilməsində yaxından iştirak etdiyini bildirən Yan Zedjun bu istiqamətdə Azərbaycanla da əməkdaşlıqda maraqlı olduqlarını vurğulamışdır. Fond rəhbəri SOCAR-ın fəaliyyətini yaxından izlədiklərini, şirkətin inkişaf konsepsiyası ilə tanış olduqlarını diqqətə çatdırmışdır.

Rövnəq Abdullayev Azərbaycanda həyata keçirilən infrastruktur layihələri haqqında qonaqları məlumatlandırmış, gələcəkdə həyata keçiriləcək enerji layihələrində Çinlə əməkdaşlıq perspektivlərindən söz açmışdır.

Tərəflər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

# SOCAR-ın prezidenti Fransa Sahibkarlar Təşkilatının üzvləri ilə görüşüb







**İyulun 11-də SOCAR-ın prezidenti Rövnəq Abdullayev Fransa Sahibkarlar Təşkilatı - MEDEF Biznes Şurasının prezidenti Jofrua Ru de Beziönün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.**

Qonaqları səmimi salamlayan Rövnəq Abdullayev Fransa şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiklərini qeyd etmiş, ölkəmizdə həyata keçirilən regional və qlobal əhəmiyyətli enerji layihələri çərçivəsində SOCAR ilə Fransa şirkətləri arasında yaranmış uzunmüddətli və səmərəli əməkdaşlığın uğurlarından söz açmış, MEDEF-in nümayəndə heyətinin bu səfərindən sonra Fransa sahibkarları ilə əlaqələrin daha da genişlənəcəyinə əminliyini ifadə etmişdir.

MEDEF Biznes Şurasının prezidenti Jofrua Ru de Beziö səmimi qəbul üçün təşəkkürünü bildirmiş, məlumat vermişdir ki, 170 min şirkətin üzv olduğu təşkilatın nümayəndə heyətində bank, tikinti, enerji, ətraf mühit, tədbirlərin təşkili, yeni texnologiya sahələri üzrə fəaliyyət göstərən şirkətlər təmsil olunurlar. MEDEF üzvü olan şirkətlərin enerji sektorunda əldə etdikləri nailiyyətlərdən danışan qonaq görüşdə iştirak edən Fransa şirkətlərinin Azərbaycanla daha çox qeyri-neft sektoru üzrə informasiya texnologiyaları, innovasiyalar, kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi, turizm kimi sahələrdə əlaqələrin qurulmasında maraqlı olduqlarını nəzərə çatdırmışdır. Jofrua Ru de Beziö xarici şirkətlərin Azərbaycanda uğurla çalışmaları üçün ölkəmizdə əlverişli şərait yaradıldığını bildiklərini vurğulamışdır.

SOCAR-ın prezidenti R.Abdullayev şirkətin həyata keçirdiyi infrastruktur layihələri haqqında qonaqlara ətraflı məlumat vermiş və müxtəlif sahələrdə əməkdaşlıq üçün geniş perspektivlərin olduğunu diqqətə çatdırmışdır.

Daha sonra görüşdə iştirak edən fransız şirkətlərinin nümayəndələrini maraqlandıran suallar cavablandırılmış, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Fransanın Azərbaycandakı səfiri Orelia Buşez görüşdə iştirak etmişdir.

## Bakı Ali Neft Məktəbinin tələbələri “CanSat Azərbaycan 2019” müsabiqəsində 2-ci yerin qalibi olublar






“Azərkosmos” ASC-nin və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycanda növbəti dəfə tələbələr arasında keçirilən “CanSat Azərbaycan 2019” model peyk müsabiqəsinin final mərhələsinin nəticələri açıqlanıb.

Müsabiqədə iştirak etmiş komandalar final mərhələdə “Peyk modellərinin uçuş sonrası hesabatı”nı təqdim edib. Komandalar yerli və beynəlxalq üzvlərdən ibarət münsiflər heyəti tərəfindən müsabiqənin meyarlarına uyğun olaraq qiymətləndirilib.

Qiymətləndirmənin yekununa əsasən 2-ci yerin qalibi Bakı Ali Neft Məktəbinin “Can of Duty” komandası olub. Ali məktəbi müsabiqədə həmin komandanın üzvləri - Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasının III kurs tələbəsi Fərid Həmidov, IV kurs tələbələri Rüstəm Həsənov, Mirəkrəm Ağalarov və Hüseyn Nəcəfov təmsil edib.

“Cansat Azərbaycan 2019” model peyk müsabiqəsi bu ilin yanvar ayından etibarən elan edilib və müsabiqədə ölkənin 15 universitetindən 38 komanda qeydiyyatdan keçib.

Artıq ikinci ildir ki, baş tutan “CanSat Azərbaycan” müsabiqəsinin keçirilməsi ölkə gənclərinin kosmik texnologiyalar sahəsinə marağının artırılmasına xidmət edir, eləcə də müsabiqə qaliblərinə gələcəkdə Azərbaycanı bu cür beynəlxalq yarışlarda layiqincə təmsil etmək imkanı verir.

## SOCAR İstiqrazlarının sahibləri 13.75 milyon dollar qazanacaqlar




Faizləri hər 3 aydan bir ödənilən və dollarda illik 5 faiz gəlir qazandıran SOCAR İstiqrazlarının 17 iyul tarixində 2019-cu il üzrə 3-cü, sayca 11-ci faiz ödənişi baş tutacaq və bununla da, istiqraz sahiblərinin ümumi gəliri 13 milyon 750 min dollara yüksəlmiş olacaq.

“SOCAR Capital” şirkətindən verilən məlumata əsasən, hər istiqraz üçün 12.5 dollar olmaqla, ümumilikdə 1.25 milyon dollar vəsait artıq Milli Depozit Mərkəzinin Mərkəzi Bankdakı hesabına köçürülüb.

Əsas xüsusiyyətləri SOCAR-ın nominal qiymətdən geri alma zəmanəti, likvidliyin yüksək olması, alqı-satqı əməliyyatlarının asanlığı və faiz ödənişlərinin qrafikə uyğun aparılması olan SOCAR İstiqrazlarının təkrar bazar əməliyyatlarının ümumi həcmi hazırda 175 milyon dolları ötüb və Bakı Fond Birjasında ən çox alınıb-satılan korporativ qiymətli kağızdır - 2019-cu ilin ilk yarısında 232, ümumilikdə isə 1791 əqd bağlanıb.

1 və 5 saylı “ASAN xidmət” mərkəzlərindən də əldə edilməsi mümkün olan və 5 illik müddətə buraxılan SOCAR İstiqrazlarının 17 iyul tarixində ümumi faiz ödənişlərinin artıq yarıdan çoxu yekunlaşmış olacaq və müddətin sonunda istiqraz sahiblərinin ümumi gəliri 25 milyon dollar təşkil edəcəkdir.

## Milli Kitabxanada ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişinin 50-ci ildönümünə həsr olunmuş tədbir keçirilib




İyulun 11-də M.F.Axundzadə adına Milli Kitabxanada ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişinin 50-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə reallaşan tədbirdə Ulu Öndərin fəaliyyətinə həsr olunan videoçarx nümayiş edilib.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov Azərbaycan xalqının, dünya azərbaycanlılarının taleyində əhəmiyyətli rol oynayan, müasir ölkəmizin inkişafında əvəzsiz xidmətləri olan dahi şəxsiyyət Heydər Əliyev haqqında geniş söhbət açıb. Professor çıxışında Ulu Öndərin 1969-cu ildən başlayaraq Azərbaycan xalqının rifahı naminə gördüyü işlərdən, Azərbaycanın müstəqillik tarixində taleyüklü məsələlərin həll olunmasındakı əhəmiyyətli rolundan danışıb. O, Ümummilli Liderin zəngin dövlətçilik prinsiplərinin onun layiqli varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev çıxışında bildirib ki, Ulu Öndər öz fəaliyyəti ilə müasir Azərbaycan dövlətinin memarı, qurucusu oldu. Nazir müavini Ümummilli Liderin sovetlər birliyində Azərbaycana rəhbərlik etdiyi dövrdə təhsil, elm, mədəniyyət, iqtisadiyyat, kənd təsərrüfatı, energetika, neft-kimya sahəsinin inkişaf etdiyini, qısa zaman ərzində xalqımızın maddi və sosial rifahının yüksəldiyini söyləyib. Müstəqillik illərində Heydər Əliyevin çoxşaxəli fəaliyyətindən danışan Vaqif Əliyev hazırda Azərbaycanın dünyada sayılıb-seçilən bir dövlət olduğunu vurğulayıb.

Daha sonra Ümummilli Liderin hakimiyyətə gəlməsinin 50-ci ildönümünə həsr olunmuş qısa film nümayiş olunub.

Azərbaycanda Atatürk Mərkəzinin direktoru, Milli Məclisin deputatı, Əməkdar elm xadimi, akademik Nizami Cəfərov çıxış edərək Azərbaycan tarixinin böyük bir hissəsinin Ulu Öndərin adı ilə bağlı olduğunu, müasir Azərbaycan dili dərslikləri hazırlandığını, dövlət idarələrində Azərbaycan dilinin nüfuz qazandığını, bütövlükdə xalqın oyadılması istiqamətində uğurlu addımlar atıldığını söyləyib.

Tədbirdə Milli Məclisin deputatları Hikmət Babaoğlu, Aqil Abbas, YAP Siyasi Şurasının üzvü Vüqar Rəhimzadə və başqaları çıxış edərək ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən, Azərbaycan dövlətçiliyinin bərpasında, qorunub saxlanılmasında misilsiz xidmətlərindən, Ümummilli Liderin xalqımızın rifahı naminə həyata keçirdiyi siyasi-iqtisadi islahatlardan söhbət açıblar.

Sonda Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanmış “Azərbaycan tarixinin Heydər Əliyev dövrü (1969-2019)” adlı elektron məlumat bazası təqdim edilib.

# Gədəbəyin yaşayış məntəqələrinə təbii qaz verilib

Ölkə başçısı İlham Əliyevin tapşırığına əsasən SOCAR-ın “Azəriqaz” İstehsalat Birliyi tərəfindən 2019-cu ildə ucqar kəndlərin qazlaşdırılması məqsədi ilə hazırlanmış qazlaşdırma proqramına uyğun olaraq Gədəbəy rayonunun 8 yaşayış məntəqəsinin mərhələli şəkildə qazlaşdırılması da nəzərdə tutulmuşdur.

Dağlıq relyef olduğundan texnikanın çətinliklə işlədiyi ərazilərdə, qaz borularının işçilər tərəfindən həmin ərazilərə əlləri ilə daşınması, hava şəraitinin qeyri-sabit yağıntılı keçməsinə baxmayaraq, artıq görülən işlər nəticəsində cari ilin iyun ayında Gədəbəy rayonunun Yenikənd, Çobankənd və Köhnəqışlaq kəndləri “mavi yanacaq”la təmin olunub.



2019-cu il iyul ayının 11-də isə daha üç yaşayış məntəqəsinə, Novoivanovka, Çiçəkli həmçinin Şahdağ kəndlərinə təbii qazın verilməsi sakinlərin böyük sevincinə səbəb olub. Bu məqsədlə keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin və SOCAR-ın “Azəriqaz” İstehsalat Birliyinin təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak etmişlər. Bildirilmişdir ki, ümumilikdə 996 fərdi evdən ibarət kəndlərin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 88 min 456 metr müxtəlif diametrli polad borularla daşıyıcı, paylayıcı və məhəllədaxili qaz xətləri çəkilmiş, mənzillərə sayğac eləcə də fərdi tənzimləyici quraşdırılmışdır.

Qeyd olunan bölgədə yerləşən yaşayış məntəqələrinə təbii qazın verilməsi əhalinin həyat şəraitinin yaxşılaşmasına, ekologiyanın qorunmasına xidmət edir və qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında “bir pilləli” tənzimləmə sistemi tətbiq olunur ki, bu da hər bir abonentin fərdi qaz tənzimləyicidən istifadə etməsinə, eləcə də istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır.

Tədbirdə çıxış edən sakinlər kəndlərə təbii qazın verilməsinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Hazırda Gədəbəy rayonunun Qurudərə və Sarıköynək kəndlərində qazlaşdırma işləri aparılır, tezliklə tikinti-quraşdırma işləri yekunlaşdırılaraq təbii qazın verilişi təmin ediləcək.

# Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətə başlamasından 21 il keçir

⇨ Əvvəli 6-cı səhifədə

Həmin Qərarında Plenum belə nəticəyə gəlmişdir ki, mülki məhkəmə icraatında Konstitusiyanın 125-ci maddəsinin VII hissəsinin "Məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir" müddəası Konstitusiyanın 127-ci maddəsinin II, IV və VII hissələrində, 129-cu maddəsinin III hissəsində təsbit olunmuş ədalət mühakiməsinin çəkişmə, tərəflərin bərabərliyi, faktlar əsasında və qanuna müvafiq keçirilməsi, məhkəmə qərarının qanuna və sübutlara əsaslanmasına dair ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri ilə əlaqəli şəkildə tətbiq olunmalıdır.

Mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatı zamanı məhkəmələr ədalət mühakiməsini çəkişmə və tərəflərin bərabərliyi prinsipinə riayət etməklə, tərəflərin təqdim etdiyi sübutlar və faktlar əsasında həyata keçirməli, öz qərarlarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, təqdim etdikləri və Mülki Prosessual Məcəllənin tələblərinə müvafiq olaraq əldə edilmiş sübutlarla əsaslandırmalı, həmin sübutların araşdırılmasından irəli gələn həqiqəti müəyyən etməlidir.

Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında qəbul edilmiş "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.10.1-ci, 92.10.3-cü və 244.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 2019-cu il 28 mart tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu hüquqi yardım almaq hüququ ilə bağlı qeyd etmişdir ki, hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun ictimai əhəmiyyəti ondan ibarətdir ki, bu hüquq öz mahiyyətinə görə insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsinin vacib təminatıdır. Bu hüququn funksiyalarından biri olan preventiv funksiya nəinki şəxsin öz hüquq və azadlıqlarını qanuna uyğun həyata keçirməsinə kömək edir, həmçinin dövlət hakimiyyəti orqanlarının və onların vəzifəli şəxslərinin insan və vətəndaş hüquq və azadlıqlarının qeyri-qanuni məhdudlaşdırılmasına yönəlmiş hərəkətlərinin qarşısının alınmasına zəmanət verir.

Bu Qərarda vurğulanmışdır ki, şübhəli və ya təqsirləndirilən şəxsin qanuni mənafeyinin qorunması üçün müdafiəçi müdafiə etdiyi şəxsin iştirakı ilə aparılan prosessual hərəkətlərdə iştirak etməklə öz prosessual vəzifələrini yerinə yetirir. Cinayət prosesində müdafiəçinin qanunvericiliklə nəzərdə tutulmuş prosessual hüquqlarının və vəzifələrinin həyata keçirilməsinin təmin edilməsi son nəticədə ədalət mühakiməsinin həyata keçirilməsinə mühüm töhfə kimi çıxış edir.

Konstitusiya Məhkəməsinin Plenumu, həmçinin qeyd etmişdir ki, istintaq və ya digər prosessual hərəkətlərdə müdafiəçinin mütləq iştirak etməli olduğu hallar mövcud olmadıqda, eləcə də şübhəli və ya təqsirləndirən şəxs bunu tələb etmədikdə cinayət prosesini həyata keçirən orqan tərəfindən müdafiəçinin belə hərəkətlərin aparılmasında iştirakının tələb edilməsi yolverilməzdir.

Həmin Qərarında Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlmişdir ki, Cinayət-Prosessual Məcəlləsinin 92.10.3-cü maddəsinin tələbləri baxımından, həmin Məcəllənin 244-cü maddəsində nəzərdə tutulmuş axtarış və ya götürmə istintaq hərəkətləri şübhəli və ya təqsirləndirilən şəxsin iştirakı olmadan aparıldıqda, müdafiəçi müdafiə etdiyi şəxsin razılığı olmadan həmin prosessual hərəkətlərdə iştirakdan imtina edə bilməz.

Bakı Apellyasiya Məhkəməsinin digər bir müraciəti əsasında qəbul edilmiş "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 2.5-ci maddəsinin şərh edilməsinə dair" 2019-cu il 24 aprel tarixli Qərarında qeyd edilmişdir ki, Mülki Məcəllənin 2.5-ci maddəsi, qanunvericilikdə ayrı qaydanın nəzərdə tutulduğu hallar istisna olmaqla, digər bütün hallarda mülki qanunvericilik müddəalarının bir tərəfin digər tərəfə inzibati və ya digər hakimiyyət tabeliyinə əsaslanan əmlak münasibətlərinə, o cümlədən vergi, maliyyə və inzibati münasibətlərə tətbiq edilməsini prinsipial şəkildə qadağan edir. Bu cür qadağa, mülki hüquq başda olmaqla, bütün xüsusi hüquq sahələrinə xas olan hüquqi tənzimləmə metodlarının publik hüquq sahələrinə, o cümlədən inzibati, sosial təminat, vergi hüququna xas tənzimləmə metodlarından əhəmiyyətli dərəcədə fərqli olmasından irəli gəlir.

Həmin Qərarında Konstitusiya Məhkəməsinin Plenumu vurğulamışdır ki, qanunverici "əgər qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa" müddəasını Mülki Məcəllənin 2.5-ci maddəsində ifadə edərkən, ümumi (publik) hüquq münasibətlərində mülki qanunvericiliyin tətbiqini tam istisna etməmişdir. Bu, yalnız qanunvericinin birbaşa göstərişinin olduğu halda mümkündür. Məsələn, Vergi Məcəlləsinin 78.2-ci maddəsinə müvafiq olaraq, vergi öhdəliklərinin yerinə yetirilməsi Mülki Məcəllədə nəzərdə tutulmuş ardıcıllıqla həyata keçirilir.

Sumqayıt Apellyasiya Məhkəməsinin müraciəti əsasında qəbul edilmiş "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 128-ci maddəsi baxımından həmin Məcəllənin 109-cu maddəsinin şərh edilməsinə dair" 2019-cu il 3 may tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu qeyd etmişdir ki, İnzibati Xətalar Məcəlləsinin qərardadlardan bəhs edən nə ümumi, nə də xüsusi normalarında məhkəmə qərardadlarından şikayət verilməsinin nəzərdə tutulmaması onunla izah olunur ki, qərardad məsələni mahiyyəti üzrə həll etmir, şəxsin hüquq və azadlıqlarını məhdudlaşdırmır, mübahisənin gələcəkdə davam etdirilməsini istisna etmir, o, yalnız işin ədalətli həll olunmasına xidmət edir. Eyni zamanda, qanunverici, "prosessual qənaət" prinsipini rəhbər tutaraq məhkəmə prosesinin lüzumsuz olaraq uzanmasının qarşısını almaq məqsədi ilə hər bir qərardad üzrə şikayətin verilməsini mümkünsüz hesab etmişdir.

Adıçəkilən Qərarda Plenum belə nəticəyə gəlmişdir ki, İnzibati Xətalar Məcəlləsinin 128-ci maddəsinin tələbləri baxımından həmin Məcəllənin 109-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işin baxılmasına hazırlanması zamanı qəbul edilən qərardadlardan apellyasiya şikayəti vermək hüququ istisna edilir.

Həmçinin vurğulanmışdır ki, inzibati protokolu tərtib etmək səlahiyyəti olan orqan (vəzifəli şəxs) həmin protokolu tərtib edərkən İnzibati Xətalar Məcəlləsinin tələblərinə ciddi riayət etməlidir. Məhkəmələr protokol və ya digər sənədlərin düzgün tərtib olunmadığını və ya təqdim edilmiş materialların natamam olduğunu müəyyən etdikdə "prosessual qənaət" və "işlərə ağlabatan müddətdə baxılması" prinsiplərini rəhbər tutaraq sənədləri onu tərtib etmiş orqana, vəzifəli şəxsə qərardadla qaytarmazdan əvvəl, həmin qüsur və natamamlıqların aradan qaldırılması üçün bütün imkan və vasitələrdən istifadə etməlidir.



Qeyd olunduğu kimi, cənab Prezident tərəfindən imzalanan "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanda cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, eyni zamanda, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması üçün görülən tədbirlərin gücləndirilməli olması vurğulanmışdır.

Məhz Fərmanın tələblərini nəzərə alaraq, Konstitusiya Məhkəməsi Plenumunun qəbul etdiyi son qərarlardan biri olan Davud Zöhrab oğlu Bağırovun şikayəti üzrə 2019-cu il 3 iyun tarixli Qərarında xüsusilə vurğulanmışdır ki, Plenumun qərarında göstərilən hüquqi mövqelər nəzərə alınmadan, yenidən eyni ziddiyyətli yanaşmalara yol verməklə yanlış qərarın qəbul edilməsi Konstitusiyanın 60-cı maddəsinin II hissəsinin tələblərinə zidd olmaqla işə baxılma müddətinin əsassız uzanmasına və süründürməçiliyə səbəb olur.

Həmçinin qeyd edilməlidir ki, Konstitusiya Məhkəməsi Plenumunun bir sıra digər qərarlarında da işlərə ağlabatan müddətdə baxılmasının, eyni zamanda, süründürməçiliyə yol verilməməsinin vacibliyi ilə bağlı mühüm hüquqi mövqelər formalaşdırılmışdır. Belə ki, N.Rzazadə və R.Rzazadənin şikayəti üzrə 2018-ci il 11 dekabr tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu oxşar hüquqi mövqedən çıxış etmişdir. Həmin Qərarda ədalətli məhkəmə araşdırması hüququ ilə bağlı qeyd edilmişdir ki, bu hüququn mühüm elementlərindən biri də hər hansı bir işə məhkəmələr tərəfindən ağlabatan müddətdə baxılmasıdır. Məhkəmə icraatının ağlabatan müddətdə aparılması vaxtında qanuni və əsaslı məhkəmə aktı qəbul edilməsi ilə proses iştirakçılarının hüquq və azadlıqlarının, qanuni mənafelərinin müdafiə edilməsi məqsədi daşıyır.

Həmçinin Konstitusiya Məhkəməsinin Plenumu xüsusi olaraq vurğulamışdır ki, eyni işə dəfələrlə məhkəmələr tərəfindən baxılması üç pilləli məhkəmə sisteminin təyinatına, məhkəmə hüquq islahatlarının məqsədlərinə, ədalət mühakiməsini həyata keçirən məhkəmələrin qanunla nəzərdə tutulmuş vəzifələrinə uyğun gəlməyərək məhkəmənin nüfuzuna mənfi təsir göstərir.

Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən qəbul edilən qərarlardan bəhs edərkən qeyd edilməlidir ki, bu qərarlarda Konstitusiyanın aliliyi və birbaşa hüquqi qüvvəsi, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəaları, habelə insan hüquqlarının və azadlıqlarının prioriteti prinsipi nəzərə alınmaqla mühüm hüquqi mövqelər formalaşdırılır. Sözsüz ki, Konstitusiya Məhkəməsinin qərarının yüksək hüquqi qüvvəsi onun bütün hissələrinə, o cümlədən hüquqi mövqelərinə də şamil edilir. Digər mühüm bir məqam isə ondan ibarətdir ki, Konstitusiya Məhkəməsinin hüquqi mövqelərinin hüquqi qüvvəsi ümumi xarakter daşıdığından, yalnız konstitusiya işinin predmetini təşkil edən hala deyil, hüquq tətbiqetmə təcrübəsində rast gəlinən analoji hallara da şamil edilir. Bu mənada həmin qərarlar yalnız məhkəmələr deyil, həmçinin bütün hüquq tətbiqedici orqanlar üçün əhəmiyyətli mənbə qismində çıxış edir.

Həmçinin qeyd edilməsi vacibdir ki, Konstitusiya Məhkəməsinin təcrübəsinin tətbiqi prosesində hər hansı bir hüquqi mövqeyə istinad edilməsi zamanı onun düzgün və müvafiq şəkildə istifadə edilməsi, ümumi kontekstdən, mahiyyətindən və mənasından kənar işlədilməməsi xüsusi əhəmiyyət kəsb edir.

İstənilən konstitusiya nəzarəti orqanı kimi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi konstitusiya ədalət mühakiməsinin qabaqcıl inkişaf tendensiyalarının öyrənilməsinə hər zaman önəm verir.

Qeyd edilməlidir ki, Konstitusiya Məhkəməsinin Plenumu hər zaman beynəlxalq təcrübəyə xüsusi diqqət yetirməklə, qəbul edilən qərarlarında beynəlxalq hüquqi aktların, o cümlədən "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının müddəalarına, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququna, həmçinin Respublikamızın tərəfdar çıxdığı beynəlxalq sazişlərə, xarici ölkələrin konstitusiya nəzarəti orqanlarının mütərəqqi məhkəmə təcrübəsinə istinadlar edir.

Digər tərəfdən, Konstitusiya Məhkəməsi fəaliyyətə başladığı ilk illərdən beynəlxalq əlaqələrinin genişləndirilməsinə xüsusi önəm vermiş, xarici ölkələrin konstitusiya nəzarəti orqanları ilə, bir sıra mötəbər beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq münasibətləri qurmağa nail ola bilmişdir. Bu gün Məhkəmə Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransının, Avropa Konstitusiya Məhkəmələri Konfransının, Asiya Konstitusiya Məhkəmələri və Ekvivalent İnstitutlar Assosiasiyasının, habelə Avrasiya Konstitusiya Nəzarəti Orqanları Assosiasiyasının tamhüquqlu üzvüdür.

Fəaliyyət göstərdiyi bu illər ərzində Konstitusiya Məhkəməsi Əsas Qanunun fundamental prinsiplərinin təmin edilməsi, insan hüquqlarının və azadlıqlarının müdafiəsi sahəsində səmərəli fəaliyyəti ilə ali dövlət orqanları sırasında özünəməxsus yerini tutmağa nail olmuşdur. Əlbəttə ki, Məhkəmənin bu fəaliyyəti xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş və bu gün də Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən hüquqi dövlət quruculuğu sayəsində mümkün olmuşdur.

Konstitusiya Məhkəməsi hər zaman ulu öndər Heydər Əliyevin dəstəyini hiss etmiş, bu gün isə Məhkəmənin fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən dəstəklənir. Cənab Prezident tərəfindən Məhkəməyə göstərilən bu etimad çox qürurverici olmaqla, eyni zamanda, bizim hər birimiz üçün böyük məsuliyyəti nəzərdə tutur. Konstitusiya Məhkəməsi bundan sonra da bu etimadı doğrultmaq üçün qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışacaqdır.

Konstitusiya Məhkəməsinin 20 illik yubileyi münasibətilə dövlətimizin başçısı cənab İlham Əliyevin Konstitusiya Məhkəməsinin kollektivinə ünvanladığı təbrik məktubunda Məhkəmənin fəaliyyətinin fərqləndirilməsi, həmçinin qarşımızda duran prioritet istiqamətləri və vəzifələri müəyyən etmişdir.

Bu gün Azərbaycan sürətlə yeniləşir və müasirləşir. Sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən ölkə olaraq Azərbaycan dövlətinin öz siyasi dəstxəti, dövlətçilik siması, inkişaf yolu vardır. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf konsepsiyası son 15 ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu günün çağırışları nəzərə alınaraq daha da təkmilləşdirilmiş, məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsi, dövrün tələblərinə uyğun sistemli islahatların aparılması, ictimai-siyasi və sosial-iqtisadi sahələrdə mütərəqqi dəyişikliklərin edilməsi nəticəsində ölkəmizdə yüksək inkişaf dinamikasına nail olunmuşdur.

Həmçinin səmərəli dövlət idarəçiliyinin, təhlükəsizliyin və sabitliyin gücləndirilməsi ilə bağlı görülən tədbirlər müstəqilliyimizin daha da möhkəmləndirilməsini, dövlətimizin nüfuzunun artmasını, eyni zamanda, xalqımızın rifah halının yüksəlməsini təmin etmişdir.

Ölkəmiz hər il mötəbər humanitar və iqtisadi tədbirlərə, idman yarışlarına, musiqi və incəsənət festivallarına, konfrans və sərgilərə layiqincə ev sahibliyi edir. Həqiqətdir ki, bu gün ölkəmiz bir sıra beynəlxalq layihələrin, ikitərəfli və çoxtərəfli görüşlərin nəinki iştirakçısı, həmçinin təşəbbüskarı qismində çıxış edir. Bakı son illərdə beynəlxalq əhəmiyyətli tədbirlərin keçirildiyi mərkəzə çevrilmişdir. Bu cür dünyamiqyaslı görüşlərin mütəmadi olaraq Bakıda keçirilməsi bir daha sübut edir ki, ölkəmiz etibarlı tərəfdaş olmaqla, əməkdaşlığa hər zaman açıqdır.

Müşahidə edilən bu cür davamlı inkişaf və tərəqqi şübhəsiz ki, dövlətimizin başçısının siyasi iradəsi, uğurlu daxili və xarici siyasəti nəticəsində mümkün olmuşdur.

Əminik ki, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu fəaliyyətinə dəstək olaraq Əsas Qanunun aliliyinin təmin edilməsi, insan hüquqlarının və azadlıqlarının səmərəli müdafiəsi işinə bundan sonra da öz töhfəsini verməkdə davam edəcəkdir.

**Fərhad Abdullayev,**
Azərbaycan Respublikası
Konstitusiya Məhkəməsinin sədri

# Müstəqilliyə doğru böyük dönüş və milli oyanışın başlanması

## DAHİ ŞƏXSİYYƏT HEYDƏR ƏLİYEVİN SİYASİ HAKİMİYYƏTƏ GƏLMƏSİNİN 50 İLİNİN İŞIĞINDA AZƏRBAYCAN HƏQİQƏTLƏRİ BİR DAHA DÜNYAYA ÇATDIRILIR

I YAZI



### Heydər Əliyevin zəngin irsi hələ uzun illər tədqiqat, araşdırma mövzusu olacaq

"Heydər Əliyev kimi tarixi şəxsiyyətlər min ildə bir dəfə doğulur, belə insanlar dünyanın ləl-cavahiridir", "Heydər Əliyev tarixin yetişdirdiyi güclü şəxsiyyət və böyük siyasi xadim idi", "Heydər Əliyev türk dünyasına işıq saçan bir çıraqdır", "Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət - bir sözlə, şəksiz liderdir", "Nə yaxşı ki Heydər Əliyev vardı...",...

Ulu Öndər haqqında nəinki ölkə daxilində, hətta beynəlxalq səviyyədə səsləndirilən bu dəyərləndirmələr sonsuzdur. Bu yanaşmalar əsasında özlüyündə yaranan "Ulu öndər Heydər Əliyev canından artıq sevdiyi Azərbaycanı necə görmək istəyirdi" sualı ətrafında müasir tariximizin dönüş nöqtəsi kimi dəyərləndirilən 14 iyul 1969-cu ildən başlanan yola bir baxış keçirib, "Azərbaycan deyəndə Heydər Əliyev, Heydər Əliyev deyəndə Azərbaycan yada düşür" tezisinin yaranmasını şərtləndirən amilləri bir daha diqqətə çatdırmağı özümüzün vətəndaşlıq borcu hesab edirik. Bu fikri bu gün hər kəs böyük inam və fəxr hissi ilə qeyd edir ki, nə zamansa dahi şəxsiyyət Heydər Əliyevlə təmasda olmuş, işləmiş, hətta kənardan müşahidə etmiş insanlar belə real olduğu qədər də əfsanəvi bir şəxsiyyəti tanımağın bəxtiyarlığını yaşamaqdadırlar.

Dahi şəxsiyyət Heydər Əliyev haqqında söylənilən bu fikirlə yazını davam etdiririk: "Əslində, Heydər Əliyev kimi milli olduğu qədər də bir dünya adamı olan insanlar haqqında son söz deyilməz. Zaman ötdükcə, illər uzaqlaşdıqca xatirələr daha da isinir, bu dünyada miras qoyduqları xeyirxah əməllərin timsalında ikinci, zənnimcə, daha önəmli və uzun ömürlərini - mənəvi həyatlarını yaşayırlar... Zaman sürətlə irəli şütüyür. Gənc nəsil də coşqun sürətə tabe olaraq sabaha doğru addımlamaqdadır. Ancaq keçmişlə sıx əlaqəni təmin etmədən hər hansı bir irəliləyişdən bəhs etmək mənasızdır. Azərbaycan xalqı bu gün böyük bir inkişaf və rifah yolundadır... Belə bir etibarlı tarixi varislik nümunəsi öndər siyasətçi, misilsiz dövlət xadimi, kamil şəxsiyyət və Azərbaycan xalqının böyük sevdalısı Heydər Əliyevin timsalında mümkün olmuşdur".

Ümummilli lider Heydər Əliyevin timsalında bu fikri də böyük əminliklə qeyd edirik ki, tarixdə elə şəxsiyyətlər olur ki, onların həyat və fəaliyyətindən bəhs etmək üçün bütöv bir xalqın, dövlətin tarixini vərəqləmək gərəkdir. Ulu öndər Heydər Əliyev məhz belə xoşbəxt şəxsiyyətlərdən idi. Bu gün təntənə ilə qeyd etdiyimiz 50 illik yol tarix yaradan şəxsiyyət kimi nüfuz qazanan Ümummilli Liderin xidmətlərinin, Vətəninə, xalqına sevgisinin aydın mənzərəsini formalaşdırır.

### Azərbaycanın quruculuq salnaməsində ən parlaq səhifələr

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il 14 iyul plenumunda ulu öndər Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi seçilərək respublikanın rəhbəri olması ilə Sovet Azərbaycanının tarixində böyük dönüş dövrü başlandı. Həmin illərdə ölkəmiz iqtisadi və mədəni tənəzzül dövrünü yaşayırdı. Respublika iqtisadiyyatının bir çox sahələrində, sənayedə, kənd təsərrüfatında mənfi meyillər özünü göstərirdi. Azərbaycan o illərdə keçmiş İttifaqın ən geridə qalmış ölkəsinə çevrilmişdi. İqtisadi tənəzzül əhalinin sosial vəziyyətinə də öz mənfi təsirini göstərirdi. Qeyd etdiyimiz kimi, istehsalın, o cümlədən sənaye məhsulları istehsalının ümumi inkişaf səviyyəsinə, milli gəlirin həcminə, əmək məhsuldarlığının artım sürətinə görə Azərbaycan İttifaq səviyyəsindən geri qalırdı. Kənd təsərrüfatı xüsusilə ağır vəziyyətə düşmüşdü. Elmi-texniki tərəqqinin nailiyyətləri istehsalatda tətbiq olunmurdu. Ümumilikdə Azərbaycan iqtisadiyyatı dərin böhran mərhələsini yaşayırdı. Yaranmış vəziyyətdən çıxış yolu tapılmalı, köklü struktur islahatları həyata keçirilməli idi.



VÜQAR RƏHİMZADƏ,
*"İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist*

Məhz o zaman ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə seçilməsi ilə həyatın bütün sahələrində sürətli inkişaf, milli ruhun oyanışı, milli özünüdərk dövrü yaşandı. Bu fakt inkaredilməzdir ki, Azərbaycan tarixən neft ölkəsi kimi tanınıb və nüfuz qazanıb. Ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə seçilməsindən sonrakı dövrün xarakterik cəhətlərindən biri də bu oldu ki, gərgin səylərin, uğurlu addımların nəticəsində Azərbaycan haqqında nəinki keçmiş İttifaqda, hətta dünyanın bir çox ölkələrində fərqli yanaşma formalaşdı: respublikamız təkcə nefti deyil, öz qədim tarixi, zəngin mədəniyyəti, yüksək intellekti olan bir ölkə kimi tanındı. Ulu öndər Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratdı, gələcəyə aparan yolları müəyyən etdi. Məhz buna görə də Azərbaycan tarixinin 1969-cu ildən bəri yaşanan dövrü Heydər Əliyevin adı ilə sıx bağlıdır və tariximizə Heydər Əliyev dövrü kimi həkk olunub.

Ölkənin inkişafında iqtisadi amilə verilən önəm ulu öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövrü üçün xarakterik idi. Azərbaycanda o illərdə yüngül sənaye inkişaf etdirildi, yüzlərlə fabrik, zavod, kombinat tikildi, 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Ölkəmizdə istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac edilirdi.

1970-ci illərdə Azərbaycan əzəmətli tikinti meydanına çevrildi. Bakının və respublikamızın bütün bölgələrinin siması dəyişdi, mənzil tikintisi geniş vüsət aldı. Bu gün paytaxt Bakımıza, Azərbaycanın rayonlarına gözəllik, yaraşıq verən yüzlərlə yaşayış binaları, mehmanxanalar, ictimai binalar, məktəblər, mədəniyyət sarayları, iqtisadiyyatımızın əsasını təşkil edən fabriklər, zavodlar, nəhəng sənaye obyektləri, iri istehsal kompleksləri, su anbarları, dəryaçalar, Kür su kəməri, yaşıllıq zolaqları, istirahət ocaqları, neçə-neçə yollar Heydər Əliyev zəkasının, onun yorulmaz fəaliyyətinin nəticəsi idi. Azərbaycan keçmiş İttifaq respublikaları arasında öz infrastrukturuna görə digərlərini geridə qoydu. Davamlı addımlar nəticəsində Azərbaycan iqtisadiyyatı İttifaq asılılığından xilas oldu. Azərbaycanın 1969-cu ildən başlanan yolunu Heydər Əliyev siyasi kursunun layiqli davamçısı ölkə Prezidenti İlham Əliyev belə xarakterizə edir: "1969-cu ilə qədər Azərbaycan haqqında heç sovet məkanında o qədər də çox məlumat yox idi. 1970-80-ci illərin əvvəlləri Azərbaycanın intibah dövrü olmuşdur. Azərbaycan sürətlə inkişaf etdi və sovet məkanında qabaqcıl respublikalardan birinə çevrildi. Ondan sonra, 1983-1993-cü illərdə, Heydər Əliyevin Azərbaycanda olmadığı dövrdə yavaş-yavaş Azərbaycan yenə tənəzzülə uğradı və bu tənəzzül əslində təzəcə əldə edilmiş müstəqilliyin itirilməsi ilə nəticələnirdi. Biz deyəndə ki, Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur, tam həqiqəti deyirik. Çünki formal olaraq müstəqillik 1991-ci ildə əldə edilsə də, bu müstəqillik yarımçıq idi. Azərbaycanın gələcəyi sual altında idi. Azərbaycan müstəqil ölkə kimi yaşaya bilmirdi, müxtəlif təzyiqlərə məruz qalırdı və bu təzyiqə davam gətirə bilmirdi. Ölkəmizin müstəqilliyi əldən gedirdi. Azərbaycanın dövlət quruculuğu məhz 1993-cü ildən başlanmışdır. Heydər Əliyev Azərbaycana siyasi rəhbərliyə qayıtdıqdan sonra başlanmışdır və on il ərzində Azərbaycan yenə də postsovet məkanında ən geridə qalmış, ən problemli ölkədən ən qabaqcıl ölkəyə çevrilmişdir. Bu gün bu, tam həqiqətdir və bu gün Heydər Əliyev siyasəti davam edir".

Ulu Öndərin yorulmaz fəaliyyətinin nəticəsidir ki, 1969-1982-ci illər baş verən dəyişikliklərin miqyasına, ictimai və iqtisadi sahədəki dərin islahatların səviyyəsinə və xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçməsinə görə Azərbaycanın quruculuq salnaməsində ən parlaq səhifələri təşkil edir.

### Milli özünüdərkin, milli özünəqayıdışın başlanğıcı

1969-1982-ci illərin başlıca məzmunu azərbaycançılıqdır. Belə ki, bu amalın ən parlaq səhifələri də elə həmin illərdə yazılıb. Ulu öndər Heydər Əliyev o dövrdə mövcud olan ideologiyanın qəlibləri çərçivəsində Azərbaycanda milli ruhun sıxışdırılmasına nəinki yol verməmiş, əksinə, onu yüksəltmək yolunda bütün imkanlardan istifadə etməyə səy göstərmişdir. Bu baxımdan onun 14 iyul 1969-cu ildə respublika rəhbərliyinə gəlməsindən sonrakı dövr milli özünüdərkin, milli özünəqayıdışın başlanğıcı kimi qəbul edilir. Ümummilli Lider xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin güclənməsi, milli şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi istiqamətində ciddi addımlar atdı. Onun respublikaya rəhbərlik etməyə başladığı ilk günlərdən Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileylərinin müntəzəm surətdə qeyd olunması bir ənənə halını aldı. Bu isə öz növbəsində milli ruhun, milli özünüdərkin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qayıtması, müstəqil dövlətçilik ideyalarının gerçəkləşdirilməsi üçün zəmin yaratdı. Ulu öndər Heydər Əliyevin mədəniyyətimizə, tariximizə dərin ehtiram nümayiş etdirərək göstərdiyi qayğı sayəsində Bakının ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan böyük insanların əzəmətli heykəlləri ucaldıldı, böyük tarixi şəxsiyyətlərin hər biri üçün bir mədəniyyət mərkəzinə çevrilən ev-muzeyləri yaradıldı.

Totalitar sistemin elm və mədəniyyət xadimlərinə, ziyalılara qarşı ağır təzyiqləri, təqib və təhdidləri Sovet İttifaqının bir çox başqa respublikalarında özünü aşkar hiss etdirdiyi halda, Ümummilli Lider Azərbaycanda yaradıcı insanlar üçün sərbəst düşünmək və düşündüyünü tam ifadə edə bilmək imkanı yaratmışdı. Azərbaycan rəhbərliyinə seçildiyi ilk günlərdən Ulu Öndərin gələcəyə hesablanaraq milli dövlət quruculuğunun əsasını təşkil edən strateji proqramında Azərbaycan dilinə xüsusi diqqət yönəldildi. Azərbaycan dilinə həqiqi dövlət dili statusu qazandırmağa yönəlmiş fəaliyyətin bəhrəsidir ki, 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit olundu.

Təbii ki, bu addımlar səbəbsiz deyildi. Əbəs yerə deyilmir ki, bir millətin, xalqın dəyərlərinin, dilinin əlindən alınması onun məhvi deməkdir. "Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, milli mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik" söyləyən ulu öndər Heydər Əliyev bu çağırışı etmişdir ki, gələcəyimiz olan gənclər milli mənəvi dəyərlərimizi unutmamalı, tariximizi, ana dilimizi bilməli və qorumalıdır. Qeyd etdiyimiz kimi, keçmiş İttifaqda xalqımız nə qədər məhrumiyyətlərlə, çətinliklərlə üzləşsə belə, dininə, mənəvi dəyərlərinə sadiq qalmışdır. Dahi şəxsiyyətin Azərbaycanın gələcəyini düşünərək uzaqgörənliklə atdığı addımlar sırasında yer alan gənclərimizi keçmiş İttifaqın nüfuzlu ali məktəblərinə göndərmək təcrübəsinin əsasında da elm və kadr potensialının gücləndirilməsi ilə yanaşı, xalqımızın milli mənəvi, əxlaqi dəyərlərinin təbliği dayanırdı. Azərbaycan dilinin idarəçilikdə geniş tətbiqi, bütün böyük klassiklərin İttifaq miqyasında yubileylərinin keçirilməsi, Azərbaycan mədəniyyətinin Ümumittifaq miqyasında ön mövqelərə çıxması və sair kimi bir-birindən mühüm addımlar ulu öndər Heydər Əliyevin bu günümüz üçün hesablanmış konsepsiyasının əsas tərkib hissələri idi. Dahi şəxsiyyət bildirirdi ki, milli azadlığa nail olmaq üçün xüsusən bizim xalqımızda milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır.

Bu ümumiləşdirməni apara bilərik ki, Ümummilli Liderin formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada xüsusi yerini müəyyən etdi, milli dövlətçiliyimizin bünövrəsini təşkil edərək, dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın həmrəyliyi üçün möhkəm zəmin yaratdı. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın "Azərbaycanın taleyi Heydər Əliyevin taleyi ilə əbədi olaraq bağlandı" mövzusunda çıxışında söylədiyi "Tərəqqisi üçün çalışdığı, mədəniyyəti, keçmişi ilə fəxr etdiyi, nəsillərinin gələcəyi üçün düşündüyü Vətənin-Azərbaycanın taleyi onun adi insan taleyi ilə əbədi olaraq bağlandı. Hüseyn Cavidin nəşini uzaq soyuq Sibirdən vətəninə qaytaranda, dahi həmvətənlərinin xatirəsini əbədiləşdirmək üçün bir-birindən əhəmiyyətli tarixi- mədəni layihələri reallaşdıranda, yüzlərlə gənci keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə oxumağa göndərəndə, mənəvi irsimizin qorunması, təbliği ilə bağlı məsələləri daim diqqət mərkəzində saxlayanda o bizlərə "Bu Vətən sənin, mənim, hamımızındır" kəlmələrinin əsl mahiyyətini anladan həyat dərsi keçirdi" fikirlərinə istinad etsək, özünün də qeyd etdiyi kimi, "Azərbaycan və Heydər Əliyev qırılmaz tellərdir" fikrinin böyük məna kəsb etdiyini daha aydın görər, mahiyyətini daha dərindən dərk edərik.

O zamanın qanunları ilə idarə olunan bir cəmiyyətdə ölkə rəhbərinin sözün yaxşı mənasında millətpərəst bir insan olması onun həyatının nə qədər maneələrlə, daxili sarsıntılarla dolu olduğuna işıq salır. Dahi şəxsiyyət bu çətinlikləri, maneələri dəf edərək Azərbaycanın bugünkü reallıqları üçün möhkəm bazanı formalaşdırıb.

⇨ Davamı 11-ci səhifədə

# Müstəqilliyə doğru böyük dönüş və milli oyanışın başlanması

## DAHİ ŞƏXSİYYƏT HEYDƏR ƏLİYEVİN SİYASİ HAKİMİYYƏTƏ GƏLMƏSİNİN 50 İLİNİN İŞIĞINDA AZƏRBAYCAN HƏQİQƏTLƏRİ BİR DAHA DÜNYAYA ÇATDIRILIR

⇨ Əvvəli 10-cu səhifədə

### Həqiqətlərə real baxış, çatışmazlıqlara tənqidi yanaşma

Ulu öndər Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi seçildikdən sonra həmin illərin reallıqlarına diqqət yetirdikdə, artıq dövrün tələbinə uyğun şişirdilmiş rəqəmlərin, yalana əsaslanan fikirlərin əksinə olaraq baş verən hadisələrə daha obyektiv yanaşmanın, tənqidin şahidi oluruq. Ulu öndər Heydər Əliyev diqqəti uğurlardan çox respublikanın partiya və sovet orqanlarındakı ciddi çatışmazlıqlara yönəldirdi. Ümummilli Lider ölkədəki neqativ hallara münasibət bildirir, kadr siyasətindəki nöqsanları, iqtisadiyyatdakı çatışmazlıqları diqqətə çatdırır, bu halların aradan qaldırılması üçün zəruri proqramların icrasını təmin edirdi. Ümummilli lider Heydər Əliyevin bu tənqidi yanaşmaları, çatışmazlıqlara göz yummaması ölkə ictimaiyyətin-



də bu əminliyi yaradırdı ki, respublikanın yaşadığı problemlər qısa müddətdə öz həllini tapacaq, Azərbaycan daha da irəli gedəcək. Bu ümidlər qısa müddətdə özünü doğrultdu.

Ulu öndər Heydər Əliyevin Azərbaycan KP MK-nın Birinci katibi vəzifəsində çalışarkən "Literaturnaya qazeta"nın xüsusi müxbirinin "Biz şəhərlərdə və kəndlərdə zəhmətkeşlərlə söhbət etdikdə hər yerdə səmimiyyətlə deyirdilər ki, müvəffəqiyyətlər yaxşı idarəetmə və səriştəli rəhbərliklə bağlıdır. Respublika həyatının özünəməxsus xüsusiyyətlərini nəzərə alaraq bilmək istəyirik ki, yerlərdə bu cür işçilər necə tapıldı" sualına cavabını xatırlamaq istərdik: "Belə işçilər həmişə olmuşdur. Mən əvvəllər də demişəm ki, əgər adamların böyük əksəriyyətinin namuslu yaşayıb işlədiyinə inanmasaydıq və bunu dönə-dönə yəqin etməsəydik, heç bir dəyişikliyə nail ola bilməzdik. Amma di gəl ki, israfçılıq, səhlənkarlıq, gözdən pərdə asmaq üzündən çox vaxt onların əməyi zay olurdu. Prinsipial, namuslu kadrlar əksər hallarda irəli çəkilmirdilər, onlara qabiliyyətlərinə uyğun iş verilmirdi...Biz kadr hazırlığına xüsusi əhəmiyyət veririk".

Ulu Öndər həmin müsahibəsində dövrün çağırışlarından olan rüşvətxorluqla mübarizə məsələsinə də diqqət yönəltmişdir. Müxbirin "Məndə belə bir təəssürat oyandı ki, Sizdə rüşvətxorluq cinayətin hər hansı başqa növünə nisbətən daha çox nifrət oyadır... Nə üçün məhz rüşvət" sualına cavab olaraq bildirmişdir ki, ona görə ki, rüşvət universal cinayətdir. Bütün başqa eybəcərliklər onun ətrafında dolanır. Vətəndaşlıq fəallıq deməkdir, şərə qarşı mübarizə aparmaq bacarığı və arzusu deməkdir.

Ulu öndər Heydər Əliyevin rüşvətxorluğa qarşı mübarizə tədbirlərini gücləndirməsi, kommunizm ideologiyasına qarşı sərt mövqeyi və sair kimi zəruri addımları göstərdi ki, onun bütün səyləri gələcəyə, bu günümüzə hesablanıb.

### Kadr hazırlığı dövrün əsas tələbinə çevrilmişdi

1969-cu ildə hakimiyyətə gəldiyi ilk günlərdən ulu öndər Heydər Əliyev bütün sahələrdə yüksək ixtisaslı kadrların yetişdirilib hazırlanması məsələsinə böyük diqqət və qayğı göstərdi. Bu kadrların böyük əksəriyyətinin respublika daxilində hazırlanması məqsədilə məktəb tikintisi genişləndirildi, ali təhsil ocaqlarının sayı artırıldı, onların maddi-texniki bazası möhkəmləndirildi. Ümummilli Liderin təşəbbüsü və gərgin əməyi nəticəsində Cəmşid Naxçıvanski adına Hərbi məktəbin açılması Azərbaycanın həyatında çox mühüm bir hadisə oldu. İlk dəfə olaraq ölkədə hərbi kadrlar yetişdirilməyə başlandı. Bundan əlavə, azərbaycanlı gənclər keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərildi. Qısa zamanda bu gənclərin sayı 1000-ə çatdırıldı. Bu gün ölkənin bu və ya digər sahələrində çalışaraq davamlı inkişafa töhfələr verən insanların böyük əksəriyyəti bu imkandan bəhrələnən şəxslərdir.

1969-1982-ci illərdə Azərbaycanda ən qabaqcıl texnologiya istehsalı, elmin qabaqcıl nailiyyətlərinin istehsalata tətbiqi, alimlər ordusunun yetişməsi, mədəniyyətin çiçəklənməsi və sair nailiyyətlər göstərdi ki, ulu öndər Heydər Əliyev atdığı hər addımda Azərbaycanın müstəqil gələcəyini düşünmüşdür. Bir sözlə, daim xalqının gələcəyini düşünən böyük azərbaycanlı hakimiyyətinin birinci dövründə zamanı qabaqlayaraq XXI yüzilliyin Azərbaycanı üçün güclü kadr potensialı yaratmışdır.

### Müstəqilliyə gedən yolun başlanğıcı

Qeyd etdiyimiz kimi, ulu öndər Heydər Əliyev hələ 1969-1982-ci illərdə müstəqil yaşadığımız bu günləri görür, doğma Vətənini bu günlər üçün hazırlayırdı. Yeni, müstəqil Azərbaycanı hələ o illərdən qurmağa başlamışdı. Dahi şəxsiyyətin fəaliyyəti uzunmüddətli inkişafa hesablanmışdı. Onun o illərdə başladığı layihələr, təşəbbüsü ilə tikilən müəssisələr bu gün xalqımıza, dövlətimizə xidmət edir.



1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən ulu öndər Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. İlk dəfə idi ki, azərbaycanlı böyük dövlətdə yüksək vəzifəyə layiq görülmüşdü. O illərdə Azərbaycanda proseslər hələ də öz axarı ilə gedirdi.

Lakin 1980-ci illərin ortalarından Azərbaycanda işlər yavaş-yavaş tənəzzülə uğramağa başlamışdı.

Həmin illərdə hadisələrin gedişinə diqqət yetirək. Mixail Qorbaçovun erməni sevgisinin dərin köklərə malik olduğu inkaredilməz idi. O, Moskvada Mərkəzi Komitədə işləyərkən ermənilərlə əlaqəsini daha da möhkəmləndirdi. 1985-ci ildə Sov. İKP.MK.-nın Baş katibi M.Qorbaçov yenidənqurma, aşkarlıq, demokratiya pərdəsi altında keçmiş İttifaqı dağıtmağa başlayanda onun dəstəkçiləri ermənilər idi. M.Qorbaçovun xarici ölkələrə həyat yoldaşı Raisa ilə səfərləri, bu zaman ermənilərlə görüşlərə daha çox maraq göstərmələri, həmin görüşlərdə Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsinin daha çox müzakirə edilməsi həmin illərin xarakterik və diqqət çəkən məqamlarından idi. Bu fakt da inkaredilməzdir ki, İttifaqın "qardaşlıq ailəsinə" milli ayrı-seçkilik toxumunun səpilməsində Qorbaçov və onun məsləhətçiləri olan ermənilər xüsusi səylər göstərmişdilər.

Tarixə nəzər saldıqca növbəti proseslərin cərəyan etməsi üçün ssenarilərin planlı şəkildə aparıldığını aydın görmək mümkündür.

Kreml Ə.Vəzirovu Azərbaycan KP MK -nin birinci katibi vəzifəsinə göndərdi. Bütün bu ssenarilərin müəllifi Qorbaçov idi. Nəhayət, 1987-ci ilin oktyabr ayında Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verdi. Bundan sonra Azərbaycana təzyiqlər daha da artdı. 1988-ci ilin fevral ayından isə erməni separatçıları Dağlıq Qarabağın Azərbaycandan ayrılaraq Ermənistana birləşdirilməsi uğrunda açıq mübarizəyə başladılar. M.Qorbaçovun bu məsələdə ermənilərin tərəfini saxlaması Azərbaycanı ayağa qaldırdı. Respublikanın rəhbərləri, xüsusilə Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov, AXC-Müsavat hakimiyyəti xalqın səsinə səs vermədi, əksinə, bu məsələdə Moskvanın siyasətini dəstəklədilər.

Ümummilli Liderin 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasətə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa verməsindən sonra Azərbaycanın problemləri yenidən başladı. Bu hadisədən iki həftə sonra erməni lobbisi tərəfindən başlanmış kampaniya nəticəsində Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək ideyası ortaya atıldı. Bu ideya ətrafında Ermənistan və onun havadarları Azərbaycana qarşı işğalçılıq siyasətinə başladılar. Ermənilərin 1988-ci ildə baş qaldıran əsassız torpaq iddiaları nəticəsində bu gün 20 faiz torpaqlarımız işğal altında, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. 1988-ci ildə Sumqayıt, 1990-cı ildə isə 20 Yanvar hadisələri baş verdi. 1992-ci ildə XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımı törədildi.

Göründüyü kimi, ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətdə ol-



madığı dövrdə Azərbaycan xalqının başına nə qədər bəlalar gətirilmişdir. Dövlətimizin başçısı İlham Əliyev həmin dövrü belə xarakterizə edir: "O illərdə- 1987-1993-cü illər ərzində Azərbaycanın, demək olar ki, bütün yerlərində qeyri-sabit vəziyyət, özbaşınalıq, anarxiya, kütləvi itaətsizlik hökm sürürdü. O vaxt Azərbaycanda sabitlikdə fərqlənən yeganə yer Naxçıvan Muxtar Respublikası idi. O da ona görə idi ki, xalqın tələbi ilə Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının rəhbəri seçildi. Bir tərəfdən erməni qəsbkarlarına qarşı onun rəhbərliyi altında müqavimət göstərilirdi və Naxçıvana edilən ərazi iddialarına qarşı naxçıvanlılar Heydər Əliyevin rəhbərliyi altında çox qətiyyətli cavab verirdilər və işğalçıları yerində oturdurdular. Digər tərəfdən, o vaxt Azərbaycandakı rəhbərlik bütün vasitələrlə çalışırdı ki, Naxçıvanda Heydər Əliyevin mövqelərini sarsıtsın və onu orada rəhbərlikdən uzaqlaşdırsın".

Amma xalq həm Naxçıvanda, həm də bütövlükdə Azərbaycanda öz səsini qaldıraraq vəziyyətdən yeganə çıxış yolunu məhz ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıtmasında gördü və ona müraciətlər ünvanlanmağa başladı. Bu gün ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının yaranmasını zərurətə çevirən də məhz həmin dövrün reallıqları və xalqın istəyi oldu.

Əbəs yerə deyilmir ki, tarix təkrarlanır. 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra Azərbaycana səriştəsiz, idarəçilik qabiliyyəti olmayan şəxslərin rəhbərliyi ölkəmizi ağır problemlərlə, ən əsası müstəqilliyini itirmək, bir dövlət olaraq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qoymuşdu. Tarixin təkrarlanması ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə başladı. Bu gün böyük əminliklə və fəxrlə söylədiyimiz reallıqlarımızdan biri budur ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə qurulan və günbəgün möhkəmlənən iqtisadi əlaqələri, dünya iqtisadiyyatına inteqrasiya, kadr hazırlığı, idarəçilik sistemində təkmilləşmə və sair kimi mühüm uğurlarımız 1969-1982-ci illərdə təməli qoyulmuş potensiala əsaslanır. "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır" söyləyərək atdığı hər addımında həyatını özünə yox, xalqına həsr etdiyini təsdiqləyən ulu öndər Heydər Əliyevin hakimiyyətinin birinci dövründə ən böyük xidmətlərindən biri məhz 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olunarkən Azərbaycanın artıq müstəqil bir dövlət kimi yaşamağa tamamilə hazır olmasına yaratdığı möhkəm baza idi. XX əsrin əvvəllərində müstəqilliyinə qovuşan Azərbaycan xalqı bu sevinci obyektiv səbəblərdən cəmi 23 ay yaşasa da, millətimizin azad, müstəqil yaşamaq istəkləri sönmədi, daha da alovlandı. Baxmayaraq ki, müstəqilliyimizin ilk illəri tariximizə xaos, anarxiya, özbaşınalıq, iqtisadi tənəzzül dövrü kimi daxil olub, 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı 1969-1982-ci illərdə yaradılan möhkəm baza əsasında müasir müstəqil Azərbaycanın qurulmasına, davamlı inkişafına, ən yüksək zirvələri fəth etməsinə, iqtisadi möcüzələr, ən islahatçı ölkə kimi tanınmasına geniş imkanlar açdı.

Yazıda dahi şəxsiyyət Heydər Əliyevin keçmiş İttifaq dövründə Azərbaycan üçün gördüyü işlərin, taleyüklü məsələlərin yalnız az bir hissəsini sadaladıq. Azərbaycanın bu günü, gələcəyi üçün hesablanmış inkişaf konsepsiyasının reallaşması isə 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə Böyük Qayıdışı ilə mümkün oldu.

# Bakıda "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu keçirilir






İyulun 11-də Azərbaycan İlahiyyat İnstitutu, İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi və AMEA-nın akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun təşkilatçılığı ilə Bakıda "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu öz işinə başlayıb. Simpozium iştirakçıları Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, "Əbədi məşəl" abidəsi önünə əklil qoyublar.

AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə Azərbaycanın tarixi-dini abidələri haqqında fotosərgi ilə tanış olublar.

Simpoziumun açılış mərasimində Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciətini oxuyub. (Müraciətin mətni qəzetin bugünkü nömrəsində dərc olunur).

Tədbirdə açılış nitqi ilə çıxış edən AİI-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov İslamın Qafqaz xalqlarının həyatında tutduğu əhəmiyyətli mövqeyə, həmçinin qafqazlı alim və mütəfəkkirlərin İslam sivilizasiyasına bəxş etdikləri töhfələrə toxunub. O, İslama dərindən bələd olan ümummilli lider Heydər Əliyevin birbaşa təşəbbüsü ilə 1998-ci il dekabrın 9-11-də Bakıda "İslam Sivilizasiyası Qafqazda" I Beynəlxalq Simpoziumunun keçirildiyini nəzərə çatdırıb.

AİI-nin rektoru daha sonra qeyd edib ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dini dəyərlərə hörmət və qayğını, həmçinin dinlərarası tolerantlıq və multikultural ənənələrin təbliğinə əsaslanan bu nəcib siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir.

Ceyhun Məmmədov Azərbaycanın dünyada tolerantlıq və multikulturalizm ideyalarını təbliğ və tətbiq edən nümunəvi bir ölkə kimi tanındığını vurğulayıb. Bildirib ki, bu ideyaların təbliğində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xidmətləri xüsusi olaraq vurğulanmalıdır.

Azərbaycanda nümunəvi dövlət-din münasibətlərinin olduğunu bildirən Ceyhun Məmmədov ölkəmizdə çox sayda məscid, kilsə və sinaqoqun dövlət vəsaiti hesabına tikilib, həmçinin təmir edildiyini diqqətə çatdırıb: "Qafqazın ən böyük məscidi olan "Heydər Məscidi"nin inşa edilib inanclı insanların istifadəsinə verilməsi, din sahəsində peşəkar kadrların hazırlanması məqsədilə Azərbaycan İlahiyyat İnstitutunun yaradılması, dini-mənəvi sferaya dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədilə Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması bunun ən bariz nümunələrindəndir".

Ceyhun Məmmədov nitqində İslam sivilizasiyasının inkişafında qafqazlı, xüsusən də azərbaycanlı alimlərin özünəməxsus yerini vurğulayaraq, məşhur İslam alimləri haqqında bəhs edib.

On iki ölkədən alim və tədqiqatçıların iştirak etdiyi Simpoziumun Qafqazda İslam sivilizasiyasının tədqiqinə töhfə verəcəyini vurğulayan AİI-nin rektoru tədbirə uğurlar arzulayıb.

İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin Baş direktoru Halit Eren qloballaşma dövründə ksenofobiyanın mədəniyyətlər və dinlər arasında dialoqun inkişafına ciddi təhdid olduğunu vurğulayaraq bildirib ki, bu meyil dünyada sülhün və sabitliyin pozulmasında maraqlı olan radikal, terrorçu qüvvələr tərəfindən dəstəklənir. Bu təhdidin qarşısını almaq üçün tolerantlığın, dialoqun, əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi böyük əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycanın rolu xüsusi vurğulanmalıdır. Azərbaycan İslam dünyasının bir parçası olduğundan, onun mədəniyyətində ərəb, İslam ünsürləri daha gözə çarpandır. Ona görə də İslam sivilizasiyasının Qafqazda yayılması, ilk növbədə, Azərbaycanla bağlı olduğundan, belə bir tədbirin burada reallaşması çox məqsədəuyğundur.

Halit Eren "İslam sivilizasiyası Qafqazda" mövzusunda ikinci dəfə keçirilən Beynəlxalq Simpoziumun təşkilatçısı olmaqdan xüsusi qürur duyduğunu nəzərə çatdırıb.

Milli Məclisin deputatı, AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun keçirilməsini əlamətdar hadisə adlandırıb. Qeyd edib ki, İslam dini Azərbaycanda yayıldığı vaxtdan dərin kök salıb, insanların davranışına, düşüncəsinə, mənəviyyat və mədəniyyətinə müəyyənedici təsir göstərib.

Qafqazın nadir bölgə olduğunu vurğulayan Gövhər Baxşəliyeva bildirib ki, bu region öz təbiətinə, coğrafi mövqeyinə və qədim zamanlardan məskunlaşmış, minillərboyu yaşamış insanlarının xüsusiyyətinə görə xarakterizə oluna bilər. Prezident İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edildiyini xatırladan akademik Gövhər Baxşəliyeva dahi şairin irsinin öyrənilməsində İslam dinini bilməyin vacib olduğunu vurğulayıb. Simpoziumun mövzusunun aktual olduğunu deyən akademik burada dinlənilən məruzələrin və aparılacaq müzakirələrin İslam sivilizasiyasının tədqiqinə töhfə verəcəyinə əmin olduğunu söyləyib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İslam sivilizasiyasının Qafqaz xalqlarına bəxş etdiyi dəyərli töhfələri xüsusi vurğulayıb. Qeyd edib ki, Qafqaz xalqlarının, demək olar, əksəriyyəti İslam dininə ibadət edir. İslam Qafqaz xalqlarına səadət, xoşbəxtlik, inkişaf, islami dəyərlər bəxş edib. İslam dini-mənəvi dəyərləri Qafqaz xalqlarının həyatında mühüm rol oynayır.

Mübariz Qurbanlı bildirib ki, ötən əsrin 90-cı illərində Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi vaxtda respublikamızda insan hüquq və azadlıqlarının təmin edilməsində, xalqımızın milli-mənəvi dəyərlərinin, dinlərarası dialoqun və dini tolerantlıq ənənələrinin qorunub inkişaf etdirilməsində mühüm addımlar atılıb, dini etiqad azadlığı tam şəkildə təmin edilib. Ulu Öndərin dövlətçilik prinsiplərini uğurla davam etdirən Prezident İlham Əliyev sabitliyə və tolerantlığa əsaslanan dövlət-din münasibətlərinin möhkəmləndirilməsi üçün əvəzolunmaz xidmətlər göstərməkdədir. Bu gün Azərbaycan İslam mədəni irsinin qorunub saxlanmasında və dünyaya olduğu kimi çatdırılmasında önəmli məkanlardan biri kimi tanınır. Prezident İlham Əliyev tərəfindən 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi sülhə, dostluğa, qarşılıqlı hörmətə, birgəyaşayışa çağırış və töhfədir. Azərbaycan nümunəsində dünyaya göstərildi ki, müxtəlif dinlərin, millətlərin, etnik qrupların nümayəndələri bir ölkədə rahat şəkildə yaşaya bilər. Paytaxt Bakı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Beynəlxalq Humanitar Forum və digər bu kimi böyük beynəlxalq tədbirlərə ev sahibliyi edir.

Müasir dünyada irqçilik, ksenofobiya, islamofobiya təzahürlərinin getdikcə gücləndiyini deyən Mübariz Qurbanlı Azərbaycan dövlətinin çox məsuliyyətli missiyanı öz üzərinə götürərək, müsəlman ölkələri arasında həmrəyliyin bərqərar olması və dünyada İslam dəyərlərinin təbliği üçün ardıcıl iş apardığını bildirib. Xatırladıb ki, Azərbaycan Prezidentinin 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında Sərəncamı bütün müsəlman aləminə və dünyaya xoşməramlı mesaj oldu.

Komitə sədri İslam dininin təkcə Azərbaycanda və Qafqazda deyil, bütün dünyada sülhün və əmin-amanlığın təmin olunmasında, qardaşlıq, dostluq münasibətlərinin qurulmasında əvəzsiz rol oynayacağına əminliyini bildirib, bu dinin doğru mənbələrdən araşdırılmasının, öyrənilməsinin və olduğu kimi təbliğ olunmasının zəruriliyini qeyd edib və Simpoziumun məhz buna xidmət etdiyini vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Salman Musayev vurğulayıb ki, ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədədir. Bu gün ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması və təbliği, dini radikalizmə qarşı mübarizə istiqamətində aparılan işlər, əldə olunan uğurlar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Qafqaz Müsəlmanları İdarəsinin birgə əməkdaşlığı və fəaliyyəti nəticəsində mümkün olub. Salman Musayev dini konfessiyalara ulu öndər Heydər Əliyevin diqqət və qayğısından danışaraq bildirib ki, müstəqil Azərbaycanda tolerantlığın və dinlərarası dialoqun əsasları məhz Ümummilli Lider tərəfindən müəyyənləşdirilib. Hazırda bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. Bugünkü tədbir Heydər Əliyev ideyalarının davamı olaraq böyük önəm kəsb edir. Bu Simpozium ölkəmizin İslam tarixində və coğrafiyasında tutduğu önəmli məqama, İslamın Qafqaza, ətraf ərazilərə yayılmasında Azərbaycanın tarixi roluna verilən dəyərdir. Bu, həm də dövlətimizin İslam dəyərlərinə diqqət və qayğısının bariz nümunəsidir.

"29 Mayıs" Universiteti Himayəçilər Şurasının sədri, professor Tayyar Altıkulaç Azərbaycanda dini etiqad azadlığının təmin olunmasından, dövlətin dinə qayğısından məmnunluğunu ifadə edib. Bildirib ki, Azərbaycan tolerantlıq mühiti ilə nəinki Qafqaz regionunda, həm də dünyada seçilir. Azərbaycanda insanların milli-mənəvi dəyərlərə bağlılığı, dövlət-din münasibətlərinin yüksək səviyyədə qurulması təqdirəlayiqdir.

"İzmir Katip Çelebi" Universitetinin rektoru, professor Saffet Köse qeyd edib ki, sovet dövründə Azərbaycanda ateizm dərsləri keçirilsə də, xalq öz dini inancını qoruyub və müstəqilliyinə qovuşduqdan sonra islami dəyərlərin təbliğini bərpa edib. Azərbaycanda din təhsili sahəsində mühüm addımlar atılıb. Azərbaycan İlahiyyat İnstitutunun yaradılması nəinki bu ölkə, bütövlükdə Qafqaz üçün çox önəmlidir. Azərbaycan tolerant ölkədir. Bu da onu Qafqazda multikultural dəyərlərin qorunduğu mərkəzə çevirir.

Rusiyanın Moskva İslam İnstitutunun rektoru, professor Damir Muxetdinov Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin və Rusiya Müftilər Şurasının sədri, Rusiya Federasiyası Prezidenti yanında Dini Birliklərlə Qarşılıqlı Fəaliyyət Şurasının üzvü müfti şeyx Ravil Qaynutdinin Simpozium iştirakçılarına ünvanlanmış məktubunu oxuyub.

Çıxış edənlər II Beynəlxalq Simpoziumun Qafqazda İslam sivilizasiyasının yayılması tarixinin elmi şəkildə öyrənilməsi və bu tarixin aktual problemlərinin obyektiv araşdırılması istiqamətində xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə çatdırıblar.

Qonaqlar, həmçinin Simpoziumun keçirilməsini aktual hesab edib, təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

Tədbirdə Azərbaycan İlahiyyat İnstitutunun tanıtım çarxı nümayiş etdirilib. Beynəlxalq Simpoziumun iştirakçıları xatirə şəkli çəkdiriblər.

Simpozium öz işini panellərlə davam etdirib. Panellərdə Türkiyə, Rusiya, Gürcüstan, İran, Ukrayna, Qazaxıstan, Özbəkistan, Moldova, ABŞ, ?Avstraliya, Misir, Səudiyyə Ərəbistanı və Qafqazda İslam sivilizasiyası mövzusu üzrə fəaliyyət göstərən alim, tədqiqatçı və ekspertlər çıxış ediblər.

İki gün davam edəcək Simpozium "İslam mədəniyyətinin Qafqazda dini və ictimai-mədəni həyata təsiri", "Qafqazda İslam elmlərinin inkişafı", "Qafqazda İslam memarlığı, incəsənəti və ədəbiyyatı", "Azərbaycanda tolerantlıq və multikultural ənənələrin möhkəmləndirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolu", "Qafqazda İslamın yayılması", "Qafqazda multikulturalizm", "İslam sivilizasiyası Qafqazda" araşdırma və təlim sahəsi kimi: metodoloji məsələlər, tarixi mənbələr, sənədlər və artefaktlar, mövzu üzrə akademik əməkdaşlıq", "Qafqazda din təhsilində məscid, mədrəsə və xanəgahların rolu", "Çar Rusiyasının Qafqazda İslam siyasəti", "Qafqaz alimlərinin İslam dünyasında dəqiq, təbiət və humanitar elmlərin inkişafında rolu" adlı panelləri əhatə edir.

Konfransın materialları kitab şəklində çap olunacaq.

# “Yay məktəbi”nin iştirakçıları Milli Məclisin deputatları ilə görüşüblər





**Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin təşkil etdiyi “Yay məktəbi” layihəsi öz işini uğurla davam etdirir. Hər il olduğu kimi, bu il də “Yay məktəbi” ölkəmizin gözəl guşələrində olan Lerik rayonundakı “Relax” istirahət mərkəzində təşkil olunub.**



İstirahət mərkəzində beş gün müddətində YAP-ın gənc fəallarına Milli Məclisin bir neçə deputatının iştirakı ilə müxtəlif mövzularda seminarlar keçirilir, fikir mübadiləsi aparılır. Ötən gün keçirilən seminarda Milli Məclisin deputatları Hadi Rəcəbli, İqbal Məmmədov və Pərvin Kərimzadə iştirak edirdilər.

Tədbirdə çıxış edən Milli Məclisin komitə sədri, YAP Siyasi Şuranın üzvü Hadi Rəcəbli layihənin əhəmiyyətindən, gənclərin bilik və bacarıqlarının artırılmasından geniş bəhs etdi. Bildirdi ki, YAP rəhbərliyi gənclərin siyasi fəallığının artırılması, asudə vaxtlarının səmərəli təşkili, beynəlxalq əlaqələrin genişlənməsi, ümumiyyətlə, ayrı-ayrı sahələr üzrə müxtəlif layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetirir. Bu layihələr sırasında 2007-ci ildən başlayaraq hər il keçirilən yay və qış liderlik məktəblərini xüsusi qeyd etmək lazımdır. Bu layihələrin əsas məqsədi Azərbaycan ərazisində yaşayan bütün gənclərin bir-birini daha yaxından tanımasını, onların arasında səmimi münasibətlərin yaradılmasını, həyatın bütün sahələrində dinamik inkişaf haqqında onlara dolğun məlumatların çatdırılmasını, tanınmış siyasətçilərlə görüşlərin təşkil edilməsini, gələcəkdə müxtəlif sahələrdə çalışacaq bu gənclərdə liderlik kimi mühüm xüsusiyyətlərin formalaşdırılmasını təmin etməkdir.

H.Rəcəbli qeyd etdi ki, gənclərimiz onlar üçün yaradılan bu şəraitdən səmərəli istifadə etməli, günbəgün qüdrətlənən, güclənən Azərbaycana öz töhfələrini verməlidirlər: “Bunun üçün gənclər elmin sirlərinə dərindən yiyələnməli, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməli, ən əsası Azərbaycan reallıqlarının təbliğində fəal olmalıdırlar. Azərbaycan gəncləri böyük qüvvədir. Birgə səylər qarşıya qoyulan hər bir məqsədə çatmağa stimul verir”.

Milli Məclisin deputatı İqbal Məmmədov YAP-ın yaradıcısı, müasir Azərbaycanın qurucusu, dahi şəxsiyyət Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərindən, gələcəyə hesablanmış inkişaf strategiyasından geniş bəhs etdi. Bildirdi ki, ulu öndər Heydər Əliyevin ideyaları Azərbaycanın dünəninin, bu gününün və sabahının əsasıdır: “Gənclərə diqqət və qayğı ulu öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövründə fəaliyyətinin əsas istiqaməti olub. Hələ hakimiyyətinin birinci dövründə Azərbaycanın müstəqil gələcəyini düşünən ümummilli lider Heydər Əliyev gənclərin keçmiş İttifaqın nüfuzlu ali məktəblərində təhsil almasının təşəbbüskarı olub. 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonrakı dövrdə də gənclərə diqqət və qayğı dövlət siyasətinin əsas tərkib hissəsinə çevrilib”.







Milli Məclisin deputatı bildirdi ki, dövlətin gənclər siyasətinin formalaşmasında Ulu Öndərin təşəbbüsü və iştirakı ilə keçirilən ölkə Gənclərinin I Forumunun rolu inkaredilməzdir: “1996-cı il fevralın 2-də keçirilən bu Forum Heydər Əliyevin gəncliklə bağlı strategiyasının ilk təntənəsi kimi dəyərləndirildi. 1997-ci ildə ümummilli lider Heydər Əliyevin Sərəncamı əsasında I Forumun keçirildiyi tarix - 2 fevral Azərbaycanda Gənclər Günü kimi elan edildi. Bu addım bir daha təsdiqlədi ki, gənclər siyasəti dövlətin siyasətində əsas yer tutur. Sonrakı illərdə keçirilən gənclər forumları bir daha Azərbaycan gənclərinin fəallığının ildən-ilə necə artdığını nümayiş etdirir. Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev gənclərin böyük qüvvə olduğunu, Azərbaycanın gələcəyinin onlara məxsusluğunu, eyni zamanda müasir dövrün informasiya-kommunikasiya texnologiyaları əsri olduğunu önə çəkərək, yüksək ixtisaslı gənclərin yetişdirilməsini qarşıya mühüm vəzifə kimi qoyur”.

Tədbirdə iştirak edən Milli Məclisin xanım deputatı Pərvin Kərimzadə gənclər qarşısında çıxışı zamanı bildirdi ki, gənclər bu diqqət və qayğıdan bəhrələnərək, öz potensiallarını ortaya qoymalı, Azərbaycanın daha da qüdrətlənməsinə, möhkəmlənməsinə töhfələrini verməlidirlər: “Ulu Öndərin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın indiki və gələcək inkişaf strategiyasının əsasını təşkil edir. Bizim vəzifəmizə düşən isə partiya fəalı olaraq Prezident İlham Əliyevin ətrafında sıx birləşmək, hər zaman Heydər Əliyev ideyalarına dəstək olmaqdır”.

Daha sonra diskussiya şəklində davam edən seminarda gəncləri maraqlandıran suallar cavablandırıldı. Gənclər arasında müxtəlif idman yarışları (futbol, üzgüçülük, stolüstü tennis) keçirildi. Günə interaktiv, intellektual, praktik oyunlarla yekun vuruldu.

**Taleh Bağırov,**
***“İki sahil”***

## OĞUZDA YAY MƏKTƏBİNİN İŞTİRAKÇILARINA EKOLOGİYA TƏLİMİ KEÇİRİLİB





Oğuzda Yeni Azərbaycan Partiyasının “Gənclər liderlər üçün yay məktəbləri” layihəsi öz işini uğurla davam etdirir.

Yay məktəbinin növbəti günü gənclər Oğuz rayonunun Xalxal kəndinə səfər ediblər. Burada piknik təşkil edən iştirakçılara ekologiya haqqında təlim keçirilib. Sonra həmin ərazidə iməcilik təşkil olunub.

Daha sonra isə “Afra” otelinə qayıdan gənclər arasında “Xəmsə” yarışması keçirilib.

Onu da qeyd edək ki, bu layihə çərçivəsində ilk dəfə yay məktəbinin iştirakçıları olan Oğuz və Lerik qrupları canlı yayıma çıxıblar. Gənclər bir-birilərinə hazırladıqları fləşmobu təqdim ediblər.

Sonda isə əyləncəli şou-proqram təşkil olunub.

# XİN: Azərbaycan Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi məsələsini hər zaman diqqət mərkəzində saxlayır



Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin mətbuat xidməti soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyevin Ermənistan tərəfindən girov götürülməsinin beşinci ildönümü ilə bağlı açıqlama yayıb.

Bu barədə AZƏRTAC-a XİN-in mətbuat xidmətindən məlumat verilib.

Açıqlamada deyilir: Bu gün azərbaycanlı mülki şəxslər Dilqəm Əsgərov və Şahbaz Quliyevin Ermənistan tərəfindən girovluqda saxlanılmasının beş ili tamam olur.

D.Əsgərov və Ş.Quliyev ölkəmizin Ermənistan tərəfindən işğal edilmiş Kəlbəcər rayonunda valideynlərinin məzarlarını ziyarət edərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülüb, onların yanında olan Həsən Həsənov isə qətlə yetirilib. Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış oyuncaq separatçı rejim tərəfindən uydurma iddialar əsasında mülki şəxslərimiz üzərində quruma "məhkəmə" təşkil edilərək, D.Əsgərov "ömürlük", Ş.Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilib.

Bu iki azərbaycanlı mülki şəxsin Ermənistan girovluğunda keçən hər günü işgəncə altında keçən növbəti bir gündür. D.Əsgərov və Ş.Quliyevin girov götürülməsindən əvvəlki və sonrakı görüntüləri onların girovluqda saxlandıqları müddətdə qeyri-insani rəftara, fiziki və mənəvi işgəncələrə məruz qaldığını açıq şəkildə sübut edir.

Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzü nəticəsində ölkəmizin Dağlıq Qarabağ və ətraf yeddi rayonu işğal olunub. İşğal edilmiş ərazilərdə etnik təmizləmə nəticəsində bir milyondan çox azərbaycanlı, o cümlədən D.Əsgərov və Ş.Quliyevin də ailə üzvləri öz doğma yurd-yuvalarından, mülklərindən didərgin salınıb.

Beynəlxalq hüququn imperativ norma və prinsiplərinə görə güc tətbiqi və ya güc təhdidi vasitəsilə ərazilərin əldə edilməsi heç bir halda qanuni hesab oluna bilməz. Bu prinsip Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874, 884 saylı qətnamələrində bir daha təsdiq olunur. BMT Təhlükəsizlik Şurasının qətnamələrində işğalçı qüvvələrin Azərbaycanın bütün işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunur, həmçinin münaqişənin həllinin beynəlxalq humanitar hüquqi əsasları müəyyən olunaraq, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması hüququ təsbit olunur.

Beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Nizamnaməsinə zidd olaraq Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzkar siyasətinin başladığı vaxtdan bu günədək münaqişə nəticəsində 3888 Azərbaycan vətəndaşı itkin düşüb, onlardan 718-i mülki şəxslərdir, o cümlədən 266 qadın, 71 uşaq və 326 yaşlı şəxs itkin düşmüş mülki vətəndaşlarımız sırasındadır.

Ermənistan mülki şəxslərin girov götürülməsini qadağan edən və hərbi münaqişələr zamanı mülki şəxslərə münasibətdə humanist davranış tələb edən 1949-cu il Cenevrə konvensiyaları və onların Əlavə protokollarının müddəalarına zidd olaraq, beynəlxalq səviyyədə üzərinə götürdüyü öhdəlikləri kobud şəkildə pozmaqda davam edir və Azərbaycan tərəfinin humanitar hüquq normalarına əməl olunmasına və hər iki tərəfdə saxlanılmış mülki şəxslərin "hamının hamıya" prinsipi əsasında tez bir zamanda qarşılıqlı surətdə azad edilməsinə dair çağırışlarına məhəl qoymur.

Ermənistan tərəfindən qeyri-insani davranış nümayiş etdirilərək beş il ərzində ağır şərtlər altında D.Əsgərov və Ş.Quliyevin girovluqda saxlanılması və digər bu xüsusda olan əməlləri münaqişənin danışıqlar yolu ilə həllinə ciddi zərbə vurur və gərginliyin daha da artmasına xidmət edir. Əgər Ermənistan tərəfi, dəfələrlə bəyan etdiyi kimi, "münaqişənin yalnız sülh yolu ilə həlli üçün müvafiq şəraitin yaradılmasına" həqiqətən də nail olmaq istəyirsə, o zaman qanunsuz şəkildə girovluqda saxladığı Azərbaycanın mülki şəxslərinin azad olunması istiqamətində addımlar atmalıdır.

Xatırladırıq ki, Avropa İnsan Hüquqları Məhkəməsi "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə işğalçı tərəf kimi Ermənistanın məsuliyyətini müəyyən etməklə yanaşı, azərbaycanlı məcburi köçkünlərin öz evlərinə və ya daimi yaşayış yerlərinə qayıtmaq hüququnu bir daha təsdiq edib, mülk və əmlakın qaytarılması ilə əlaqədar hüquqi və texniki məsələlərlə bağlı beynəlxalq humanitar hüquq və insan hüquqlarının müvafiq standart və prinsiplərinin şamil edilməli olduğunu təsbit edib. Məhkəmənin qərarının 195-ci paraqrafında göstərildiyi kimi, hazırkı şəraitdə azərbaycanlıların öz evlərinə qayıtmasına başlıca əngəl Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdə davam edən mövcudluğu və atəşkəsin pozulmasıdır.

Girovluqda olan soydaşlarımızın tezliklə azad edilməsi və ailə üzvlərinə qovuşması üçün ali humanizm prinsiplərini rəhbər tutaraq bütün beynəlxalq ictimaiyyəti, xüsusilə ATƏT-in Minsk qrupunun həmsədr ölkələrini, aidiyyəti beynəlxalq təşkilatları və qeyri-hökumət təşkilatlarını Ermənistana ciddi təsir və təzyiq göstərməyə çağırırıq.

Azərbaycan D.Əsgərov və Ş.Quliyevin azad edilməsi məsələsini hər zaman diqqət mərkəzində saxlayır və mülki şəxslərimizin azad olunması üçün zəruri tədbirlər bundan sonra da davam etdiriləcək".

# *Tağı Əhmədov:* Ulu öndər Heydər Əliyev tarixin yaratdığı şəxsiyyət idi və Özü də tarix yaradırdı




**Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov İkisahil.TV-yə açıqlamasında bildirdi ki, ulu öndər Heydər Əliyev müdrikliyindən, taleyin ona qismət etdiyi bilik və qabiliyyətindən öz şəxsi məqsədləri üçün deyil, millət və xalqı yolunda istifadə etmişdir.**

Bu səbəbdəndir ki, Heydər Əliyevin tərcümeyi-halı Azərbaycanın tarixi ilə o qədər qaynayıb-qarışmışdır ki, onları bir-birindən ayırmaq mümkün deyildir. Bu bir həqiqətdir ki, biz Heydər Əliyev haqqında danışarkən Azərbaycandan, Azərbaycan barədə danışanda Heydər Əliyevin fəaliyyətindən söhbət açmış oluruq. Bu gün yaxın tariximizə diqqətlə nəzər yetirdikdə bugünkü inkişafımız, sabitlik və xoş güzəranımız üçün kimə borclu olduğumuzu yaxşı anlayırıq. Belə şəxsiyyətin siyasət meydanına çıxması böyük tarixi hadisə kimi daim yaddaşlarda yaşayır. 1969-cu il iyulun 14-ü ən yeni tariximizin məhz belə şərəfli, müqəddəs səhifələrindəndir. Müasir Azərbaycan tarixində yeni eranın başlanğıcı sayılan həmin gün böyük dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyevin respublikamıza rəhbərlik etməyə başlaması kimi son dərəcə qiymətli bir hadisə ilə əbədiləşib. Həmin dövrdə Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəni durumu heç də ürəkaçan deyildi.

T.Əhmədov qeyd etdi ki, ulu öndər Heydər Əliyevlə Azərbaycan birlikdə olanda daim inkişaf və tərəqqi baş verib. Ulu Öndər Heydər Əliyevin şah əsəri olan müasir Azərbaycanımızın öz müstəqilliyini bərpa etməsindən keçən tarixdən geriyə baxanda uğurlu daxili və xarici siyasət yürüdən ölkəmizin qazandığı möhtəşəm nailiyyətlər və beynəlxaq aləmdəki mövqeyi aydın görünür. Az vaxt ərzində ictimai, siyasi və iqtisadi həyatın bütün sahələrində əldə olunan müvəffəqiyyətlər bütün dünyanı heyran qoymuşdur. Hazırda Azərbaycanın hər yerində gedən möhtəşəm quruculuq işləri, mədəniyyət, idman və digər sahələrdəki tərəqqi hər bir azərbaycanlını qürurlandırır, ölkəmizə gələn çoxsaylı qonaqları heyrətə salır. Bütün bunlar isə ulu öndərimiz Heydər Əliyevin həm daxili, həm də xarici siyasətdəki səriştəsi, yüksək idarəetmə bacarığı, bənzərsiz nitq qabiliyyəti, geniş biliyə sahib olması və analitik düşüncə tərzinin nəticəsində mümkün olmuşdur.

Tağı Əhmədov ümummilli lider Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası sıralarında yüz minlərlə ölkə vətəndaşının birləşdiyini diqqətə çatdıraraq qeyd etdi ki, partiyanın sıralarında yüksək intellektə, böyük vətənpərvərlik duyğularına malik insanlar birləşir. Bu insanların yüksək fədakarlığı, YAP-a yaxından bağlılığı, partiyanın ideyalarına, onun yaradıcısına olan sədaqəti partiyanın Sədri, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə sədaqətin bariz nümunəsidir.

Tağı Əhmədov qeyd etdi ki, böyük şəxsiyyət barədə fikirlərimizi bölüşərkən, bir daha hiss edirik ki, dahi öndər Heydər Əliyev haqqında nə qədər ibrətamiz fikirlər deyilsə də, yenə də nəyi isə deməyiblər. Bax, bu hiss, bu fikir neçə illərdir ki, yaranır və bunun özü Heydər Əliyev şəxsiyyətinin əlçatmaz bir zirvə olduğunu göstərir. Azərbaycan bəşəriyyətə verdiyi tarixi şəxsiyyətləri ilə daim öyünüb, fəxr edib. Biz fəxr edirik ki, Heydər Əliyev kimi dahi, müdrik, əbədiyaşar, ümummilli liderimiz var. Ulu öndər Heydər Əliyev tarixin yaratdığı şəxsiyyət idi və Özü də tarix yaradırdı. Ümummilli Lider istər keçmiş sovetlər dönəmində, istərsə də 1993-cü ildən sonra ölkənin iqtisadi və sosial inkişafı istiqamətində mühüm addımlar atmış, Azərbaycanın ən yüksək zirvələri fəth etməsinə böyük zəmin yaratmışdır. Xalqın arzu və tələbi ilə ikinci dəfə dövlət rəhbərliyinə qayıtdıqdan sonra Ulu Öndərimiz belə vəziyyətdə balanslaşdırılmış xarici siyasət kursunu tutaraq dövlət idarəçiliyi sahəsində qazandığı zəngin təcrübə ilə fitri istedadını birləşdirdi. Ölkədə iqtisadi, siyasi, hüquqi islahatlar aparıldı. Milli ordu quruculuğu sahəsində irəliyə doğru mühüm addımlar atıldı, zabit kadrlarının hazırlanması üçün müasir tələblərə cavab verən hərbi məktəblər formalaşdırıldı, ordunun gücləndirilməsi diqqət mərkəzinə gətirildi. Azərbaycan informasiya blokadasından çıxarıldı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, problemin ədalətli həlli ilə bağlı beynəlxalq qurum və təşkilatlarda səmərəli fəaliyyətin təməli qoyuldu. Azərbaycan Avropanın enerji daşıyıcıları ilə təminatında etibarlı tərəfdaşa, Cənubi Qafqazda söz sahibi sayılan dövlətə çevrildi.

Bu gün Azərbaycan ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi düzgün yolla uğurla irəliləyərək ən yüksək zirvələri fəth edir, mühüm uğurları ilə dünyanın diqqətindədir. Bu uğurlar ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində daha da artmaqdadır.

Tağı Əhmədov xüsusi vurğuladı ki, Azərbaycan xalqının qəlbində Ümummilli Lider zirvəsinə ucalan dövlət xadimi, dünya miqyaslı siyasətçi Heydər Əliyev əbədiyaşarlıq qazanmışdır. Vətənini sevən hər bir Azərbaycan övladı özünün Ümummilli Lideri ilə fəxr edir. Bu gün dahi şəxsiyyət Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, xalqımızın taleyində, mənəvi, siyasi və ictimai həyatında ümumxalq məhəbbətini qazanan Ulu Öndər, mütəfəkkir olaraq qalmışdır. Xalqımızın indiki və sonrakı nəsilləri Onu həmişə sonsuz hörmət və məhəbbətlə yad edəcəkdir.

Tağı Əhmədov bildirdi ki, ümummilli lider Heydər Əliyevin diqqət yetirdiyi əsas məsələlərdən biri də neft gəlirlərindən düzgün istifadə etməkdən ibarət olmuşdur. "Neft təkcə indiki deyil, həm də gələcək nəsillərə məxsusdur" deyən dahi öndər iqtisadiyyatın birqütblü inkişafının yolverilməzliyini daim vurğulamaqla yanaşı, istehsal sahibkarlığının geniş vüsət almasına, fəaliyyətini dayandırmış bir sıra iri müəssisələrin işə salınmasına, bir sözlə, qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirmişdir. Ulu Öndərin gərgin səyləri ilə Azərbaycanda torpaq islahatları bir sıra MDB dövlətlərindən fərqli olaraq tamamilə rəvan şəkildə həyata keçirilmiş, kəndlinin mənafeyinə cavab vermişdir.

Tağı Əhmədov xüsusi olaraq vurğuladı ki, bu gün Yeni Azərbaycan Partiyası ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə mühüm nailiyyətlər qazanır. Əldə olunan nailiyyətlərin əsasında ulu öndər Heydər Əliyevin siyasi irsinə sadiqlik, xalqa sədaqətli xidmət və praqmatik düşüncə tərzi dayanır.

✍ Şəmsiyyə Əliqızı,
*"İki sahil"*

# “Yay məktəbi” layihəsi gənclər tərəfindən böyük maraqla qarşılanır



**Milli Məclisin komitə sədri Hadi Rəcəbli:** “Hər il təşkil olunan “Yay məktəbi” layihəsi gənclər tərəfindən böyük maraqla qarşılanır. Mən tez-tez belə seminarlarda oluram və hər il gənclərin daha da inkişaf etdiyini müşahidə edirəm. YAP-ın üzvlərinin 40 faizə qədəri gənclərdən ibarətdir. Heç şübhəsiz ki, gənclərin partiyamıza axınının sürətlənməsində Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu gənclər siyasəti xüsusi əhəmiyyət kəsb edir. Nəticə etibarilə ümummilli lider Heydər Əliyevin ideyaları əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyasının milli maraqlara əsaslanan siyasət kursu, gənclərə xüsusi diqqət və qayğı göstərməsi və digər məqamlar gənclərin partiyamıza üz tutmasını şərtləndirir. Yeni Azərbaycan Partiyasının, o cümlədən Gənclər Birliyinin özündə yüksək intellektual potensiala malik gəncləri birləşdirməsi ilə yanaşı, partiya strukturlarında gender bərabərliyinin təmin olunduğu da müşahidə edilir. Yüksək intellektual səviyyəyə sahib olan gənc xanımlar partiyamıza üz tutur, bir sıra hallarda onlara yüksək etimad göstərilməsinin nəticəsi olaraq idarəetmə strukturlarında təmsil olunurlar”.



**Milli Məclisin deputatı İqbal Məmmədov:** “Azərbaycanda gəncliyin inkişafı ilə bağlı Dövlət proqramları uğurla həyata keçirilir. Bu proqramlar Azərbaycanda gəncliyin inkişafına böyük töhfələr verir. Məqsəd gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını təmin etməkdir. Hesab edirəm ki, gənclər öz fəaliyyəti ilə dövlətin onlara göstərdiyi etimadı doğrultmalıdırlar. Sevindirici haldır ki, bugünkü gənclikdə bu etimad görünür”.



**Milli Məclisin deputatı Pərvin Kərimzadə:** “Yeni Azərbaycan Partiyası gənclərin siyasi fəallığının artırılmasına, asudə vaxtlarının səmərəli təşkilinə, ümumiyyətlə ayrı-ayrı layihələrin həyata keçirilməsinə xüsusi diqqət ayırır. Gəncləri Azərbaycanın gələcəyi kimi dəyərləndirən ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən YAP Sədri, Prezident İlham Əliyev bildirib ki, müasirləşmə, yeniləşmə dövlət siyasətinin düzgün qurulmasında, eyni zamanda, gənclərin fəaliyyətindən də asılıdır”.



**YAP-ın gənc fəalı Fərəh Məcidzadə:** “Artıq bir neçə gündür ki, YAP-ın gəncləri “Relax” istirahət mərkəzində həm istirahət edir, həm də respublikanın müxtəlif rayonlarından olan partiyanın fəalları ilə ünsiyyət qurur, seminarlarda müxtəlif mövzularda müzakirələr aparırlar. “Yay məktəbi” gənclərin bilik və bacarıqlarının artırılması baxımından çox effektiv bir layihədir. Biz burada müxtəlif mövzularda fikir mübadiləsi aparır, təkliflər verir və suallarımıza cavab tapırıq”.



**YAP-ın gənc fəalı Lamiyə Hacızadə:** “Yay məktəbi”ndə YAP Səbail rayon təşkilatının fəalı kimi iştirak edirəm. Biz bu dilbər guşədə həm istirahət edir, həm də digər iştirakçılarla ünisiyyət yaradırıq. Milli Məclisin deputatları seminarlarda iştirak edir, suallarımızı cavablandırır, təkliflərimizi dinləyirlər. Biz gənclər təbii, ki onlardan çox şey öyrənir, siyasi və intelekt səviyyəmizi artırırıq”.



**YAP-ın gənc fəalı Aliyə Orucova:** “Yay məktəbi” gənclərin maarifləmənməsi və siyasi biliklərinin artırılması baxımından vacibdir. Gənclər bir sıra əhəmiyyətli mövzulara toxunaraq ciddi fikir mübadiləsi aparırlar. Bu müzakirələrdə Milli Məclisin deputatları, YAP-ın rayon təşkilatlarının ən fəal üzvləri və digər qonaqlar iştirak edirlər. Eyni zamanda, asudə vaxtlarının səmərəli keçirilməsi məqsədi ilə müxtəlif intellektual oyunlar və idman yarışları keçirilir. Gənclərə belə bir şərait yaratdığı üçün Yeni Azərbaycan Partiyasının rəhbərliyinə təşəkkürümüzü bildiririk”.



**YAP Yasamal rayon təşkilatı Gənclər Birliyinin sədr müavini Səlim Rəhimzadə:** “Azərbaycanda gənclər siyasəti həmişə dövlət siyasətinin əsas tərkib hissəsi kimi xüsusi yer tutub. Azərbaycan gəncliyi dövlətin diqqət və qayğısını hər zaman öz üzərində hiss edib. Məhz həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər yetişir. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayır, dövlət idarəçiliyində irəli çəkilirlər. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatının aktiv fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb”.

**YAP-ın gənc fəalı Ramiz Yusubov:** “Bir neçə il öncə “Yay məktəbi” layihəsində iştirak etmişəm. Hər il gənclərin



daha fəal və istəkli olduğunu müşahidə edirəm. Sevindirici haldır ki, burada olan fəallar uzun müddət bir-biri ilə əlaqə saxlayır, sosial şəbəkələrdə aktivlik nümayiş etdirir, partiya və dövlətin maraqlarına uyğun çıxışlar edirlər”.



**YAP-ın gənc fəalı Leyla Quluzadə:** “Bu tədbirlər çox yüksək səviyyədə təşkil olunur, gənclər hər zamankından daha fəaldırlar. Burada olmaq gənclərdə əlavə stimul və həvəs yaradır. Onlar həm əylənir, həm də bilik və bacarıqlarını artırırlar”.



**YAP-ın gənc fəalı Namiq Muradov:** “Burada gənclər öz inkişaf səviyyələrini artırmaqla yanaşı, qalıcı dostluq əlaqələri yaradır, Yeni Azərbaycan Partiyasının ətrafında sıx birləşir, partiyamızın uğurlu siyasətinə dəstək nümayiş etdirirlər.”



**YAP Səbail rayon təşkilatı Gənclər Birliyinin sədr müavini Fuad Heydərli:** “Burada millət vəkillərimizlə birlikdə səmimi dialoqda olub, öz siyasi biliklərimizi inkişaf etdiririk. Bununla da Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyev və onun rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası daim gənclərin yanında olduğunu göstərir”.



**YAP Suraxanı rayon təşkilatında məsləhətçi Ənvər Haqverdiyev:** “Artıq bir neçə dəfə yay və qış məktəblərinin iştirakçısı olmuşam. Mənim siyasi sferada gənc kimi inkişafımda məktəblərin əvəzsiz rolu olmuşdur. Nitq, ünsiyyətçilik, özünü ifadə kimi şəxsi qabiliyyətlərimin artırılmasında bu layihələr böyük əhəmiyyətə malikdir. Biz həm dincəlir, həm də müxtəlif təlimlərdə iştirak edirik, eyni zamanda tanınmış siyasi xadimlərlə münasibət qurmaq, onlarla fikir mübadiləsi aparmaq fürsətimiz olur. Bu biz gənclər üçün çox böyük stimuldur”.



**YAP Gənclər Birliyinin koordinatoru Aliyə Ağrılı:** “YAP müxtəlif sahələri özündə ehtiva edən, cəmiyyətin bütün təbəqələrini əhatə edən layihələr həyata keçirir: “Təbii ki, bu zaman ölkə gəncliyi unudulmur. Onlara diqqət və qayğı göstərilməsi də YAP-ın fəaliyyətində əsas yerlərdən birini tutur. YAP Gənclər Birliyi tərəfindən artıq bir neçə ildir ki, böyük uğurla davam etdirilən və ölkənin bütün bölgələrindən olan gəncləri əhatə edən “Yay məktəbi” layihəsi ənənəyə çevrilib. Bu layihənin həyata keçirilməsində əsas məqsəd Azərbaycanda yaşayan bütün gənclərin bir-birini daha yaxından tanıması, onlar arasında səmimi münasibətlərin yaradılması, ölkədə ictimai həyatın istənilən sahəsində dinamik inkişaf haqda gənclərə dolğun məlumatların çatdırılması, tanınmış siyasətçilərlə görüşlərin təşkil edilməsi, gənclərin ictimai-siyasi fəallığının artırılması, asudə vaxtın səmərəli təşkili və gələcəkdə müxtəlif sahələrdə çalışacaq gənclərdə liderlik kimi mühüm xüsusiyyətlərin formalaşdırılmasıdır”.

✍ **Taleh Bağırov,**
***“İki sahil”***

*Akademik İsmayıl Hacıyev:*

# Heydər Əliyevin hakimiyyəti dövrü tariximizə böyük inkişaf və quruculuq illəri kimi daxil olub




**Azərbaycan tarixində 14 iyul gününün xüsusi mənası və əhəmiyyəti var. Belə ki, 1969-cu il 14 iyulunda xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev respublikamızda siyasi hakimiyyətə gəldi. Bununla da cəmiyyət həyatının bütün sahələrində yeni dövr başladı.**

**Bu fikirləri AZƏRTAC-ın Naxçıvan bürosuna müsahibəsində AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev səsləndirib.**

"Yaşlı nəslin nümayəndələri çox yaxşı xatırlayır ki, XX əsrin 60-cı illərində respublikamız ittifaq respublikaları arasında axırıncı yerlərdən birini tuturdu. Əslində, belə olmamalı idi. Çünki respublikamızın yerləşdiyi coğrafi ərazinin əlverişliliyinə, yeraltı və yerüstü sərvətlərinin kifayət qədər zəngin olmasına və burada əməksevər, işgüzar insanların yaşadığına görə respublikamız bütün sahələrdə inkişaf etməli və uğurlar qazanmalı idi. Lakin idarəetmənin zəifliyi iqtisadiyyatın da geri qalmasına səbəb olmuşdu", - deyən akademik qeyd edib ki, bu baxımdan, ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gətirilməsi də tamamilə qanunauyğun idi. Çünki Heydər Əliyev əvvəlki vəzifələrində özünü kifayət qədər səriştəli, bacarıqlı, işgüzar, idarəetmənin kamil bilicisi kimi göstərə bilmişdi. Ulu Öndər öz idarəetmə bacarığı, işgüzarlığı ilə artıq ittifaq miqyasında da tanınırdı. Lakin həmin dövrdə belə təcrübə yox idi ki, hüquq-mühafizə orqanlarından birinin başçısı respublika rəhbəri seçilsin. Dahi şəxsiyyət Heydər Əliyev bu ənənəni qırdı və Azərbaycan rəhbərliyinə gətirildi.

İsmayıl Hacıyev vurğulayıb ki, Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsindən qısa vaxt sonra ölkəmizdə inkişaf və tərəqqi özünü göstərməyə başladı. Ulu Öndərin respublikamızın problemlərini dərindən bilməsi, onların həlli yollarını müəyyənləşdirməsi, ən başlıcası isə bütün xalqı vahid məqsəd ətrafında birləşdirməsi gələcək uğurlar və inkişaf üçün əsas oldu. Heydər Əliyev hakimiyyətinin birinci mərhələsində (1969-1982) Azərbaycanı geridə qalmış aqrar ölkədən inkişaf etmiş aqrar-sənaye ölkəsinə çevirdi. Aqrar sahəsindəki uğurlar, xüsusilə üzümçülük və pambıqçılıq rekord səviyyədə inkişaf etdirildi. Respublikamız iqtisadi artım sürətinə görə orta ittifaq səviyyəsini üstələdi. Bu illərdə Azərbaycanda istehsal olunan milli gəlirin həcmi 2,6 dəfə, sənaye məhsulunun həcmi 2,7 dəfə, kənd təsərrüfatı məhsulunun həcmi 2,3 dəfə artdı. Respublikamızda istehsal edilən 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac edildi. Bakı Dərin Dəniz Özülləri zavodu, Bakı Məişət Kondisionerləri zavodu, "Azon" zavodu, Sumqayıt kompressorlar zavodu və digər yeni sənaye müəssisələri istifadəyə verildi. Ümumiyyətlə, bu dövrdə 250 zavod və fabrik tikildi, yaxud yenidən quruldu.

Orta və ali məktəblərin şəbəkəsi genişləndirildi, yüksək ixtisaslı kadr hazırlığına diqqət artırıldı, azərbaycanlı gənclər keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərildi. Cəmşid Naxçıvanski adına hərbi məktəb açıldı, gənclərin hərbi ixtisaslara yiyələnməsi təmin edildi. Mədəniyyətin inkişafına diqqət artırıldı, elm və mədəniyyət xadimlərinə yüksək fəxri adlar verildi. Azərbaycan Respublikasının xalq təsərrüfatının hərtərəfli inkişafı üçün ittifaq hökumətinin beş qərar verməsinə nail olundu.

Akademik deyib: Ümummilli Lider hakimiyyətinin ikinci mərhələsində də respublikamızı üzləşdiyi hərtərəfli böhrandan xilas etdi. 1993-cü ildə respublikamız çətin sınaqlarla üz-üzə qalanda xalqımız yeganə xilaskar hesab etdiyi Heydər Əliyevi yenidən rəhbərlikdə görmək istəyirdi. Çünki xalqımız bilirdi ki, ölkəni fəlakət və qarşıdurmadan yalnız Ulu Öndər xilas edə bilər. Hətta dünyanın bir sıra nüfuzlu siyasət, elm, mədəniyyət xadimləri deyirdi ki, Heydər Əliyev Azərbaycanda hakimiyyətdə olsaydı, respublika bu vəziyyətlə qarşılaşmaz, xain qonşularımız cəsarət edib Azərbaycana qarşı belə mövqe tuta bilməzdi. Heydər Əliyev hakimiyyətin ikinci mərhələsində də müdrikliyi və qəti mövqeyi ilə ölkəmizi məhv olmaqdan xilas etdi, müstəqilliyimizi qoruya bildi, atəşkəsə nail oldu, "Əsrin müqaviləsi" bağlanıldı. Ulu Öndər Azərbaycan Respublikasını dünya dövlətləri içərisində lider ölkə səviyyəsinə qaldıra bildi, onun hərtərəfli inkişafını təmin etdi, gələcək inkişafı üçün strateji xətti müəyyənləşdirdi.

Ulu Öndərin Azərbaycan Respublikasının ayrılmaz bir parçası olan Naxçıvan Muxtar Respublikasının inkişafı üçün bütün imkanlarından istifadə etdiyini xatırladan AMEA Naxçıvan Bölməsinin sədri bildirib ki, dahi şəxsiyyət 1990-1993-cü illərdə Naxçıvanda yaşadığı və Ali Məclisə Sədrlik etdiyi dövrdə bir sıra tarixi qərarların qəbul edilməsinə nail oldu. Rus qoşunlarının silah-sursatı və hərbi texnikanı yaranmaqda olan yerli orduya təhvil verməsi, özəlləşdirmənin həyata keçirilməsi, SSRİ-nin saxlanılmasına dair referendumun Naxçıvanda baş tutmaması, üçrəngli bayrağın, Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün qəbul edilməsi, Naxçıvan MSSR-nin adından "Sovet Sosialist" sözlərinin çıxarılması, Naxçıvan Ali Sovetinin Ali Məclis adlandırılması, 20 Yanvar hadisələrinə hüquqi-siyasi qiymət verilməsi və bu kimi digər mühüm qərarların qəbulu Heydər Əliyev qətiyyətinin, uzaqgörənliyinin nəticəsi idi. Hələ XX əsrin 70-80-ci illərindən Naxçıvanın inkişafı üçün davamlı iş aparılması, yeni sənaye obyektlərinin yaradılması, sosial obyektlərin tikilməsi, əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün bir neçə mikrorayonun salınması Heydər Əliyev qayğısı sayəsində mümkün olmuşdu.

"Bütövlükdə Heydər Əliyev dövrü, yeni ötən 50 il tariximizin ən şərəfli, böyük inkişaf və möhtəşəm quruculuq illəridir. Bu illər Azərbaycan Respublikasını tənəzzüldən intibaha yüksəltdi", - deyən akademik İsmayıl Hacıyev vurğulayıb ki, Ümummilli Liderin həyata keçirdiyi çoxşaxəli inkişaf strategiyası bu gün onun layiqli varisi - Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilir. Dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycan dövlətinin qazandığı uğurlar məhz Heydər Əliyev siyasətinin təntənəsidir.

# *Deputat:* 1969-cu ilin 14 iyulu Azərbaycanın sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafının başlanğıc tarixidir

Azərbaycan xalqının dünyaya bəxş etdiyi nadir şəxsiyyət, böyük dövlət xadimi, xalqını böyük xalqların, dövlətini böyük dövlətlərin cərgəsinə çıxaran müdrik rəhbər, ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinin 50 ili tamam olur. Tarixdə elə şəxsiyyətlər var ki, onların həyat yolundan danışmaq üçün bütöv bir xalqın, bütöv bir ölkənin tarixindən danışmaq lazımdır. Ulu öndər Heydər Əliyev belə şəxsiyyətlərdəndir. Onun mənalı həyatı müstəqil Azərbaycanın siyasi bioqrafiyasına çevrilib. Bu gün Azərbaycan deyərkən Heydər Əliyev, Heydər Əliyev deyərkən Azərbaycan düşünürük. Bu, səbəbsiz deyil. Azərbaycanın 50 illik dövrünü əhatə edən tarixi və siyasi taleyi, bu illər ərzində ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində baş vermiş dirçəliş, inkişaf və tərəqqi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, YAP siyasi şurasının üzvü Aydın Hüseynov bildirib.

Deputat qeyd edib ki, Ulu Öndərimiz Azərbaycan naminə, bütöv, müstəqil Azərbaycan və azərbaycançılıq uğrunda çalışıb, mübarizə aparıb və qalib gəlib. Böyük ömrün Azərbaycan naminə fəaliyyətinin birinci mərhələsi ötən əsrin 40-cı illərindən 1969-cu ilə qədərki dövrü əhatə edir. Bu dövrdə Heydər Əliyev xalq üçün xidməti hər şeydən uca tutan, dövlət təhlükəsizliyi maraqlarını milli maraqlara tabe etdirməyi bacaran istedadlı hərbi xadim kimi parlayıb. Təhlükəsizlik xidməti leytenantından həmin xidmətin general-mayoru ali hərbi rütbəsinədək böyük bir yol keçən xalqımızın böyük oğlu 1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildə isə həmin Komitənin sədri təyin olunub. Azərbaycan tarixində həmin dövrədək bu idarəyə azərbaycanlı başçılıq etməmişdi. Heydər Əliyev təhlükəsizlik sisteminin generalı və rəhbəri vəzifəsinə yüksələn ilk azərbaycanlı idi.

Aydın Hüseynov bildirib ki, Azərbaycanın iyirminci əsrdəki inkişafının əsası 1969-cu ilin 14 iyulunda qoyulub. Həmin tarixdə siyasi hakimiyyətə gələn dahi şəxsiyyət Heydər Əliyev, sözün həqiqi mənasında, böyük bir xalqın həyatında möhtəşəm dəyişikliyə nail olub, milli, müstəqil dövlətin qurulması üçün zəruri olan bütün işləri görüb. 1969-cu ilə qədər SSRİ-nin aqrar respublikası kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan bir diyara çevrilib. Ona görə də 1969-cu ilin 14 iyulunda ulu öndər Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsi ölkəmizin müstəqillik tarixinin, parlaq və işıqlı yolunun başlanğıcı kimi qiymətləndirilir. Heydər Əliyev öz xidmətləri ilə hər bir azərbaycanlıya Vətən üçün, Azərbaycan üçün qurub-yaratmaq, yorulmadan xidmət etmək fəlsəfəsini aşılayıb, Azərbaycanı 1969-1982-ci illərdə inkişaf etmiş sənaye-aqrar respublikasına çevirərək, bugünkü müstəqilliyimizin təməlini qoyub. 1969-1985-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara verilib, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunub. Həmin illərdə Azərbaycanın milli gəlirinin ümumi həcmi 2,5 dəfə artıb. Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı elm və təhsil ocağına 10 mindən çox azərbaycanlı oğlan və qız təhsil almağa göndərilib. Bütün bunlar Heydər Əliyev siyasi müdrikliyinin və uzaqgörənliyinin bəhrələri idi. Sonralar həmin dövrdə həyata keçirilən tədbirlərdən danışan Ulu Öndər deyib: "Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".

Deputat deyib ki, 70-ci illərdə Bakıda, Naxçıvanda, Gəncədə, Mingəçevirdə, Lənkəranda, Xankəndidə bir-birinin ardınca elektronika, elektrotexnika, radiotexnika, cihazqayırma, dəzgahqayırma zavod və müəssisələri istifadəyə verilib. 1970-1982-ci illərdə Azərbaycanda tikilib istifadəyə verilmiş fabrik, zavod və digər sənaye-istehsal müəssisələrinin sayı əvvəlki 50 ildə tikilən müəssisələrin sayından qat-qat çox idi. Azərbaycanda milli dəyərlərin qorunması, xalqın milli düşüncə tərzinin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirləri yalnız Heydər Əliyev kimi Vətəninə, xalqına bağlı, cəsarətli bir dövlət xadimi, siyasi lider reallaşdıra bilərdi. Bu istiqamətdə o dövrdə görülən işlərin bəhrəsini biz indi daha aydın dərk edirik. Həmin illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə göstərişi və rəhbərliyi ilə Azərbaycandakı memarlıq abidələrində bərpa işləri aparılıb, tarix və mədəniyyət abidələrinin pasportu hazırlanıb, görkəmli şair və yazıçıların yubileyləri keçirilib, tarixi şəxsiyyətlərin və xalq qəhrəmanlarının abidələri ucaldılıb, onların adlarını daşıyan yaşayış məntəqələri salınıb, milli varlığımızın, dəyərlərimizin və adət-ənənələrimizin təbliğinə xidmət edən filmlər çəkilib.

A.Hüseynov qeyd edib ki, 1969-1982-ci illər həm də Azərbaycanda elm və təhsilin inkişaf dövrü kimi xatırlanır. Həmin dövrdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən nüfuzlu ali məktəblərində respublikamızın xalq təsərrüfatı,



elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil almışdır. Onların əksəriyyəti bu gün müstəqil Azərbaycanın iqtisadiyyatının, elminin, təhsilinin inkişafında, dövlətçiliyinin möhkəmləndirilməsində fəal iştirak edirlər.

Deputat bildirib ki, 1993-cü ilin yayında ölkədə qardaş qanı töküldüyü və milli dövlətçiliyimiz ikinci dəfə məhvolma təhlükəsi ilə üzləşdiyi bir vaxtda xalq yenidən nicatını Ulu Öndərin hakimiyyətə qayıdışında gördü, dahi rəhbəri Naxçıvandan Bakıya dəvət etdi. Vətəninin və xalqının taleyinə biganə qala bilməyən Ümummilli Lider 1993-cü ilin iyun ayında Naxçıvandan Bakıya qayıtdı və bu qayıdış Vətənin xilası, xalqın qurtuluş tarixinə çevrildi, Azərbaycan 1969-cu ildən başlanan quruculuq yoluna döndü. Torpaqlarımızın işğalının qarşısı alındı, milli ordu yaradıldı, sabitlik təmin olundu. Ölkəmizin təbii sərvətlərindən səmərəli istifadə edilməsi, "Əsrin müqaviləsi"nin imzalanması, vaxtilə çoxlarının əfsanə hesab etdiyi Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilməsi Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin inkişafına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan verdi. Bir sözlə, 1969-cu ildən başlanan quruculuq xəttinin 1993-cü ildən sonra davam etdirilməsi hərtərəfli inkişaf edən, dünyada söz sahibinə çevrilən müstəqil Azərbaycan dövlətinin daha da güclənməsinə səbəb oldu. Azərbaycanın müasir tarixinin fenomen şəxsiyyəti kimi ümummilli lider Heydər Əliyev xalqın qəlbində özünə möhtəşəm abidə ucaldıb. O, müasir Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını, əbədi müstəqillik tarixini yaratmışdır. Ümummilli Liderin siyasi fəaliyyəti Azərbaycana xidmətin ən kamil nümunəsidir.

## MONİTORİNQ İNSİDENTSİZ BAŞA ÇATIB



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 11-də Ağdam rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Martin Şuster keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller aparıblar.

# Ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişi hər bir azərbaycanlı üçün qürur tarixidir

**"Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədri Əhməd Əhmədzadənin www.yap.org.az saytına müsahibəsi**

*- Əhməd müəllim, bu günlər respublikamızda ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin 50-ci ildönümü böyük təntənə ilə qeyd olunur. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətləri haqqında fikirlərinizi bilmək istərdik...*

- Bəşər tarixində öz xalqının mədəniyyət və mənəviyyatı ilə sıx bağlı olan, əsl ümumxalq sevgisi qazanmış ən böyük şəxsiyyətlərdən biri, zəmanəmizin böyük siyasətçisi və dövlət xadimi Heydər Əlirza oğlu Əliyevdir. Böyük rəhbərin respublikanın ağır iqtisadi, siyasi, mənəvi böhran keçirdiyi bir vaxtda, 1969-cu ilin iyul ayında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi seçilməsi ölkəni işıqlı gələcəyə doğru aparan yolun başlanğıcına çevrildi və bu tarix hər bir azərbaycanlı üçün qürur tarixidir.

1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçilən Heydər Əliyev heç bir ay keçməmiş Mərkəzi Komitənin avqust plenumunu keçirdi, iqtisadiyyatı bərbad vəziyyətdə olan respublikanı dirçəltmək üçün qarşıda duran vəzifələri müəyyənləşdirdi. 1970-ci illərədək Azərbaycan keçmiş xammal istehsalçısı olan bir respublika sayılırdı. Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi ilə ölkədə hər şey kökündən dəyişməyə başladı. O, ilk növbədə respublika sənayesində, kənd təsərrüfatında yeni istehsal sahələrinə və bu sahələrdə çalışan çoxsaylı mütəxəssislər hazırlanmasına diqqət yetirirdi. Onun hakimiyyəti dövründə neft sənayesi tamamilə yenidən quruldu, xalqın maddi rifah halı yüksəlməyə başladı.

Belə ki, ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi vaxtdan Azərbaycanın kənd təsərrüfatında, sənayesində, ümumiyyətlə, xalq təsərrüfatının bütün sahələrində xüsusi canlanma başlandı. Kənd təsərrüfatının inkişaf etdirilməsi haqqında bir neçə tarixi qərar qəbul olundu. Bunlardan "Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsi tədbirləri haqqında" (1970-ci il), "Azərbaycanda kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında" (1975-ci il), "1976-1980-cı illərdə torpaqların meliorasiyası və meliorasiya olunmuş torpaqların istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında" (1976-cı il) və "Azərbaycanda kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" (1979-cu il) qərarları xüsusi əhəmiyyət kəsb edirdi. İttifaq dövründə belə qərarların qəbul edilməsinə ancaq Heydər Əliyev nail ola bilərdi. Bu qərarlarda Azərbaycanda kənd təsərrüfatı istehsalının yüksəldilməsi və ixtisaslaşdırılması əsasında gələcək üçün respublika iqtisadiyyatının dinamik inkişaf proqramları qəbul olundu.

Heydər Əliyev şəxsiyyətinin gücü bunda idi ki, o, cəmiyyətdə gedən proseslərdə ölkədə baş verən hadisələrdən dərhal xəbər tutub öz münasibətini bildirirdi. Əhali ilə ünsiyyət qurub xalqın həyatına daha yaxın olurdu. Ayrı-ayrı bölgələrə səfərləri zamanı onun kənd əhalisi ilə söhbətlərini unutmaq olarmı?

*- Ümummilli lider Heydər Əliyevin 1969-1982-ci illər ərzində ölkəmizə rəhbərlik etdiyi dönəm respublikamızın inkişaf və tərəqqi dövrü kimi xarakterizə olunur. Bu dövrdə həyata keçirilən tədbirlər və əldə edilən nəticələrlə bağlı nə deyə bilərsiniz?*

- Həmin dövrləri yaşayan və canlı şahidi olan bir şəxs kimi qeyd etmək istərdim ki, həyatımızın elə bir sahəsi yox idi ki, bu dahi şəxsiyyət onunla maraqlanıb, ortaya çıxan problemləri yoluna qoymasın. Elə götürək, meliorasiya və irriqasiya sahəsini. Ölkəmizdə bu sahəyə maraq hələ XIX əsrin ikinci yarısından başlanmasına baxmayaraq, onun geniş miqyaslı inkişafı Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərə təsadüf edir.

Bu illər ərzində bir sıra iri irriqasiya və meliorasiya obyektləri, o cümlədən Araz su anbarı elektrik stansiyası ilə birlikdə, Mil-Muğan hidroqovşağı, Baş Mil kanalı, Yuxarı Mil və Yeni Xan qızı kanalları, Naxçıvan MR-də Qaraçuq və Arpaçay nasos stansiyaları, Naxçıvan suvarma sistemi, Abşeron suvarma sistemi, Qusar rayonunda Caqar-Cibir magistral kanalı, Şamaxı rayonunda Zaqolovoçay su anbarı, Lənkərançay su qovşağı, Mərkəzi Muğan və Cənubi-Şərqi Şirvan qış otlaqlarının su təminatı sistemləri, Sərsəng su anbarı, Madagiz su anbarı, Arpaçay üzərində Arpaçay su anbarı, Sirab su anbarı, Aşağı Köndələnçay su anbarı, Yuxarı Xanbulançay su anbarı kompleksi, Tovuz rayonunda 3 pilləli nasos stansiyası, Tərtərçay magistral kanalları və digər obyektlər tikilib istismara verildi.

Bu illərdə 200 min hektara yaxın yeni suvarılan torpaqlar kənd təsərrüfatı dövriyyəsinə cəlb edilmiş, 400 min hektara yaxın suvarılan torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmış, 825 min hektar sahədə suvarma sistemləri yenidən qurularaq onların su təminatı artırılmış, 460 min hektar sahədə əsaslı hamarlama və 150 min hektara yaxın sahədə əsaslı yuma işləri aparılmış, texniki cəhətdən mükəmməl irriqasiya və meliorasiya sistemləri yaradılmışdır.

Bu tədbirlərin həyata keçirilməsi kənd təsərrüfatı istehsalının xeyli artırılmasına və məhsuldarlığın yüksəldilməsinə imkan verdi.

*- Ulu Öndərin 1969-1982-ci illərdə respublikamıza rəhbərlik etdiyi dövrdə su və meliorasiya təsərrüfatı sahəsində görülən işlərin əhəmiyyəti haqqında da fikirlərinizi bilmək istərdik...*

- 1969-1982-ci illərdə meliorasiya və su təsərrüfatı kompleksinə 2,5 milyard manatdan artıq vəsait yönəldilmişdir ki, bu da sovet hakimiyyəti dövrünün ilk 50 ili ərzində bu sahəyə qoyulan vəsaitdən 2 dəfədən artıq idi.

Bu illərdə Azərbaycanda meliorasiya və su təsərrüfatı sahəsi ulu öndər Heydər Əliyevin bu sahəyə olan daimi diqqət və köməkliyinin nəticəsində ölkə iqtisadiyyatının güclü istehsal bazasına, respublikanın, demək olar ki, bütün bölgələrində iri tikinti və istismar təşkilatlarına, elmi-tədqiqat və layihə-axtarış institutlarına malik olan müstəqil sahəsinə çevrildi.

Xüsusi olaraq vurğulamaq istəyirəm ki, müdrik və uzaqgörən rəhbər, dünya miqyaslı siyasətçi, xalqımızın, bütün meliorartorların sevimlisi Heydər Əliyev Azərbaycanda su təsərrüfatı kompleksinin yaradıcısı, onun inkişaf konsepsiyasının, respublikamızda meliorasiya və su təsərrüfatı sahəsində görülmüş əzəmətli işlərin və əldə edilmiş inqilabi dəyişikliklərin həm müəllifi, həm də təşkilatçısıdır. Onun respublikamıza rəhbərliyi dövründə gördüyü tədbirlərin nəticəsi olaraq 1980-ci ildə 1970-ci ilə nisbətən respublikada kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 2,2 dəfə, taxıl istehsalı 2,1 dəfə, pambıq istehsalı 2,6 dəfə, üzüm istehsalı 4,6 dəfə, tərəvəz və tütün istehsalı 2,3 dəfə, meyvə istehsalı 4,4 dəfə, çay yarpağı istehsalı 2,2 dəfədən çox artmışdır.

Qeyd etmək lazımdır ki, hələ o vaxtlar hər hansı bir ittifaq respublikasında bu həcmdə işlərin görülməsini nəzərdə tutan belə böyük qərarlar çox nadir hallarda verilirdi. Bu qərarların qəbul edilməsi yalnız Heydər Əliyevin qətiyyəti, uzaqgörənliyi, dahiliyi və nüfuzunun bilavasitə nəticəsi idi.

Bütün bu yüksək şəxsi keyfiyyətlər Ona Azərbaycanı keçmiş Sovet İttifaqında müttəfiq respublikalar arasında ön yerlərdən birinə çıxarmağa imkan vermişdi. Qısa zaman kəsiyində görülmüş nəhəng işlər, xarakterindəki bütövlük, qətiyyət, mətin iradə, qeyri -adi zəka, tükənməz enerji, vətənpərvərlik, millət sevgisi eləcə də yeniliyin, mütərəqqi təcrübənin, milli və ümumbəşəri dəyərlərin tərəfdarı kimi çıxış edən rəhbər, mahir dövlət idarəçisi, islahatçı təfəkkürə malik olması xalqın gözündə Heydər Əliyevin böyük şəxsiyyət və xilaskar obrazını yaratdı.

Şübhəsiz ki, bu deyilənlər Heydər Əliyevin böyük tarixi şəxsiyyət kimi Azərbaycana rəhbərliyi dövründə,həm də SSRİ rəhbərlərindən biri kimi cəmiyyətdə müstəsna və alternativsiz roluna aydınlıq gətirir. O, Azərbaycanın rəhbəri kimi ölkədə plüralizmin, demokratik düşüncə tərzinin, qanunun aliliyinin bərqərar olması üçün böyük qətiyyət göstərirdi.

Heydər Əliyev 1982-ci ildən keçmiş SSRİ-nin rəhbərlərindən biri kimi dünyada gedən proseslərə dərindən nüfuz edir, beynəlxalq və regional problemlərin, münaqişələrin nizama salınmasında yaxından iştirak edir, İttifaq dövlətinin nəhəng imkanlarını məharətlə Azərbaycanın tərəqqisinə, sosial-iqtisadi yüksəlişinə xidmət edən plan və layihələrin reallaşdırılması işinə istiqamətləndirirdi və iqtisadiyyatın bütün sahələrində olduğu kimi, meliorasiya və su təsərrüfatı sahəsinə də öz qayğısını əsirgəmir, bu sahədə işlərin gedişinə daim nəzarət edir və lazımi köməklik göstərirdi.

1983-cü ildə kənd təsərrüfatında faktiki istifadə olunan suvarılan torpaqların sahəsi 1970-ci ildəkinə nisbətən 265,1 min hektar artmışdı, eyni zamanda, istifadə olunmayan suvarılan torpaqların sahəsi 89,7 min hektara qədər azalmışdır.

Lakin 1987-ci ildən sonra respublikanın iqtisadiyyatında yaranmış ağır vəziyyətlə əlaqədar büdcə vəsaitinin çatışmazlığı üzündən dövlət əhəmiyyətli sistemlərin istismarında ciddi çətinliklər yaranmış, bir sıra mühüm əhəmiyyətli su təsərrüfatı kompleksləri qəza vəziyyətinə düşmüşdü. Tikinti işləri demək olar ki, dayandırılmışdı. Meliorasiya və su təsərrüfatının maddi-texniki bazası da xeyli zəifləmişdi.

*- Ulu öndər Heydər Əliyev 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdı. Bu tarixi qayıdış Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi...*



- Yenicə müstəqillik qazanmış Azərbaycan Respublikası həmin vaxt çox təhlükəli bir vəziyyətlə üz-üzə dayanmışdı. Ölkədə, demək olar ki, vətəndaş müharibəsi başlanmışdı. Bax, belə bir gərgin vəziyyətdə hakimiyyətə qayıdan Heydər Əliyev bütün dünyaya bəyan etdi ki, həyatının qalan hissəsini xalqına qurban verir.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışı ilə meliorasiya və su təsərrüfatı öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Bu sahəyə diqqət və dövlət qayğısı bərpa olundu, mövcud meliorasiya potensialının dağılmasının qarşısı alındı, ondan daha səmərəli istifadə olunması yolları və sahənin gələcək inkişaf istiqamətləri müəyyənləşdirildi. Onun rəhbərliyi ilə başlanılmış, lakin yarımçıq qalmış obyektlərin yenidən tikintisinə başlanıldı.

Ulu Öndərin göstərişlərini əsas tutaraq respublikaya qoyulan xarici investisiyalar ilk növbədə meliorasiya və su təsərrüfatı sahəsinə - Baş Mil-Muğan kollektorunun tikintisinə, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına və Vayxır su anbarının tikintisinə yönəldildi.

*- Əhməd müəllim, müasir müstəqil Azərbaycan ümummilli lider Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Azərbaycan Ulu Öndərin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm nailiyyətlər qazanır. Bugünkü reallıqları və perspektivi necə dəyərləndirirsiniz?*

- Ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında ən böyük tarixi xidmətlərindən biri dünyanı bürümüş iqtisadi böhranların, münaqişələrin hökm sürdüyü çətin bir şəraitdə ölkəmizin onun tərəfindən əsası qoyulmuş uğurlu inkişaf strategiyasının davam etdirilməsi kimi çox böyük məsuliyyətli və taleyüklü bir vəzifəni şərəflə irəli apara biləcək unikal dövlət idarəçiliyi təfəkkürünə malik cənab İlham Əliyevi xalqımıza bəxş etməsi olmuşdur.

Möhtərəm Prezidentimizin rəhbərliyi ilə son 15 il ərzində ölkəmiz böyük və şərəfli inkişaf yolu keçmişdir. Ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atmışdır. İqtisadiyyatımızın aparıcı sahələrindən biri olan meliorasiya və su təsərrüfatı sistemi qazanılmış nailiyyətlərdə öz yeri və payı olan sahəyə, eyni zamanda, başlanılmış genişmiqyaslı islahatların ünvanına çevrilmişdir.

Bütün maliyyə mənbələri hesabına 2004-2018-ci illərdə 4,2 min kilometr uzunluğunda suvarma kanallarının, 2,8 min km uzunluğunda kollektor-drenaj şəbəkələrinin tikintisi, yenidənqurulması və bərpası, 413 min hektar sahədə torpaqların su təminatının və 264 min hektar sahədə meliorativ vəziyyətinin yaxşılaşdırılması işləri yerinə yetirilmiş, 166 min hektar yeni suvarılan torpaq sahələri əkin dövriyyəsinə daxil edilmişdir. Çaylarda sel və daşqınlara qarşı 187 km-dən artıq muhafizə tədbirləri həyata keçirilmiş, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 2273 ədəd subartezian quyusu qazılaraq istifadəyə verilmişdir. Ümumi tutumu 456 milyon kubmetr olan Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə su anbarları tikilmiş, eləcə də Pirsaatçay, Zoğalavaçay və Lavain su anbarları təmir-bərpa edilmişdir.

Xanarx kanalının tikintisi 2006-cı ildə, Samur çayı üzərində yerləşən Baş Suqəbuledici qurğunun bərpası, Samur çayı yaxınlığında Baş su duruldducunun tikintisi, Samur-Abşeron kanalının ilk 50 km-lik hissəsinin və bu hissədə yerləşən uzunluğu 185,7 km olan təsərrüfatlararası kanalların yenidənqurulması işləri 2007-ci ildə başa çatdırılmışdır. Respublikanın 500 min hektar suvarılan sahələrindən duzlu qrunt sularının Xəzər dənizinə axıdılmasını təmin edən Baş Mil-Muğan kollektorunun 3-cü hissəsinin tikintisi 2006-cı ildə başa çatdırılaraq Mil-Qarabağ kollektoru ilə birləşdirilmişdir.

15 noyabr 2014-cü ildə möhtərəm Prezidentimiz İlham Əliyevin iştirakı ilə açılış mərasimi keçirilmiş Şəmkirçay su anbarı zonasında 2015-ci ildə əkin sahələrini suvarma suyu ilə təmin edəcək 60,5 km uzunluğunda magistral kanalların tikintisi işləri başa çatdırılmışdır.

Araz çayının 54,2 km uzunluğunda yeni qol-kanalının beton üzlüyə alınması işləri tamamlanmış və əlavə olaraq 13145 ha olmaqla, ümumilikdə 53 min hektar yeni suvarılacaq torpaq sahələrinə suvarma suyu çatdırılmışdır.

Neftçala rayonu ərazisində uzunluğu 24,9 km olan Neftçala magistral kanalının son 11,4 km hissəsinin hidrotexniki qurğularla birlikdə tikintisinin başa çatdırılması ilə 12433 ha sahənin su təminatı yaxşılaşdırılmış və bununla da layihə üzrə 20205 hektar (ondan 6805 hektar yeni suvarılan) sahəyə suvarma suyunun çatdırılması təmin edilmişdir.

2018-ci il iyunun 5-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yolu ilə kəsişmə qurğusunun və ondan sonrakı 4,95 km-lik hissəsinin açılış mərasimi keçirilmişdir. Kanalın son 14 km-nin 5,5 km-lik hissəsinin tikintisi ilə 11788 ha (ondan 1570 hektar yeni suvarılacaq sahələrdir) torpaq sahəsinə suvarma suyu çatdırılmışdır.

Cəbrayıl rayonunun Cocuq Mərcanlı (400 hektar) və Füzuli rayonunun ona bitişik Mirzənağılı kəndlərinin (280 hektar) olmaqla ümumilikdə 680 hektar əkin sahəsinə Araz çayından suyun verilməsi üzrə işlər tamamlanmış və obyekt istismara verilmişdir.

2019-cu ildə də kənd təsərrüfatının inkişafına bilavasitə təsir edən iri infrastruktur layihələrində nəzərdə tutulan meliorativ tədbirlərin həyata keçirilməsinə başlanmışdır. Bu tədbirlərin reallaşdırılması nəticəsində yeni suvarılacaq torpaqların istifadəyə verilməsi və əkin sahələrinin su təminatının yaxşılaşdırılması nəticəsində ölkədə ixrac yönümlü kənd təsərrüfatı məhsullarının inkişafına geniş imkanlar yaradılacaqdır.

Son olaraq bir daha vurğulamaq istərdim ki, əldə edilən hər bir nailiyyətin, hər bir uğurun təməlində ulu öndər Heydər Əliyev ideyaları və bu ideyaları uğurla həyata keçirən Prezident İlham Əliyev şəxsiyyəti dayanır.

## Mübariz Qurbanlının Qaxda vətəndaşları qəbul vaxtı dəyişdirilib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, iyulun 30-da Qax rayonunda keçirilməsi nəzərdə tutulan vətəndaş qəbulunun vaxtı dəyişdirilib.

Komitədən AZƏRTAC-a bildiriblər ki, qəbul iyulun 25-də keçiriləcək.

Qeyd edək ki, DQİDK sədrinin müavinlərinin keçirəcəyi vətəndaş qəbullarının tarixi dəyişilməz olaraq qalıb. Qəbullar 30 iyul tarixində Zaqatala və Balakən rayonlarında keçiriləcək.

*Leyla Abdullayeva:*

## Bir qrup insanın hüququ digər bir qrupun hüquqlarının pozulması hesabına təmin oluna bilməz




Ermənistan Xarici İşlər nazir Z.Mnatsakanyan ATƏT-in Slovakiyada keçirilmiş qeyri-formal nazirlər görüşündə çıxışı zamanı Dağlıq Qarabağ münaqişəsinin insanlara aid olduğunu və orada yaşayanların insan hüquqlarının müdafiə olunması məsələsini qeyd edib.

AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva bununla bağlı KİV-in sualını cavablandırıb.

Leyla Abdullayeva deyib: "Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində insan hüquqlarından bəhs edən Ermənistan naziri əgər ATƏT məkanında insan hüquqları və demokratik dəyərlərin qorunması ilə bağlı söylədiklərinə həqiqətən inanırsa və bu xüsusda real işlər görmək istəyirsə, o zaman hələ də Ermənistanın silahlı qüvvələrinin hərbi işğalı altında saxlanılan Dağlıq Qarabağ və yeddi ətraf rayonumuzda etnik təmizləməyə məruz qalaraq əzəli torpaqlarından, mülklərindən didərgin salınmış yüz minlərlə azərbaycanlı məcburi köçkünün fundamental insan hüquqlarının kobudcasına pozulması məsələsini gündəmə gətirməlidir.

İnsan hüquqları universal xarakter daşıyır, bölünməzdir və bu məsələdə hər hansı şəkildə ayrı-seçkiliyə yol verilməməlidir. Dağlıq Qarabağın erməni icmasının insan hüquqları məsələsini qaldıran erməni naziri bu bölgənin azərbaycanlı icmasının öz evlərində yaşamaq hüququnun kobudcasına pozulduğunu niyə dilə gətirmir? Əlbəttə, bu sualın cavabı bizə və bütün beynəlxalq ictimaiyyətə bəllidir. Bir qrup insanın hüququ digər bir qrupun hüquqlarının pozulması hesabına təmin oluna bilməz.

Yalnız Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunması və azərbaycanlı məcburi köçkünlərin öz evlərinə geri qayıtması münaqişənin həlli ilə əlaqədar bir sıra substantiv məsələlərin, eləcə də Dağlıq Qarabağın hər iki, azərbaycanlı və erməni icmasının sülh şəraitində birgə yaşayışı və hüquqları məsələsinin həllinə əlverişli şərait yarada bilər".

## Goranboyda 6 min il bundan əvvələ aid çoxtəbəqəli yaşayış məntəqəsi aşkarlanıb



Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları Goranboy rayonunun Qaraçinar kəndi ərazisində arxeoloji qazıntı işləri aparıblar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, iyunun 19-dan iyulun 8-dək aparılmış arxeoloji qazıntılar zamanı İlk Tunc, Antik və Orta Əsrlər dövrünə aid "Qaraçinar" çoxtəbəqəli yaşayış məntəqəsi aşkar edilib.

Qazıntı işlərində yerli arxeoloqlarla yanaşı, italiyalı arxeoloq Palumbi Cuilio da iştirak edib. Qazıntı işlərinin aparıldığı iki mədəni təbəqədə Erkən Tunc dövrünə aid kərpic divar qalıqları, təsərrüfat quyuları, ocaq yerləri, saxsı qab hissələri və daşdan hazırlanmış əmək alətləri aşkarlanıb.

# Elm bir nur, cəhl zülmətdir

***Bu gün dünyanı elm və təhsilsiz təsəvvür etmək qeyri-mümkündür. Çünki inkişaf, tərəqqi elmdən, təhsildən keçir. Elə dünyanın inkişaf etmiş ölkələrinə, onların elm və təhsil sisteminə diqqət yetirsək bir daha bu reallığın şahidi olarıq. Beynəlxalq aləmə sürətlə inteqrasiya edən, dünya birliyinin fəal üzvlərindən birinə çevrilən Azərbaycanda elm və təhsilin inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Dövlət səviyyəsində elm və təhsilə göstərilən diqqət və qayğı hər iki sahənin sürətlə inkişaf etməsinə öz müsbət təsirini göstərir. Son illər Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) həyata keçirilən islahatlar bunu deməyə əsas verir.***




### Tarix ictimai elmlərin aparıcı istiqaməti olaraq həmişə ideoloji mübarizənin önündə dayanır

AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, professor Cəbi Bəhramov "İki sahil" qəzetinə açıqlamasında bildirdi ki, tarix təkcə keçmiş deyil, həmçinin cəmiyyətdə baş verən bütün prosesləri özündə əks etdirən, o cümlədən insan cəmiyyətinin ümumi inkişafının forma müxtəlifliyinin siyasi, sosial-iqtisadi mahiyyətini açmağa kömək edən bir elmdir: "Tarix ictimai elmlərin aparıcı istiqaməti olaraq həmişə ideoloji mübarizənin önündə dayanır. Çünki tarixi faktlar və həqiqətlər bir xalqın öz təbii hüququnu sübut etmək, itirilmiş və ya əlindən alınmış haqqını bərpa etmək üçün əsas arqument olaraq ortaya qoyulur. Buna görə də müasir dövrdə daha uğurlu gələcəyin qurulmasında keçmişin zəngin irsinin, "tarixin dərsləri"nin əhəmiyyətini dərk etməklə, onun bütün imkanlarından hərtərəfli istifadə edilməlidir".

Bəşəriyyətin ümumi tarixi inkişafını öyrənən bu elm sahəsi həm keçmişdə, həm də müasir dövrdə kəskin ideoloji mübarizə, mütərəqqi və irticaçı baxışların toqquşduğu bir məkan rolunu oynayır. Tarixə baxışlarda bəzən "xaos və özbaşınalıq" hökm sürüb və məhz XIX - XX əsrlərdə onun tədqiqində çox mühüm dəyişikliklər baş verib.

Cəbi Bəhramovun sözlərinə görə, Azərbaycanda akademik elmin bütün sahələrinin, o cümlədən milli tarix elminin əsas istiqamətlərinin kompleks şəkildə inkişafı heç şübhəsiz 1945-ci ildə Milli Elmlər Akademiyasının təsis olunmasından sonra başlayır: "Elmin bütün sahələrinin, o cümlədən milli tarixin - Azərbaycan tarixinin akademik səviyyədə əsaslı tədqiqi də elə bu dövrdən başlayır. 1991-ci ilin sonunda dövlət müstəqilliyi bərpa edildikdən sonra milli tariximizin tədqiq olunmayan qaranlıq səhifələrinə işıq salmaq imkanı yarandı və bunu nəzərə alan Tarix İnstitutunun rəhbərliyi bu problemlərin həlli üçün yeni struktur yaradılması ilə bağlı AMEA Rəyasət Heyətinə müraciət etdi. AMEA Rəyasət Heyətinin 2002-ci il 25 dekabr tarixli qərarı ilə Akademiyanın A.A.Bakıxanov adına Tarix İnstitutunun yeni strukturu təsdiq edildi. Bu struktura əsasən 13 şöbə, bir elmi mərkəz və iki elmi qrup fəaliyyətə başladı".

1978-ci ilin yanvarında ümummilli lider Heydər Əliyevin təqdimatı əsasında Azərbaycan KP MK Bürosunun qərarı ilə Tarix İnstitutuna direktor təyin edilən akademik İqrar Əliyev 2004-cü il 11 iyun tarixində vəfat etdi. Lakin buna baxmayaraq Azərbaycan milli tarix elmi qarşısında duran fundamental elmi problemlərin tədqiqi davam etdirilirdi.

### 40 illik fasilədən sonra...

Müsahibimiz vurğuladı ki, müasir mərhələdə milli tarix elmi qarşısında duran vəzifələrlə bağlı institutun direktoru, akademik Yaqub Mahmudov tərəfindən irəli sürülmüş və AMEA Rəyasət Heyətinin qərarı ilə təsdiq edilmiş aktual elmi problemlərin tədqiqi mühüm əhəmiyyət kəsb edir və institutun elmi potensialının bu vəzifələrin yerinə yetirilməsinə səfərbərliyi rəhbərdən böyük məharət və bacarıq tələb edirdi: "İnstitut direktoru Yaqub Mahmudov ermənilərin və onların ABŞ, Avropa, İran və Rusiya Federasiyasından olan himayədarlarının Azərbaycana qarşı informasiya müharibəsinin getdikcə daha kəskin xarakter aldığını və ölkə Prezidenti İlham Əliyevin milli maraqlara söykənən qətiyyətli xarici siyasətinə tələb olunan səviyyədə informasiya təminatı yaratmaq məqsədilə "Azərbaycan tarixinin tədqiqi və təbliği üzrə Dövlət Proqramı (2008-2015-ci illər)" hazırlandı."

Cəbi Bəhramov əlavə etdi ki, 2007-ci ildə akademik Yaqub Mahmudovun rəhbərliyi və redaktorluğu ilə Azərbaycan tarixində ilk dəfə olaraq "Azərbaycan Tarixi Atlası", 40 illik fasilədən sonra "Tarix İnstitutunun Elmi Əsərləri" işıq üzü gördü: "Azərbaycanın tarixi ərazilərini əks etdirən xəritələri ilə bağlı bir məqamı da xüsusi olaraq qeyd etmək istəyirəm. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Milli Atlas"ın hazırlanması ilə bağlı imzaladığı Sərəncama uyğun olaraq Tarix İnstitutu akademik Yaqub Mahmudovun rəhbərliyi ilə "Milli Atlas"ın "Tarix" bölməsinin mətninin və buraya daxil edilən xəritələrin tərtib edilməsində fəal iştirak etdi. Tarix İnstitutu "Milli Atlas"ın "Tarix" bölməsinə Azərbaycanın ən qədim dövrlərdən bu günədək tarixini əks etdirən Azərbaycan və dünya alimlərinin tərtib etdikləri xəritələri təqdim etdi və "Milli Atlas" 2015-ci ildə nəşr olundu".

Tarix İnstitutunun əməkdaşları tərəfindən milli tariximizin bütün dövrləri üzrə tərtib olunan xəritələr "Milli Atlas"la bərabər, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə çapa hazırlanan "Azərbaycan Milli Ensiklopediyası"nın xüsusi cildinin "Tarix" bölməsinə də daxil edilməli idi. Qeyd etmək lazımdır ki, məhz institutun direktoru Yaqub Mahmudovun bilavasitə rəhbərliyi ilə aparılan gərgin işlər və göstərilən səylər nəticəsində 55 xəritənin daxil edildiyi "Azərbaycan tarixi atlası" və "Azərbaycan Milli Ensiklopediyası"nın xüsusi cildinin "Tarix" bölməsində bütün dövrləri əks etdirən xəritələr çap edildi.

Tarix İnstitutunun direktor müavini qeyd etdi ki, hər iki nəşr təkcə ölkəmizdə deyil, o cümlədən xarici ölkələrdə də böyük əks-səda doğurdu: "Azərbaycanın tarixi ərazilərinin mənbələr əsasında xronoloji ardıcıllıqla verilməsi, onun xüsusilə də XIX əsrin I yarısında Çar Rusiyası və İran arasında bölüşdürülməsi, Qərbi Azərbaycan torpaqlarına ermənilərin köçürülməsi, 1918-1929-cu illər ərzində isə 29,8 min kv.km. ərazilərin ermənilərə verilməsi nəticəsində qondarma "Ermənistan Respublikası" dövlətinin yaradılması, azərbaycanlıların öz tarixi və etnik torpaqlarından deportasiyaya, etnik təmizləməyə və soyqırıma məruz qalmaları məsələlərinin xəritələrdə öz əksini tapması İran İslam Respublikası və Ermənistanda çox böyük narahatlıqla qarşılandı və hətta İran İslam Respublikasının parlament üzvlərinin xüsusi bəyanat verməsinə səbəb oldu".

### 452 monoqrafiya və çoxsaylı məqalələr...

Tarix İnstitutunun son on beş ildə fəaliyyətində diqqəti cəlb edən cəhətlərdən biri də Elmi Şuranın qərarı ilə milli tariximizin ən mühüm problemlərinin tədqiqinə həsr olunmuş əsərlərin nəşridir. Elmi Şuranın qəbul etdiyi qərarlar əsasında 2005-2018-ci illər ərzində 452 monoqrafiya və çoxsaylı məqalələr işıq üzü görüb. Lakin institutun nəşriyyat işi içərisində ən mühüm yeri, heç şübhəsiz, "AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi əsərləri" adlı jurnalının nəşrinin bərpası tutur. Tarix İnstitutun "Elmi əsərləri"nin nəşrinin bərpası yalnız 2007-ci ildə mükün oldu. Əlbəttə, bu mühüm məsələnin həllində AMEA-nın həqiqi üzvü Yaqub Mahmudovun göstərdiyi təkidli səylər öz nəticəsini verdi. İldə dörd dəfə çap olunması nəzərdə tutulan "Elmi əsərlər"in bu günə qədər artıq 78-ci sayı nəşr olunub. İnstitutun "Elmi əsərlər"inə təqdim olunan məqalələr Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən müəyyən edilmiş qaydalara uyğun şəkildə tərtib edilərək jurnalın redaksiya heyətində müzakirə olunduqdan sonra çapa məsləhət görülür.

Cəbi Bəhramov onu da bildirdi ki, Tarix İnstitutu tərəfindən 2013-2018-ci illərdə Azərbaycan xalqına qarşı törədilən soyqırım cinayətləri ilə bağlı beynəlxalq elmi konfrans keçirilib ki, bu elmi tədbirlərdə 20-dək xarici ölkədən, 60-dan çox alimlər iştirak edib: "Azərbaycan xalqına qarşı törədilən soyqırımı cinayətinə həsr olunmuş beynəlxalq elmi konfranslar 2014-2018-ci illər Bakı, Quba, Şamaxı, Lənkəran və Qusar şəhərlərində keçirilib. Əslində ölkənin bütün regionlarında keçirilən bu elmi konfransların praktik əhəmiyyəti region əhalisinin öz tarixinə dair həqiqətləri bilməsi və Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə yönəldilmişdir".

Qeyd edək ki, Tarix İnstitutu yarandığı gündən bütün elmi problemlərin həllində müstəsna yeri olan Elmi Arxivin fəaliyyəti mühüm yer tutur. 1936-cı ildə təşkil olunmuş bu arxivin bir müddət sonra arxiv müdirinin xəstəliyi ilə bağlı işi pozulmuş və daxil olan sənədlərin qeydiyyata alınmasında, onların yerləşdirilməsi və qorunmasında problemlər yaranmışdı. Elmi Arxivin qaydaya salınması işi 2001-ci ilin sonundan başlansa da, 2004-cü ilin sentyabrında Yaqub müəllim instituta direktor təyin edildikdən sonra bu işin sürətləndirilməsi üçün ciddi tədbirlər həyata keçirildi. Elmi Arxivin vəziyyəti ilə bağlı yaradılan komissiyanın hesabatı Elmi Şurada müzakirə olunaraq onu təzliklə qaydaya salmaq üçün bir sıra tədbirlər görüldü. Görülən tədbirlər nəticəsində İnstitutun Elmi Arxivi yenidən quruldu, saxlanılan materialların məzmular, problemlər və dövrlər üzrə kataloqlaşdırılması və elektronlaşdırılması başa çatdırıldı.

Müsahibimizin sözlərinə görə, Tarix İnstitutunun fəaliyyətində ən mühüm yerlərdən birini də 2003-cü ilin iyunundan Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə tarix elmləri sahəsi üzrə doktorluq və namizədlik dissertasiyasının müdafiəsini keçirən D.01.161. Dissertasiya Şurasının işi tutur: "2004-cü ilin sentyabrından 2018-ci ilin dekabrınadək Dissertasiya Şurasına rəhbərlik edən AMEA-nın həqiqi üzvü Yaqub Mahmudovun sədrliyi ilə həm respublika, həm də qonşu dövlətlər üçün 450-dən çox yüksək ixtisaslı tarixçi-alimlər-fəlsəfə doktoru və elmlər doktoru hazırlanıb".

✍ **Rəşad Bağırov,**
***"İki sahil"***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.**

# İnsan Hüquqları üzrə Avropa komissarı ilə Ədliyyə Nazirliyində görüş

İyulun 11-də Ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Avropa Şurasının insan hüquqları üzrə komissarı Dunya Miyatoviç ilə görüşüb.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Avropa Şurası arasında səmərəli əməkdaşlığı vurğulayan nazir Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquqlarının təminatına xidmət edən məhkəmə-hüquq islahatları, məhkəmə infrastrukturunun müasirləşdirilməsi, elektron məhkəmənin tətbiqi, regional məhkəmələrin fəaliyyəti barədə məlumat verib. F.Məmmədov bu sahədə islahatların dövlətimizin başçısının 2019-cu il 3 aprel tarixli Fərmanı ilə yeni mərhələdə davam etdirildiyini deyib.

İnsan hüquqları üzrə Avropa komissarı kimi ilk dəfə ölkəmizə səfərindən məmnunluğunu ifadə edən qonaq səfərin məqsədinin insan haqlarının, o cümlədən məcburi köçkünlərin hüquqlarının təmini sahəsində dəstək göstərmək olduğunu bildirib, məhkəmə-hüquq sistemindəki islahatları və yenilikləri maraqla qarşılayıb.

Səfər zamanı penitensiar müəssisələrə baş çəkmək üçün yaradılmış imkana görə minnətdarlığını bildirən xanım D.Miyatoviç Azərbaycan tərəfinin "açıq qapı" siyasətini qarşılıqlı əməkdaşlığın və etimadın yaxşı təzahürü kimi dəyərləndirib, cinayət qanunvericiliyinin dekriminallaşdırılması məsələsinə toxunub.



Komissar cəza siyasətinin humanistləşdirilməsinə dair dövlətimizin başçısının 2017-ci il 10 fevral tarixli Sərəncamına əsasən, Cinayət Məcəlləsinə əsaslı dəyişikliklər olunaraq bir sıra əməllərin dekriminallaşdırıldığı, humanistləşdirmə tədbirlərinin bu gün də davam etdirildiyi barədə məlumatlandırılıb.

Görüşdə, həmçinin qanunvericiliyin təkmilləşdirilməsi, Avropa Məhkəməsinin qərarlarının icrası, bölgələrdə hüquq institutlarının inkişafı, vətəndaşlara göstərilən hüquqi yardımın keyfiyyətinin yüksəldilməsi, vəkillərin Ədliyyə Akademiyasında tədrisi və digər məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb, maraq doğuran suallara aydınlıq gətirilib.

Tədbirdə Avropa Şurasının Bakıdakı Ofisinin rəhbəri Zoltan Hernyes və Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov iştirak ediblər.

*Rusiyanın səfiri:*

## Mən həmişə Azərbaycan mətbuatına açıq olmuşam



İyulun 11-də Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov bu yaxınlarda Moskvada səfərdə olmuş Azərbaycanın bir sıra aparıcı KİV-lərinin (AZƏRTAC və "Trend" informasiya agentlikləri, "Səs", "İki sahil", "Bakinski raboçiy", "Kaspi", "Xalq qəzeti" və "Bakı xəbər" qəzetlərinin) rəhbərləri ilə görüş keçirib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin rəhbəri, Azərbaycan Respublikasının Prezidenti yanında KİV-lərin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, "Trend"in baş direktoru İlqar Hüseynov, Azərbaycanın "Novoe Vremya" qəzetinin baş redaktoru Şakir Ağayev, "Bakinski raboçiy" qəzetinin baş redaktoru Rəhman Hacıyev və başqaları Rusiya paytaxtında keçirilən görüşlərlə bağlı təəssüratlarını bölüşüblər. Qeyd olunub ki, səfərin məqsədi rusiyalı həmkarlarla təcrübə mübadiləsi, həmçinin hər iki ölkənin jurnalistlərini narahat edən aktual və mühüm mövzuların müzakirəsi olub.

Vüqar Səfərli vurğulayıb ki, Azərbaycan və Rusiyanın media strukturlarının qarşılıqlı səfərləri ikitərəfli əlaqələrin möhkəmlənməsinə və eyni zamanda, jurnalistlərə öz fəaliyyətini və imkanlarını yenidən nəzərdən keçirməyə imkan verir. O xatırladıb ki, rusiyalı jurnalistləri bu ilin sonunadək Azərbaycana səfər etməyə dəvət edib.

Mətbuatın hökumətlə vətəndaş cəmiyyəti arasında körpü rolu oynadığını qeyd edən nümayəndə heyətinin üzvləri əmin olduqlarını bildiriblər ki, Moskva səfəri iki ölkənin xalqlarının bir-birini daha yaxşı tanıması və başa düşməsi, eyni zamanda, jurnalist təşkilatları arasında əlaqələrin möhkəmlənməsi baxımından əhəmiyyətlidir.

KİV rəhbərləri rusiyalı həmkarları ilə təcrübə mübadiləsində maraqlı olduqlarını bildiriblər. Burada bir sıra amillər - ortaq dəyərlər, coğrafi yaxınlıq, tarixi əlaqələr mühüm rola malikdir. Vurğulanıb ki, Moskvada keçirilən bütün görüşlərdə Rusiyanın aparıcı informasiya və xəbər agentliklərinin rəhbərləri Azərbaycan haqqında xoş fikirlər səsləndirib və bizim jurnalist strukturları ilə əlaqələri inkişaf etdirməyə hazır olduqlarını bildiriblər.

Çıxış edənlər bildiriblər ki, hazırda Azərbaycanla Rusiya arasında əməkdaşlıq yüksələn xətlə inkişaf edir. Vurğulanıb ki, ölkələrimiz arasında əlaqələrin yüksək səviyyəsinin təmin edilməsində dövlətlərimizin başçılarının böyük rolu var.

Mixail Boçarnikov azərbaycanlı jurnalistlərin Rusiya paytaxtına səfərinin təşkilində göstərdikləri köməyə görə KİV-lərin İnkişafına Dövlət Dəstəyi Fonduna, Azərbaycan Prezidentinin Administrasiyasına, Azərbaycanın Moskvadakı səfirliyinə, xüsusən səfir Polad Bülbüloğluna təşəkkürünü bildirib. Səfir Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq səviyyəsində əlaqələrin yüksək səviyyəsindən məmnunluğunu ifadə edib, mehriban qonşuluq, dostluq və qarşılıqlı anlaşma zəminində münasibətlərin bütün sahələr üzrə möhkəmləndiyini qeyd edib. O xatırladıb ki, ölkəmizdə səfir kimi fəaliyyət göstərdiyi cəmi bir il ərzində həmişə Azərbaycan mətbuatına açıq olub.

Səmimi və dostluq şəraitində keçən görüşdə Azərbaycan və Rusiyanın media strukturları arasında əməkdaşlığın möhkəmlənməsi və dərinləşməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüşün sonunda xatirə fotosu çəkilib.

*Ekspert:*

## Əlli il əvvəl Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə respublikamız inkişaf mərhələsinə qədəm qoydu

Əlli il əvvəl ulu öndər Heydər Əliyevin ilk dəfə Azərbaycana rəhbər seçilməsi ilə SSRİ-nin mərkəzi hakimiyyət orqanlarının yaratdığı bütün çətinliklərə baxmayaraq, Azərbaycan özünün milli inkişaf mərhələsinə qədəm qoydu. Ölkənin gələcəkdə müstəqil yaşamasının təməli atıldı, Azərbaycanın gələcəyinin, istiqlalının ideoloji eskizləri cızıldı, dövlət idarəçiliyinin dövrün tələblərinə uyğun mexanizmləri yaradıldı.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi ekspert Elçin Mirzəbəyli söyləyib. Ekspert qeyd edib ki, ümummilli lider Heydər Əliyevin 1969-cu ilin iyulun 14-dən başlayaraq atdığı bütün addımları, qəbul etdiyi bütün qərarları sıralasaq, dərin qatlarda onların birbiri ilə bağlı olduğunu və vahid bir strategiyaya söykəndiyini müəyyənləşdirə bilərik. Ulu Öndər rəhbərliyə gəlişi ilə, ilk növbədə, Azərbaycanın əsasən aqrar respublikadan sənaye ölkəsinə çevrilməsi istiqamətində addımlar atdı. Azərbaycan üçün ənənəvi olan neft sektoru daha da gücləndirildi, təkcə paytaxt Bakıda deyil, Sumqayıt, Gəncə kimi şəhərlərdə iri sənaye müəssisələri açıldı. Regionlarda da sənaye və emal müəssisələrinin yaradılması istiqamətində ciddi addımlar atıldı, böyük infrastruktur layihələri reallaşdırıldı. Bütövlükdə Azərbaycanın milli iqtisadiyyatının sovet təsərrüfat sistemi çərçivəsində olsa belə, əsası qoyuldu.

E.Mirzəbəyli vurğulayıb ki, dövlətin gələcəkdə müstəqil yaşaması, inkişafı üçün vacib olan amillərdən biri də kadr potensialı ilə bağlı idi. Ümummilli Lider bu istiqamətdə də strateji qərarlar qəbul etdi və uğurlu nəticələr əldə etdi. Əgər 1969-cu ilədək hər il respublikamızdan kənarda təhsil almağa göndərilən gənclərin sayı cəmi 47 nəfər idisə, Ulu Öndərin səyləri nəticəsində bu rəqəm 1000-1400 nəfərə çatdırıldı. Ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1970-1980-ci illərdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən çox sahəsini əhatə edən və zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gənc təhsil aldı. Bugünkü müstəqil Azərbaycanın qurulmasında da məhz həmin gənclər aparıcı mövqelərdə dayanıblar.

"Dövlətin çox vacib atributlarından biri də onun silahlı qüvvələridir. Kimsəyə sirr deyil ki, 1969-cu ilədək azərbaycanlıların ali hərbi məktəblərdə oxumasına böyük qısqanclıqla yanaşır, xalqımızın nümayəndələrinin hərbi bilik və vərdişlərə yiyələnməsinə süni maneələr yaradırdılar. Heydər Əliyev bu sahədə də bütün maneələri dəf etdi. Azərbaycanda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb, Azərbaycan Pedaqoji İnstitutunda ibtidai hərbi hazırlıq və fiziki təlim fakültəsi yaradıldı. Yüzlərlə azərbaycanlı gənc SSRİ-nin ən nüfuzlu ali hərbi məktəblərinə göndərildi. Təkcə 1982-ci ildə 550 azərbaycanlı gəncin SSRİ-nin müxtəlif ali hərbi məktəblərinə göndərildiyini nəzərə alsaq, bu sahədə əldə olunan nəticələrin sərhədlərini müəyyənləşdirmək olar", - deyə Elçin Mirzəbəyli vurğulayıb.

Ekspert qeyd edib ki, əgər bir xalqın milli şüuru oyanmayıbsa, dövlətçilik yaddaşı bərpa olunmayıbsa, onun içərisindən nə qədər hərbçi, mütəxəssis, alim, mədəniyyət və ədəbiyyat adamı çıxırsa-çıxsın, son nəticədə, başqalarının mənafeyinə xidmət edəcəkdi. Ulu Öndər geniş dünyagörüşünə, iti və çevik zəkaya, möhkəm iradəyə malik bir dövlət adamı kimi bunu yaxşı bilirdi və bu səbəbdən də milli şüurun oyanması, dövlətçilik yaddaşının bərpa olunması üçün olduqca incə bir siyasət həyata keçirirdi. Azərbaycan ərazisində mövcud olan dövlətlərin, o cümlədən Azərbaycan Səfəvi dövlətinin tarixi ciddi şəkildə



araşdırılırdı. Azərbaycan xalqının qədim dövlətçilik ənənələrinin yer aldığı filmlər çəkilir, əsərlər yazılırdı. Azərbaycanı, azərbaycançılığı, paytaxt Bakını və qədim şəhərlərimizi, milli qəhrəmanlarımızı vəsf edən mahnılar bəstələnir və onların təbliği üçün böyük işlər görülürdü. Azərbaycan xalqının özününəinam hissi özünə qaytarılırdı. 1978-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycan dilinin dövlət dili kimi qeyd olunması isə Azərbaycan xalqının milli kimliyinin, identikliyinin hüquqi müstəvidə təsdiqi idi.

Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin bərpasına 1967-ci ildən, Milli Təhlükəsizlik Komitəsinin sədri olarkən başladığını deyən siyasi ekspert bildirib ki, o, ilk növbədə, təhlükəsizlik orqanını milliləşmənin qarşısında dayanacaq, maneə yaradacaq xəyanətkarlardan və mərkəzi hakimiyyətin casus şəbəkəsindən təmizləmişdi. 1969-cu ildən etibarən isə o, Azərbaycan dövlətçiliyi strategiyasını addım-addım həyata keçirməyə başladı.

Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə gələndə dövlət qurmaqdan daha çox qurduğu dövləti xilas etməyə və dövrün tələblərinə uyğunlaşdırmağa gəldi və buna nail oldu. Bu gün hər kəs Ulu Öndəri böyük hörmət və məhəbbətlə anır. Azərbaycan xalqı və dövləti var olduqca Heydər Əliyevin nəhəng tarixi xidmətləri unudulmayacaq, Azərbaycanın əldə etdiyi bütün uğurlarda onun izi görünəcək.

# Avropanın Azərbaycanın ədalətli mövqeyini dəstəkləməsi fonunda Ermənistanın növbəti məyusluğu



**Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun Azərbaycana səfəri bu günlərdə Ermənistan mətbuatının əsas müzakirə mövzularından birinə çevrilib. İşğalçı ölkənin internet resurslarında məlum səfərlə bağlı qısqanc və hiddət notlu yazılar yayımlanır.**

"Armenianreport" saytının analitiki Razmik Akopcanyanın bununla bağlı yazısında Azərbaycanın Avropa İttifaqı ilə tərəfdaşlığının inkişafı haqqında dərin narahatlıq və qəzəblə söz açılıb. Yazıdan da anlaşıldığı kimi, Azərbaycanın davamlı xarici siyasət uğurları, xüsusilə Avropa İttifaqı ilə gündən-günə inkişaf edən münasibətləri işğalçı Ermənistan tərəfini əməlli-başlı məyus edir.

Yazıda Donald Tuskun Azərbaycan Prezidentinə ünvanladığı hər cümlə az qala sözbəsöz təhlil edilib, müəllif qısqanclığını və qəzəbini gizlədə bilməyib: "Avropa İttifaqı Prezidentinin Azərbaycanın dövlət başçısına xüsusi rəğbətinin olduğu hər cümləsində özünü büruzə verir. Belə ki, Donald Tusk Bakıda olmasından hər zaman böyük məmnunluq hissi keçirdiyini deyərək niyyətinin Avropada Azərbaycanla mümkün qədər ən yaxşı əlaqələrə sahib olmağın nə dərəcədə mühüm olduğunu vurğulamaqdan ibarət olduğunu açıqlayıb.

Donald Tusk Azərbaycan Prezidentini çox konstruktiv adlandırıb, onun müsbət rolunu hər zaman yüksək dəyərləndirdiyini deyib. Bu isə o deməkdir ki, Avropada Azərbaycana olan münasibət çox fərqlidir və orada rəsmi Bakının yürütdüyü istənilən siyasi kurs tam şəkildə dəstəklənir..."

Yazıya nəzər saldıqda aydın olur ki, sən demə, işğalçı ölkənin siyasi şərhçisi Avropa İttifaqı Prezidentinin dilindən Ermənistanın saxta demokratik görüntüsü haqqında xoş kəlmələr, dəstək mesajı eşitmək arzusundaymış... Yazar görünür unudub ki, Avropada saxta görüntülər haqqında yox, gerçək mahiyyət haqqında danışmağa vərdiş ediblər. Ermənistanın yeni rəhbərliyi dəvəqusu pozası alaraq guya ölkədə demokratiyanın bərqərar olması haqqında illüziyalara malikdir. Ancaq əlbəttə ki, Avropa bunun Ermənistanın daxili paranoyasından başqa bir şey olmadığını yaxşı dərk edir.

Avropanın məhz Ermənistanın bu yalanının fərqinə vardığı üçün R. Akopcanyanın Avropanı demokratiyanı satmaqda ittiham etməsi gülünc və absurddur: "Erməni xalqına bu çətin yolda dostlar və dəstəkçilər lazımdır. Onlardan biri Donald Tusk ola bilərdi. Ancaq olmadı... " Daşnakxislət müəllif görünməmiş həyasızlıqla Donald Tusku "demokratik" Ermənistanı və Azərbaycan torpaqlarında yaradılmış qondarma rejimi nə sözdə, nə də işdə dəstəkləmədiyi üçün ittiham edib.

Erməni müəllif Azərbaycanla Avropa İttifaqının yüksələn xətlə inkişaf edən əməkdaşlıq münasibətlərindən son dərəcə narahat olduğunu və məyusluğunu gizlətməyib: "Bütün bunlar çox qorxulu və məyusedicidir. Avropa İttifaqı açıq çəkildə Azərbaycanı seçdi və Ermənistana arxa çevirdi..."

Bakıya səfərindən sonra Yerevanda da bir sıra görüşlər keçirən Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk erməniləri orada da məyus edib. Ermənistanın baş naziri Nikol Paşinyanla görüşündən sonra keçirilən mətbuat konfransında Aİ rəsmisi Dağlıq Qarabağ probleminin yalnız sülh yolu ilə həll ediləcəyini vurğulayaraq erməni tərəfini xəyal qırıqlığına uğradıb.

"Armeniasputnik" saytında da məlum səfərlə bağlı erməni şərhçilər Donald Tuskun bəyanatlarından son dərəcə məyus olduqlarını gizlədə bilməyiblər. Sözügedən saytda vurğulanıb ki, avropalı siyasətçinin Bakıda keçirilən mətbuat konfransında Aİ-nin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha bəyan etməsi, lakin nə orada, nə də Yerevanda "millətlərin öz müqəddəratını təyin etməsi" hüququndan söz açmaması Ermənistanda narahatlıq doğurub. Politoloq özünə təsəlli verib ki, Donald Tusk Aİ Şurasının Prezidenti kimi artıq öz səlahiyyətlərini başa çatdırır , ona görə də onun Azərbaycanın ədalətli mövqeyini dəstəkləməsinin əhəmiyyəti yoxdur. Ancaq indi də ümidini Aİ-nin yeni seçiləcək Prezidentinə bağlayan erməni politoloqları unudurlar ki, bu, Donald Tuskun şəxsi mövqeyi deyil, ümumilikdə Avropa İttifaqının Azərbaycanın haqq işinə olan rəsmi münasibəti və ədalətli yanaşmasıdır.

İşğalçılığı və terrorizmi dövlət siyasətinə çevirməsinə rəğmən Avropadan öz psevdodemokratiyasına dəstək uman Ermənistan görünür unudur ki, demokratik və bəşəri dəyərlərə sadiqlik həm də digər ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşmaqdan və normal qonşuluq münasibətlərindən keçir. Ermənistan bilməlidir ki, bütün bunlara riayət etməyincə və Azərbaycana qarşı işğala son qoymayınca nəinki Avropadan, ümumiyyətlə, dünyanın heç bir sivil ölkəsindən öz ünvanına hansısa təqdir və dəstəyi görməyəcək...

**Sevinc Abdullayeva,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azəriqaz" İstehsalat Birliyi

**müxtəlif mal-materiallara (9 adda) olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (29021-19) elan edir**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 31.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Satınalınan mallar üzrə müsabiqə təkliflərinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 06.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Satınalınan mallar üzrə iştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər satınalınan mallar üzrə 59 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi (AZN):
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X
Xaricdən valyuta ilə edilən ödənişlər üçün hesab nömrələri:
TAX İD: 9900003871
AZ08IBAZ38110019789306332120 (EURO)
Intermediary bank: Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC: 400 88 660 3001
AZ28IBAZ38110018409306332120 (USD)
Intermediary bank: Deutsche Bank Trust Company Americas, New York
S.W.I.F.T: BKTRUS33
ACC: USD 04-164-504
AZ23IBAZ38110018269306332120 (GBP)

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin 30 gün ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.***

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1025; Bakı şəhəri; Xətai rayonu; Yusif Səfərov küçəsi, 23
**Əlaqələndirici şəxs:** Bağırov Süleyman
"Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
+994 12 521-00-00 (daxili 29-169)
suleyman.bagirov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices

***VIII. Satınalınan mallar üzrə müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 06.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Satınalınan mallar üzrə müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İB-nin Satınalmalar qrupu**

# Kür Sutəmizləyici Qurğular Kompleksinə mediatur



**Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50 illik yubileyi münasibətilə "Azərsu" ASC-nin təşəbbüsü ilə Hacıqabul rayonunun Kiçik Talış kəndində yerləşən Kür Sutəmizləyici Qurğular Kompleksinə ekskursiya edik. Ekskursiyaya rəhbərlik edən "Azərsu" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı məlumat verdi ki, mediaturun əsas məqsədi Kür Sutəmizləyici Qurğular Kompleksinin təməlinin Ümummilli Lider tərəfindən qoyulmasıdır.**

Bizi burada Kür Su Təchizatı İdarəsinin rəisi Eldəniz Həsənov qarşıladı. Səmimi söhbətdən sonra E.Həsənov böyük ərazidə yerləşən idarə haqqında məlumat verdi. Mediatur çərçivəsində kompleksin ərazisi, burada istismar olunan qurğu və avadanlıqların iş prinsipi ilə yaxından tanış olduq. Ərazi ilə tanışlıq zamanı ilk olaraq yaradılan şərait, salınan yaşıllıqlar, abadlıq işləri insanda xoş ovqat yaradırdı.

Sonra Kür çayının sahilinə qədər gəldik. Yolboyu yaşıllıq göz oxşayırdı. Ana Kürün sahilində üzən nasos stansiyalarında iş prosesi ilə tanış olduq.



"Azərsu" ASC sədrinin müşaviri, vaxtilə Kür Sutəmizləyici Qurğular Kompleksinin və Kür-Bakı su kəmərlərinin tikintisində iştirak edən **Əməkdar mühəndis Telman Ağayev** bildirdi ki, ötən əsrin 70-ci illərinə qədər Bakı şəhəri və Abşeron yarımadasındakı digər yaşayış məntəqələri içməli su ilə "Şollar", İkinci Bakı su kəmərləri və Ceyranbatan sutəmizləyici qurğuları hesabına təchiz olunurdu. Bakı və Sumqayıtın sürətli inkişafı, yeni sənaye müəssisələrinin yaradılması mövcud tələbatı ödəmədiyindən əhalinin içməli su təminatında ciddi çətinliklər yaranırdı: "Belə bir şəraitdə Kür suyunun paytaxta gətirilməsi zərurəti yaranır. SSRİ Nazirlər Sovetinin qərarı ilə Kür su kəmərləri sisteminin birinci növbəsinin inşasına 1968-ci ildə başlanılır, lakin işlər olduqca ləng gedirdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyevin Kür su kəmərinin tikintisini şəxsən nəzarətə götürməsindən sonra işlər sürətləndirilir.

Qeyd olundu ki, layihənin birinci növbəsi çərçivəsində 1970-1971-ci illərdə 2 magistral su kəməri çəkilib istifadəyə verilib. Kür Su Kəməri Kompleksinin birinci növbəsinin tam istifadəyə verilməsi Abşerona saniyədə 3,5 kubmetr içməli suyun nəqlinə imkan yaradıb. Ötən əsrin 80-ci illərində isə Kür su kəmərləri sisteminin ikinci növbəsi çərçivəsində mərhələlərlə Bakıya daha 3 magistral su kəməri çəkilib.

1998-2005-ci illərdə "Böyük Bakının su təchizatı sisteminin yenidən qurulması layihəsi" çərçivəsində Dünya Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankının ayırdığı kredit hesabına Kür Sutəmizləyici Qurğular Kompleksində yenidənqurma işləri aparılıb. Layihəyə uyğun olaraq radial, üfüqi durulducular, süzgəclər, xlorator və reagent təsərrüfatı, qaldırıcı nasos stansiyaları yenidən qurulub, nəticədə kompleksin emal gücü saniyədə 9,5 kubmetrə çatdırılıb, eyni zamanda, suyun keyfiyyəti standartlara uyğunlaşdırılıb.

Daha sonra Kür sutəmizləyici qurğularının iş prinsipi ilə yaxından tanış olan KİV nümayəndələrinə burada suyun təmizlənməsi prosesi barədə ətraflı məlumat verdi. Kür Su Təchizatı İdarəsinin rəisi Eldəniz Həsənov jurnalistlərin diqqətinə çatdırdı ki, çaydan üzən nasos stansiyaları vasitəsilə götürülən su radial durulduculara ötürülür. Burada xüsusi kimyəvi reagentlərdən istifadə edilərək lil çökdürülür. Növbəti mərhələdə su horizontal durulducularda emal olunur. Nəhayət, 3-cü mərhələdə süzgəclərdən keçən su anbara ötürülür və buradan nasoslarla magistral kəmərlərə vurulur. Uzaq məsafədən suyu Bakıya çatdırmaq üçün magistral xəttin 89-cu kilometrində - Səngəçal qəsəbəsi yaxınlığında yenidən qaldırıcı nasoslardan istifadə olunur.

Eldəniz Həsənovun sözlərindən aydın oldu ki, ilkin mərhələdə su Kür çayından götürülərək üzən nasos stansiyaları vasitəsilə təmizlənmək üçün durulducular stansiyasına ötürülür. Məlumatdan aydın oldu ki, suyun durulması üç mərhələdə aparılır. Kürün suyunun bulanıqlığı artıq olduğu halda birinci mərhələdə su radial qurğularda duruldulur. Az olduqda isə təmizlənmə prosesi 2 mərhələdə aparılır. Saatda hər bir nasos 5500 kubmetr su vura bilər. Bəlli oldu ki, 4 qurğunun hər birində 3 nasos var. İçməli təmiz su anbarına 2 mərhələdən sonra vurulan su Səngəçal su nasosxanasına ötürülür.

O da qeyd olundu ki, Oğuz-Qəbələ-Bakı su kəmərinin istismara verilməsi, eləcə də Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin tikintisi ilə əlaqədar Abşerona verilən içməli suyun həcmi xeyli artıb. Bu da Kür Sutəmizləyici Qurğular Kompleksindən Bakıya verilən suyun bir hissəsinin ölkənin Muğan və Aran bölgələrinə yönəldilməsi üçün geniş imkan yaradıb. Bu məqsədlə 107 km uzunluğunda Şirvan-Muğan və 62 km uzunluğunda Sabirabad-Saatlı magistral su kəmərləri, eləcə də anbarlar tikilərək istismara verilib. Bununla da Hacıqabul, Şirvan, Salyan, Biləsuvar, Sabirabad və Saatlı şəhərlərinin, eləcə də magistral kəmərin marşrutu boyunca yerləşən kəndlərin su təchizatı əsaslı şəkildə yaxşılaşdırılıb. Gələcəkdə isə Şirvan-Muğan qrup su kəmərindən Neftçala şəhərinə də suyun verilməsi nəzərdə tutulur. Bütövlükdə isə 2030-cu ilə perspektiv inkişaf nəzərə alınmaqla Şirvan-Muğan və Sabirabad-Saatlı magistral su kəmərlərlərindən 7 şəhərin və 168 kəndin 630 min nəfər sakini faydalanacaq.

Eyni zamanda, ölkə rəhbərliyinin ərzaq təhlükəsizliyinin və ixrac potensialının artırılmasının təmin edilməsi barədə tapşırıqlarına uyğun olaraq "Azərsu" ASC tərəfindən Hacıqabul və Şamaxı rayonlarının ərazisində 10 min hektar əkin sahəsinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması layihəsi həyata keçirilib. Layihə çərçivəsində həcmi 50 min kubmetr olan anbarlar tikilib, Kür sutəmizləyici qurğularından Padarçöl adlanan əraziyə 27,5 km uzunluğunda əsas daşıyıcı kəmər çəkilib. Əkin sahələrinin suvarılması üçün Kür sutəmizləyici qurğularından həmin ərazilərə suvarma suyunun verilməsi təmin olunub.

Ekskursiya çərçivəsində jurnalistləri maraqlandıran digər suallar da ətraflı cavablandırıldı. Burada horizontal, üfüqi durulducular və süzgəc qurğularının iş mexanizmi ilə də tanış olduq. Günün sonuna qədər hər gün içdiyimiz suyun necə hazırlanması prosesini izlədik. Çoxlarına asan gələn sə də keyfiyyətli içməli suyun ərsəyə gəlməsinin nə qədər çətin bir proses keçdiyinin şahidi olduq.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***
Bakı-Hacıqabul-Bakı

## *Politoloq:* "Aİ-nin Azərbaycanı strateji tərəfdaş kimi görməsi təqdirəlayiq haldır"



Xəbər verildiyi kimi, iyulun 9-da Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Donald Tusk Azərbaycana rəsmi səfər edib. Səfər çərçivəsində Prezident İlham Əliyev və Donald Tusk arasında keçirilən təkbətək görüşdə Azərbaycanla bu qurum arasındakı əlaqələrin hazırkı vəziyyəti və gələcək perspektivləri müzakirə olunub. Sonra tərəflər geniş tərkibdə görüşüblər. Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk mətbuata bəyanatlarla çıxış ediblər.

"Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun Azərbaycana səfəri ölkəmizlə Avropa İttifaqı arasında geosiyasi, iqtisadi-ticarət, enerji, nəqliyyat-kommunikasiya sahələrində səmərəli əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətlidir". Bu fikirləri politoloq Fikrət Sadıqov qəzetimizə açıqlamasında D.Tuskun ölkəmizə səfərinin əhəmiyyəti haqqında danışarkən söylədi.

F.Sadıqov qeyd etdi ki, Avropa İttifaqı Azərbaycanı strateji əhəmiyyətli tərəfdaş ölkə kimi görməsi təqdirəlayiq haldır: "Cənab Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Azərbaycan Şimal-Cənub, Şərq-Qərb nəqliyyat-kommunikasiya yollarının qovşuğunda yerləşən tək, unikal ölkədir. Bu isə Avropa Birliyinin diqqətini ölkəmizə çəkən amillərdən biridir".

Onun sözlərinə görə, Avropa Birliyi rəsmisinin regiona səfəri çərçivəsində həm də ATƏT-in Minsk qrupunun həmsədrlərinə Dağlıq Qarabağ münaqişəsinin həllinin Helsinki Yekun Aktının prinsipləri əsasında sürətləndirilməsi, xalqların sülhə hazırlanmasının təşviq edilməsi qurumun regionda aparıcı gücə çevrilmək planlarının təzahürüdür: "Azərbaycanın nəqliyyat-logistika mərkəzinə çevrilməsi, Cənub Qaz Dəhlizi vasitəsilə faktiki olaraq Avropa Birliyi ilə birləşməsi D.Tusk tərəfindən yüksək qiymətləndirildi. Bu isə təqdirəlayiq haldır. Donald Tuskun regiona səfəri zamanı onun ən əhəmiyyətli bəyanatı Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünün təmsil etdiyi təşkilat tərəfindən tanınması ilə bağlıdır: "Bu, bütün anti-Azərbaycan qüvvələrin, o cümlədən erməni lobbisinin Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun bölgəyə səfəri ətrafında spekulyasiya manevrlərinin qarşısını aldı, AB-nin Azərbaycanın ərazi bütövlüyünü tanımasının növbəti ifadəsi oldu. Artıq tamamilə aydındır ki, Aİ və Azərbaycan arasında Brüssel şəhərində paraflanmış və qarşıdakı dövrdə imzalanması gözlənilən Tərəfdaşlıq sazişində ölkəmizin ərazi bütövlüyünə dəstək müddəası mütləq şəkildə əksini tapacaq".

**Cavid Əkbərov,**
***"İki sahil"***

*12 iyul - Ümumdünya Fotoqrafiya Günüdür*

## Portret, bədii fotoqrafiya və...



Fotolar həyatımızın ayrılmaz hissəsinə çevrilib desək, yanılmarıq. Təbii ki, ilkin fotoqrafiya sənəti, tərzi ilə müasir fotolar arasında çox fərq var. Fərq yalnız texnologiyanın inkişafında deyil, eləcə də foto anlayışına yanaşmadadır. Fotolarda yalnız xüsusi günlərin və qeyri-adi hadisələrin əks etdirildiyi zamanlar çox geridə qalıb. Sevinc, qürur və fəxr hiss etdiyimiz anların sənədli şəkildə saxlanılması, sanki zamanın bir anlıq dayandırılmasıdır bu fotolar.

Müasir dövrümüzdə mobil telefonlara quraşdırılmış kameralar sayəsində bu proses saniyələr çəkir. Amma çoxlarınız yəqin bilmirsiniz ki, ilk fotonu çəkmək üçün Jozef Nisefor Nyeps 8 saat zaman sərf edib. 12 iyul 1826-cı ildə çəkilən ilk ağ-qara foto "Pəncərədən mənzərə" adlanırdı. 1839-cu ildə fransız kimyagər Lui Jak Mande Daqqerin işığa həssas metal lövhəni icad etməsi fotoqrafiyanın inkişafına təkan verdi. Get-gedə təsvirin əldə edilməsi üçün yeni konstruksiyalar, köməkçi mexanizmlər yaradıldı. Fotoqrafik aparat və ona aid olan hissələr "fotoaparat" və ya "fotokamera" kimi sözlərlə ifadə olunmağa başlandı. XIX əsrin ortalarında isə rəngli fotolar meydana gəldi. Onların çəkilməsi üçün isə üç fotokameradan istifadə edilirdi, bu fotokameralara rəng filtri (qırmızı, yaşıl və göy) quraşdırılırdı. Fotoqrafiya gününün məhz 12 iyulda qeyd edilməsinin digər səbəbi isə, "Kodak" şirkətinin təsisçisi "fotoqrafiyanı hamı üçün əlçatan" edən Corc İstmanın doğum gününün məhz bu günə təsadüf etməsidir. Bu günü çox az insan qeyd etsə də, gözəl foto nümunələrinə heç kim biganə qala bilmir. Çünki fotoqraflıq sənəti incə zövq, işə sevgi və "üçüncü göz" tələb edir. Bəzən əksər insanların hər gün əhəmiyyət vermədən baxıb keçdiyi "sıradan bir" məqamı fotoqraflar bir başqa prizmadan təqdim etməklə milyonların diqqətini cəlb edirlər.

Müasir dünyanı fotoqrafiyasız təsəvvür etmək mümkün deyil. Axı fotolar yaddaş hücrələrimizin açarlarıdır. Həqiqətən də, əlimizə düşən köhnə şəkil qədər xatirələrimizi canlandıran, yaddaşımızı qıcıqlandıran başqa nə ola bilər? Bəlkə də o fotodan təsvir edilən məkana səfər, və ya rəsmdə yanımızda olan insanla yenidən görüşməmiz belə təsirləndirici olmur. Çünki məkan da, insan da dəyişir. Amma o fotonun əks etdirdiyi zamanda yaşadığımız hisslər dəyişmir.

Bu gün fotoaparat demək olar ki, hər kəs üçün əlçatandır, fotoqrafiya sənəti isə müxtəlif ali məktəblərdə tədris edilən peşəyə çevrilib. Jurnalistlərin hazırladığı fotoreportajlar, məşhurların fotosessiyaları xəbər dünyasının əsas atributlarındandır. Fotoqraflar, yalnız həyatımızın xoş məqamlarını deyil, nə qədər arzuolunmaz olsa da müharibə və ölümü, zorakılıq və qəddarlığı, insan xislətinə xas olmayan dəhşətli hadisələri də çəkməyə məcburdurlar.

Azərbaycanın tarixə düşən ilk fotoqrafı Mircavad Axundzadədir. Dövrümüzdə bu peşə arıq sənət olaraq qəbul edilir. Sənəti sevənlər - fərqi yoxdur həvəskar və ya peşəkar olsun - bu əlamətdar günü hər il qeyd edirlər.

**Sevinc Azadi,**
***"İki sahil"***



# DAĞIDICILARIN YENİ PEŞƏSİ: qeybət qırmaq, dedi-qoduluq və...

**Vəli İlyasov**

El arasında deyirlər ki, qeybəti, dedi-qodunu qadınlar eləyər. Bunun əksi belə çıxır ki, kişi qeybət eləməz. “Böyük dayaq” filminin qəhrəmanı, kolxoz sədri Rüstəm kişinin bu məşhur sözləri dərhal yada düşür: “Az dedi-qodu eləyin, ə”. Hələ bir az da irəli getsəydi deyərdi ki, qeybət edən kişidə qeyrət olmaz.

Qeybət söhbətin bir növüdür. Ancaq bu növün xarakteri belədir ki, kiminsə arxasınca danışılan bu nəsnədə həqiqətləri əyişdirib eybəcər hala salmağa çalışırlar. Rəhmətlik Xalq artistimiz Nəsibə Zeynalovanın kinolardakı qeybətləri yadınızdadırmı? Nəsibə xanım qeybətcillərin obrazını ustalıqla yaratmışdı. Azərbaycan kinofilmlərindəki Cəhrə qarı, Yastı Salman, Yarməmməd, Yalıncıq və digər obrazlar tamaşaçıda gülüş və təəssüf doğurur.

Həmişə “qeybət kişiyə yaraşmaz” deyirlər. Bu dediklərimiz əsasən keçmiş kişilərə aid olsa da, elə indi də əsl kişilər milli mentalitetimizə dəxli olan bu dəyəri qoruyub saxlayırlar. Amma di gəl, elə “kişi”lər var ki, bir çox dəyərlərimiz kimi, bu dəyəri də unudublar və qadın kimi qeybət eləməyi özlərinə peşə ediblər. Həm də pullu peşəyə çeviriblər. Ağızlarının tirajını artırmağa cəhd göstərsələr də, alınmır, çünki boş cəfəngiyatlara qulaq asan kimdir?!

Təəssüf ki, indi qeybət kinofilmlərdən həyatın özünə daha geniş surətdə daxil olub. Rolların ifaçıları da dəyişib. İndi baş qeybətçi rolunda Əli Kərimli, “eləkçiyə qıl verənlər” isə Orduxan Teymurxan, Vidadi İskəndərli, Qənimət Zahid, Xədicə İsmayıl, Sevinc Osmanqızı, Qurban Məmmədov və başqalarıdır. Şərəfli iş-güclə məşğul olmağı, halal maaşla ailəsini dolandırmağı özlərinə yaraşdırmayan bu adamlar “fəaliyyətlərini” yalnız qeybət qırmağa və dedi-qoduya həsr ediblər.

Xalqın meydanlara gəlmədiyini görən dağıdıcı müxalifət sosial şəbəkələr yolu ilə insanların evinə, həyatına, məişətinə soxulur, hakimiyyət mənsubları barədə boşboğazlıqla qeybət qırırlar.

Bir neçə gün əvvəl internetə daxil olub “youtube”də məşhur “Tarzan” filmini axtarırdım. Orada qəzəbtrajlı filmdən bir kadr vardı. Həmin kadrın yanında iri şriftlərlə “xalq bu iqtidardan qurtulmalıdır!” sözləri yazılmışdı. Yanında da bir şəkil “qalereya”sı -kollaj vermişdilər. Şəkillərdə kimləri görsəm, yaxşıdır? “At ilxısı, köpək sürüsü.”- belə bir deyimi xatırladırdı. AXC hakimiyyəti zamanında baş nazir, müdafiə naziri, daxili işlər naziri, dövlət katibi, kadr məsələləri üzrə dövlət müşaviri və s.və il. a. vəzifələri zəbt etmiş köhnə qurdlar. Yadıma dərhal rayonlarımızın işğalı, dərəbəylik və aclıq illəri düşdü. Çünki bunların baiskarı bu şəkildəkilər idi. Maraqlandım ki, görəsən bunların nə haqqı var ki, belə çağırış edirlər? Həmin şəkildə gördüklərim beş-on nəfər sosial şəbəkədə özləri kimi “kişi”ləri yığıblar başlarına, bu iqtidarın əleyhinə qeybət edir, sinələrinə dambadaramla döyərək “siyasi məhbus”lardan, “Azərbaycanda demokratiyanın pozulmasından” dəm vururlar. Başqa bir kadrda isə hansısa xarici ölkədə məskən salmış Vidadi İsgəndərli uzun bir dedi-qodu seriyasından sonra xalqa “silahlı inqilab etməyi” məsləhət görürdü. Danışdıqlarının hamısı yalan, şər, böhtan, bir də bəzi məmurların xırda-mırda qüsurlarının şişirdilməsindən ibarət idi. Əsl məzhəkə idi, boğazdan yuxarı danışanların yarışına bənzəyirdi. Onların dediklərini təkrarlamağa ehtiyac yoxdur. Bildiyim budur ki, belə məzhəkələrdən bir şey çıxmaz, xalq belə şoulara heç baxmır da. Həm də dağıdıcı personajlar öz çağırışlarını sülendikləri xarici ölkələrdə edirlər, guya xalqı iqtidara qarşı itaətsizliyə çağırırlar. Açıq görünür ki, zamanında dövləti vəzifələrdə fərsiz çıxdıqları kimi, indi də “rejissorluqda” kaldırlar.

Sonda Rüstəm kişinin anonim yazanlara və qeybətcillərə dediyi daha bir sözünü dağıdıcıların yadına salıram: “Sözün var üzümə de, siçovul kimi ayağımın altını niyə eşirsən?”

## YENİLƏNƏN RAHAT YOLLAR

Dağlar diyarı Lerikdə yolların tikintisi, təmiri davam edir. Dövlət başçısının müvafiq sərəncamlarına əsasən rayonun ucqar kəndlərinə rahat yollar çəkilir. Şəhər mərkəzinə çıxışı təmin edən, 4 min nəfər sakinin yaşadığı 4 kəndi birləşdirən Lerik-Şinəband-Orand-Nuravud-Zərdəbərə avtomobil yolunun yenidən bərpası onlardan biridir. Burada yolun rahat, müasir standartlar səviyyəsində olması üçün bütün tədbirlər yüksək keyfiyyətlə görülür. Layihəyə uyğun olaraq 18 min poqonometr uzunluğunda küvetlərin açılması yaxın günlərdə başa çatacaq. Hal-hazırda müxtəlif diametrli 264 suötürücü dəmir-beton boruların quraşdırılması və izolyasiyası aparılır.

İşlər başa çatandan sonra yol əsasının tikintisi başlanacaq. Bu da yola 2 laydan ibarət asfalt-beton örtük döşənməklə tamamlanacaq. Qalan işlər də ardıcıl olaraq həyata keçiriləcək.

**Zəfər Orucoğlu,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

# Dini maarifləndirmə: həm gərəklidir, həm də...



Dünyadakı dəyişikliklər sürətlə baş versə də, bu, insan-din münasibətlərində özünü o qədər də büruzə vermir. Nəticədə müşahidələr onu deməyə imkan verir ki, din beynəlxalq münasibətlərdən tutmuş məişətə qədər müxtəlif sahələrdə təsir elementi olaraq qalmaqdadır. Bu isə dinin siyasiləşdirilməsinə, eyni zamanda, təsir vasitəsi kimi sui-istifadəsinə şərait yaradır. Bununla da dinlərin daxilində ayrı-ayrı cərəyanların meydana gəlmə halları və məzhəbçiliyin güclənməsi, xurafat meyillərinin çoxalması, dini təhsilin dünyəvi təhsilə qarşı qoyulması kimi aralıq faktorlarının yaranması cəmiyyətdə qarşıdurma yaratmaqla inkişafı əngəlləyir.

Söhbət İslam dinindən düşəndən din xadimlərinin birmənalı fikri ondan ibarətdir, İslam - sülh, əmin-amanlıq dinidir, onun düzgün təbliğ edilməsinə çalışılmalıdır.

Təbliğ edilmədən bəhs etdikdə isə qeyd etmək lazımdır ki, Azərbaycan mətbuatı tarixən dini xurafata qarşı mübarizə aparıb. Azərbaycanda mətbuat ənənəsinin yarandığı dövrdən - “Əkinçi”dən başlayaraq dinin düzgün düzgün təbliğ edilməməsinin səbəblərindən olan xurafata qarşı mübarizənin də əsası qoyulub. Bununla a Azərbaycan mətbuatı bütün islam dünyasının o cümlədən həm türk aləminin, həm də Şərqin aparıcı mətbuatlarından biri olub. Təkcə “Molla Nəsrəddin” jurnalının yayılma coğrafiyasına nəzər yetirdikdə, Azərbaycan mətbuatının müsəlman aləmində ki rolunu görmək mümkündür.

Ümumilikdə götürdükdə, Azərbaycanın milli mətbuat tarixində sovet dövrü istisna olmaqla elə bir mətbu orqan olmayıb ki, orada dinə özünəməxsus münasibət bildirilməsin. Bu mənada KİV dini fanatizmin yayılmamasında ölkəmizin keşiyində durur, fəaliyyətində xürafata və cəhalətə yer vermir. Hazırda ölkəmizdə fəaliyyət göstərən dini qurumlara aid müxtəlif mətbu orqanlar var ki, bu da dini maarifləndirməyə xidmət edir. Nəticədə dünyada İslam dininin terrorçuluğun hədəfinə çevrənlər, həmçinin İŞİD-in mahiyyəti barədə ölkə ictimaiyyətində geniş təsəvvür yaranması Azərbaycan mediasının bu sahədəki fəaliyyətinin bariz nümunəsidir.

Eyni zamanda, bəzi ölkələrdə Aşura ilə bağlı müşahidə olunan radikal, insan psixologiyasına və sağlamlığına mənfi təsir göstərən tədbirlərdən Azərbaycanda xeyli müddətdir ki, imtina olunması, əvəzində həmin tarixdə ölkə ərazisində ehtiyacı olan xəstələr üçün təşkil edilən könüllü qanvermə aksiyaları da ölkə KİV-lərinin dini maarifləndirmənin təbliğindəki roluna bir daha aydınlıq gətirir.

Lakin müasir dövrümüzdə internetin, eyni zamanda, sosial şəbəkələrin geniş vüsət alması dinlə edilən manipulyasiyalara qarşı mübarizə aparmaq imkanlarını bir növ çətinləşdirir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılovun sözlərinə görə, bəzi radikal, məzhəbçi dini qruplar sosial şəbəkələr, internet vasitəsilə öz təbliğatlarını davam etdirməyə çalışırlar. Dini dözümsüzlük əsasən xaricdən idarə olunan dini saytlar, xəbər portalları tərəfindən nümayiş etdirilir: “Bu isə onu deməyə əsas verir ki, həmin dini qruplar Azərbaycan mediasının dini məsələlərə sağlam yanaşmasını gördükləri üçün buna alternativ kimi xaricdən idarə olunan media formalaşdırmağa çalışırlar”.

Ekspertlər hesab edirlər ki, “əl-Şabab”, “Boko Haram”, İŞİD və digər terror qoşulan “döyüşçü”lərin coğrafiyasının genişlənməsinin əsas səbəbi sosial şəbəkələr vasitəsilə aparılan təbliğatın nəticəsidir. Bu mənada “Tvitter”, “Yutub” və digər sosial şəbəkə platformaları onlar üçün ucuz və effektli təbliğat vasitəsidir. Heç bir fiziki güc və əlavə resurs sərf etmədən özlərinə tərəfdar toplaya, istifadəçiləri terrorçuya çevirə bilirlər. Əvvəllər terrorçular özlərinə tərəfdar toplamaq üçün dünyanın müxtəlif ölkələrinə gedib orada təbliğat işi aparmalı idilər. Lakin bu, bir çox hallarda uğursuz olurdu. Çünki onlar həmin ölkələrin xüsusi xidmət orqanları tərəfindən zərərsizləşdirilir və ya məhv edilirdilər. İnternetin bəşəriyyətə təqdim etdiyi sərhədsiz imkanların insanlığın məhvinə yönəldilməsi ilə bağlı bir neçə faktı qeyd etmək vacibdir. Keçən əsrin 80-ci illərindən etibarən dünyanın müxtəlif bölgələrində yaradılan terror təşkilatlarına “xarici döyüşçülər” cəlb olunub və ya qoşulub. 1980-ci ilin statistikasına görə, “xarici döyüşçülərin” sayı 10 və 30 min arasında dəyişirdi. BMT-nin 2015-ci ildə nəşr etdiyi statistikaya görə, müxtəlif terror təşkilatlarına 100-dən çox ölkədən 40 minə yaxın “xarici döyüşçü” qoşulub.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Rəfi Qubanovun sözlərinə görə, ilkin mərhələdə terror qrupu və ya terror qrupu üçün “döyüşçü” yığan istifadəçilər öz zərərli ideologiyalarını rəsmi veb səhifələr, “Feysbuk” səhifələri, şəxsi elektron poçtlar, “Yutub” kanalları və “Tvitter” kimi sosial media platformaları vasitəsilə mesaj, videoçarx, onlayn mühazirə və yazılı sənəd formatlarında bütün istifadəçilərə göndərirlər: “Hədəf auditoriya (istifadəçilər) gələn məlumatları ixtiyari, yaxud qeyri-ixtiyari açıb oxuyur və ya izləyir. Bu zaman baxılan məlumatlar həmin istifadəçilərin profilləri vasitəsilə onların dostluq siyahısında olan digər şəbəkə istifadəçilərinin “divarında” görünməyə başlayır. Beləliklə, həmin istifadəçilər də zərərli məlumatlarla tanış olur.

Növbəti mərhələ “qıf”, yəni “ələkdən keçirmə” adlanır. Sosial şəbəkə platformalarının texniki göstəriciləri imkan verir ki, məlumatı bölüşən şəxs həmin məlumata bildirilən istənilən münasibəti görsün. Bu səbəbdən, “qıf” üsulu ilə hədəf istifadəçilər seçilir və onlarla virtual dialoq qurulur. Dialoq zamanı hədəf istifadəçiləri cəmiyyətdən uzaqlaşdırmaq üçün bir çox metoddan istifadə edilir. Kompüter arxasında oturan terror qrupunun üzvlərinin çoxu əqli, sosial və tibbi psixologiyanı mükəmməl bilir. Bu səbəbdən ünsiyyət qurduğu qurbanını asanlıqla cəmiyyətdən təcrid edir. “Qıf” üsulu ilə artıq onlar öz qurbanlarını növbəti mərhələyə hazırlayırlar.

Yoluxma mərhələsi - bu mərhələdə “kristal toxum” təcrübəsindən istifadə olunur. Bu yanaşmada fincandakı su - qurbanlar - tədricən və tam “donanadək soyudulur”. Zamanla radikalizmi təbliğ edən və onlayn istifadə təlimatları əks olunan kirli məlumatlara məruz qaldıqca beyinləri “yuyulmağa”, yəni bədii təsvirdəki kimi ifadə etsək, qurbanlar “donmağa” başlayır. Bu mətoddan daha çox “əl-Qaidə” terror təşkilatı istifadə edib.

Sonuncu mərhələ “aktivləşdirmə” adlanır. Aparılan təbliğat nəticəsində radikallaşan istifadəçilər onlayn təlimatlar vasitəsilə partlayıcı vasitələrdən, silahlardan istifadəni öyrənirlər. Daha sonra qurbana hədəf məkanın seçilməsi prosesi izah edilir və müəyyən edilmiş yerdə partlayışı törədəcəyi vaxt deyilir. Artıq zombiləşmiş qurban həmin məkanı partlatmaq üçün hərəkətə keçir”.

Bundan başqa, transmilli mediada məqsədli şəkildə radikal terror təşkilatlarının adının İslam dini birgə çəkilməsi, İslam daxilindəki məzhəb problemlərinin qabardılması islamofobiya meyillərinin artmasına xidmət edir. Bu tip media da İslama qarşı gücələrin “silahı” rolunda çıxış edir. Nəticədə bu gün dünyada İslam dininin yayılmasının qarşısını almaq istəyən güclər transmilli media vasitəsi ilə İslam dininə qarşı bir növ müharibə aparırlar.

Xüsusilə də son 20 ildə bu “fəaliyyət” daha qabarıq şəkil alıb. Əgər əvvəllər İslam daha çox gerilik və kobudluqla ələqələndirilirdisə, son 20 ildə qərbin “dördüncü hakimiyyəti” İslamı terrorizm və müharibə kontekstində səciyyələndirir. Nəticədə dünya ictimaiyyəti İslamın həqiqi mahiyyətini təhrif edən, dezinformasiya və saxtakarlıqlarla dolu olan bir kampaniyanın şahidi olmaqdadır.

İlk baxışda bu “təbliğat”ın İslam dini, mədəniyyəti və ənənələri ilə tanış olmayan Qərb kütləsinə yönəldiyi təəssüratı yaranır. Lakin məsələyə daha geniş kontekstdə yanaşdıqda məlum olur ki, psixoloji zərbənin əsas hədəfi öz dini ilə bağlı kifayət qədər məlumatlı olmayan, lakin özünü İslam dininin nümayəndəsi sayan müsəlmanlardır.

Dini məlumatsızlığın, daha böyük fəsadı isə belə şəxslərin dini təmayüllər üçün əlverişli “fürsətə” çevrilməsidir. Bu barədə danışarkən radikal dini təmayüllərin paxtaxtdan çox da uzaq olmayan - Nardaran qəsəbəsində, ölkəmizin “ikinci mərkəzi” sayılan Gəncədə qarışıqlıq salmaq cəhdlərini də yada salmağa ehtiyac yaranır. Belə ki, sözügedən təmayüllərin uzantıları İslamın əsl mahiyyətindən xəbərsiz insanlardan özlərinə “qalxan” yaratmağa çalışmışdılar.

Bu hadisələr eyni zamanda, din pərdəsi altında cinayətkar fəaliyyət göstərən şəbəkələrə mübarizədə “boşluqları” göstərməklə bu sahədə görülməli işlərin olduğuna “siqnal” hesab etmək olar.

Bir sözlə, istər həm ölkəmizdə, istərsə də bütün müsəlman aləmində İslami dəyərlərin daha geniş şəkildə təbliğinə və dini maarifləndirməyə böyük ehtiyac var. Bu mənada sözügedən məsələdə maraqlı tərəflərə yanaşı, media da məsuliyyət daşıyır.

Azərbaycan barədə danışsaq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də sözügedən istiqamətdə apardığı məqsədyönlü fəaliyyətini media ilə koordinasiya etməkdə maraqlı tərəf kimi çıxış edir. Çünki media vasitələri bu fəaliyyətin işıqlandırılmasında iştirak etməklə ölkədə dini maarifləndirmə işinin daha səmərəli təşkil olunmasına yardımçı olmaq baxımından ümumi işə öz töhfəsini verir. Bu tədbirlərin əsas məqsədi isə qloballaşan dünyamızda din pərdəsi altında baş verən təhlükəli hallara qarşı ölkədə maarifləndirici tədbirlərin daha geniş spektri əhatə etməsi, beləliklə də Azərbaycandakı bugünkü stabillik və tolerant mühitin təhlükəsizliyinin təmin olunmasına töhfə verməkdir. Bu tədbirlərin ana xəttini ölkəmizdə milli mənəvi və dini dəyərlərimizin təbliğ edilməsində, dinin ictimaiyyətə düzgün formada, mahiyyəti üzrə çatdırılmasında, eyni zamanda dini radikalizm, terrorizm və ekstremizmə qarşı mübarizədə media təmsilçilərinin üzərinə düşən vəzifələrin təşviqi təşkil edir, eyni zamanda ideoloji təhlükəsizlikdə medianın oynadığı böyük rol diqqətə çatdırılır.

**Ceyhun Piriyev,**
**“İki sahil”**

***Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan Mətbuat Şurasının 22 iyul Milli Mətbuat Günü münasibətilə “Din və media” mövzusunda keçirdiyi birgə müsabiqəsinə təqdim olunur.***

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**"Azneft" İB-nin struktur təşkilatlarının Neftin ölçü sistemlərində göstəriciləcək kalibrləmə və servis xidmətlərinin satınalınması məqsədi ilə Açıq Satınalma müsabiqəsi (1100/05, AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 23.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 30.07.2019 il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 118 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsi 12 ay ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı: Tələb olunmur***

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ 1000, Bakı şəhəri, Səbail rayonu, Neftçilər pr-ti 73
"Azneft" İstehsalat Birliyinin inzibati binası
**Əlaqələndirici şəxs:**
Baxışov Bahadur İPA və metrologiya şöbəsinin rəis müavini
Telefon nömrəsi: +99 412 521-11-04 (daxili: 11-104)
Elektron ünvan: Bahadur.Bakhishov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 30.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İB-nin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Qaz İxrac" İdarəsi

**tələbatına əsasən metalların açıq satınalma müsabiqəsi (22012-18) üzrə müvafiq tarixlərin dəyişdirilməsini elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 11.02.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 12.02.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər 118AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, Lot nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 30 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu; Rövşən Əliyev 19.
**Əlaqələndirici şəxs:** Vüqar İbrahimov (soyadı və adı).
Satınalmaların təşkili şöbəsinin mühəndisi (struktur bölmənin və vəzifənin adı)
+ (994)012 521 07 00 (22106) (əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
Mob: +(994)50 842 21 06
vuqar.ibrahimov@socar.az (əlaqələndirici şəxsin korporativ elektron ünvanı)

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 12.02.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Qaz İxrac" İdarəsinin Satınalmalar qrupu**

# Mədə yanğısına kömək edən 10 qida

**Hər bir insan həyatında bir dəfə də olsa, mədə yanğısından əziyyət çəkir. Bəzən biz bu problemlə mübarizə apara bilməyəcəyimizi belə düşünürük.**

Mədə yanğısı bir neçə saatdan artıq davam etməz, amma təkrar baş verdikcə, siz bu problemdən qurtula bilməyəcəyinizi düşünəcəksiniz. Əgər siz təbii qidalarla mədə yanğısından qurtulmaq istəyirsinizsə, düzgün qidalarla qidalanmağa başlamalısınız.

**Banan**



Banan planetdə ən məşhur meyvələrdən biridir . Tərkibində turşuluq az olduğundan mədə yanğısı ilə mübarizədə effektli qida hesab olunur.

Gündəlik qidanızda banandan istifadə etsəniz bu problemin özünüzdə yaranma riskini də azaldacaqsınız. O, mədə yanğısını azaltmaqla bərabər onu orqanizmdən tamamilə uzaqlaşdıra da bilər.

Mədə yanğısı yaranan zaman bananın daha tez təsir etməyini istəyirsinizsə , bananı əzib qarışdırın və tərkibində kalorisi az olan peçenyəyə və ya tost çörəyinə yayaraq yeyin.

**Süd**



Mədə yanğısı zamanı insanın köməyinə çatan ilk vasitə süd hesab olunur. Bu müalicə üsuluna daha çox yaşlı insanlar üstünlük verirlər.

Süd qələvi olduğundan mədə və nəfəs borusunda yaranan yanğıya rahatlıqla kömək edə bilir.

Lakin siz sadəcə süd içmək məcburiyyətində deyilsiniz. Belə ki, siz badamı südlə, kokosla, düyü ilə qarışdırıb içə bilərsiniz.

**Yaşıl tərəvəzlər**



Mədə yanmasını azaltmaq üçün tərkibində turşusu az olan qidaları yeməlisiniz.

Mədə yanmasının səbəbi turşulu qidalardı. Məsələn, sitrus meyvələrindən, meyvə şirələrindən və şəkərli qidalardan sonra mədə yanğıları baş verə bilər.

Brokoli, kök və qulançarlar təkcə pəhriz saxlayanlar üçün deyil, eyni zamanda, mədədəki yanğını azaltmaq üçün də istifadə olunur. Yaşıl tərəvəzlərin tərkibində zəngin qələvi xassələrindən faydalana bilərsiniz. Bunlar mədədəki turşuları tarazlaşdırmağa kömək edə bilər.

**Yulaf**



Yulafı siz müxtəlif cür istifadə edə bilərsiniz. Yulafı qatıq və meyvənin üzərinə əlavə edib və ya südün üstünə əlavə edib dadlı bir sıyıq da hazırlaya bilərsiniz.

Şəkərlə qarışdırılmış yulafdan isə uzaq durun. Çünki mədə yanğısını azaltmaq əvəzinə daha da artıracaq.

**Aloe Vera Bitkisi**

Aloe vera bitkilərindən adətən kremlərdə və ya gellərdə istifadə olunur. Amma aloe mədə yanğısına kömək edən bitkilər siyahısındadır. Müali-



cə zamanı kiçik miqdarda aloe şirəsi qəbul edə və ya alkoqolsuz içkiyə əlavə edərək içə bilərsiniz.

**Soda**



Bu siyahıda təklif olunan ləzzətli seçim olmasa da, ən tez bir zamanda köməyinizə çatacaq vasitədir.

Əgər bu üsuldan istifadə etmək istəyirsinizsə, o zaman az miqdarda istifadə edin və sodanın orqanizminizə olan təsirini görün.

**Zəncəfilli çay**



Əgər bitki çayı sevirsinizsə, bir fincan zəncəfilli çay için. 1 fincan zəncəfilli çayla mədə yanğısından tez bir zamanda qurtula biləcəksiniz. Maqazindən zəncəfil alın və ev üsullu yaşıl çay düzəldərək için, mədə yanğısından da azad olun.

Bu zaman stəkanın üzərinə azacıq miqdarda zəncəfil xırdalayın və üzərinə qaynar su əlavə edin.

thefactsite.com saytının materialları əsasında hazırladı:

**Leyla Şıxəli**

**Fidan Əlizadə**

## "Neftçi İdman Klubu"nun təmsilçiləri ilin birinci yarısında 676 medala sahib olublar



***"Neftçi İdman Klubu"nun yetirmələri həmişə olduğu kimi, bu il də müxtəlif yarışlarda uğurlu çıxışlarını davam etdirməkdədirlər. Belə ki, atletlərimiz ilin birinci yarısında əldə etdikləri medalların sayına görə yenə də ölkədə fəaliyyət göstərən idman qurumları arasında liderliklərini qoruyublar.***

Təmsilçilərimiz ilin ilk altı ayı ərzində ölkədaxili və beynəlxalq səviyyəli yarışlarda əzmlə mübarizə apararaq, 243-ü qızıl, 191-i gümüş və 242-si bürünc olmaqla, ümumilikdə 676 medal qazanıblar. İdmançılarımız dünya yarışlarında 7 (3 qızıl, 1 gümüş, 3 bürünc), Avropa yarışlarında 21 (8 qızıl, 4 gümüş, 9 bürünc), II Avropa Oyunlarında 9 (2 qızıl, 3 gümüş, 4 bürünc), beynəlxalq turnirlərdə isə 156 medala (48 qızıl, 42 gümüş, 66 bürünc) sahib olublar.

Respublika səviyyəli yarışlarda 190 medal (71 qızıl, 51 gümüş, 68 bürünc) əldə edən klubumuzun yetirmələri paytaxt yarışlarında 139 (49 qızıl, 41gümüş, 49 bürünc), digər yarışlarda isə 154 dəfə (62 qızıl, 49 gümüş, 43 bürünc) fəxri kürsüdə yer alıblar.

### ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın "Azəriqaz" İB-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Milli Məclisin deputatı Hüseynbala Mirələmova, əzizi

**Ataxan Şiriyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Qaz İxrac" İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Milli Məclisin deputatı Hüseynbala Mirələmova, əzizi

**Ataxan Şiriyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Vüqar Rəhimzadə Milli Məclisin deputatı, YAP Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmova, əzizi

**Ataxan Şiriyevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

SOCAR-ın "Neftqaztikinti" Trestinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Milli Məclisin deputatı Hüseynbala Mirələmova, əzizi

**Ataxan Şiriyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi Fuad Süleymanov, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Milli Məclisin deputatı Hüseynbala Mirələmova, əzizi

**Ataxan Şiriyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi: SOCAR
Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl HACIYEV
Baş redaktorun müavini: Nail Arifoğlu
Baş redaktorun müavini: Rəşad Bağırov
Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291
TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net
Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88
Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb: 12.07.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8125
İndeks: 0151, Sifariş: 2275
Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.